RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 120 (10140) 10 iyul 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan - regionun sabitlik və əməkdaşlıq ünvanı

## Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Cənubi Qafqazda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır

Azərbaycanın daxili sabitliyi və regional əməkdaşlıq təşəbbüsləri dövlətimizin başçısı tərəfindən mükəmməl şəkildə formalaşdırılmış və zamanın sınağından uğurla çıxmış balanslaşdırılmış xarici siyasət kursunun birbaşa nəticəsidir. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas xüsusiyyətlərindən biri qəbul edilən qərarların uzunmüddətli strateji hədəflərə hesablanmasıdır. Dövlət idarəçiliyindəki praqmatik yanaşma, milli maraqların ön planda tutulması və sürətlə dəyişən beynəlxalq reallıqlara çevik uyğunlaşma siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb.

Müasir dünyada əsas çatışmazlıqlardan biri dialoq platformalarının azlığıdır. Lakin Azərbaycanın qlobal və regional güclərin hər biri ilə açıq, qarşılıqlı hörmətə əsaslanan diplomatik əlaqələrə və dialoq imkanlarına malik olması rəsmi Bakıya geniş manevr imkanları verir. Vurğulanan məqamlar ölkəmizi qlobal güc mərkəzlərinin əməkdaşlıq etdiyi unikal məkana çevirir. Bu yanaşma Azərbaycanın xarici siyasətinin mühüm və strateji uğuru olmaqla yanaşı, dövlətimizi beynəlxalq arenada söz sahibi edir, onun etibarlı tərəfdaş statusunu gücləndirir.

Azərbaycan rəhbərliyinin mütəmadi vurğuladığı kimi, ölkəmiz geosiyasi rəqabət və qarşıdurma meydanı yox, sülh və əməkdaşlıq məkanıdır. Dövlətimizin təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı qlobal və regional layihələr ölkələri birləşdirir, qarşılıqlı iqtisadi asılılığı artırır və regionda davamlı sabitliyin təmin olunmasına xidmət edir. Yəni Azərbaycanın sabitlik və əməkdaşlıq məkanı olması bu günün hadisəsi deyil. Ölkəmiz hələ uzun zaman öncədən bu strateji kursu özünün dövlət fəlsəfəsi seçib. Zaman dövlətimizin başçısının uzaqgörən strategiyasının nə qədər doğru olduğunu sübuta yetirdi.

6

## "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2026-cı il*

## Rəqəmsal inkişaf və innovativ iqtisadiyyat seçim deyil, zərurətdir



Azərbaycanın rəqəmsal inkişaf arxitekturası, siyasi iradəyə əsaslanan strateji baxış artıq ölkə ictimaiyyətinə təqdim edilmişdir. İndi isə bu strategiyanın hüquqi arxitekturasının qurulması zərurəti yaranır.

Strategiya inkişafın məqsədini və istiqamətini müəyyənləşdirir, qanunvericilik isə həmin inkişafın dayanıqlılığını, hüquqi mexanizmlərini təmin edir. Strategiya həmçinin siyasi iradəni ifadə edir, qanunlar isə həmin siyasi iradəni hüquqi normaya çevirir.

İnnovativ iqtisadiyyat platformasında yeni maliyyələşdirmə mexanizmləri, investorların hüquqlarının etibarlı müdafiəsi, intellektual mülkiyyətin qorunması, startapların təşviqi, heç şübhəsiz, qanunla təmin olunmalıdır.

Müzakirəyə çıxarılan qanun layihələri ölkə rəhbərliyi tərəfindən elan olunmuş strateji kursun məntiqi davamıdır və mahiyyət etibarilə innovativ iqtisadiyyatın hüquqi əsaslarının yaradılmasına xidmət edir. Eyni zamanda bu layihələr innovasiyalar sahəsində özəl sektorun genişlənməsini, bu sahəyə investisiyaların cəlb edilməsini və Azərbaycanın regional innovasiya mərkəzlərindən birinə çevrilməsini dəstəkləyən mühüm qanunvericilik təşəbbüsü kimi dəyərləndirilməlidir.

3

## *Bakıdan başlayan 100 illik yol:* Türkoloji Qurultayın irsi




Birinci Türkoloji Qurultay dünya türkologiyasının tarixində dönüş nöqtəsi hesab olunur. İlk dəfə müxtəlif ölkələrdən gəlmiş alimlər vahid platformada türk dillərinin inkişafı, əlifba islahatı, tarix, ədəbiyyat, folklor, etnoqrafiya və mədəni irsin qorunması kimi fundamental məsələləri müzakirə etdilər. Həmin müzakirələr zahirdə elmi xarakter daşısa da, onların mahiyyətində daha böyük bir ideya dayanırdı. Qurultay parçalanmış coğrafiyalarda yaşayan türk xalqlarının ortaq kimlik şüurunun formalaşmasına xidmət edən intellektual hərəkat idi. Sonrakı repressiyalar bu ideyaların müəlliflərini susdura bildi, lakin onların irəli sürdüyü düşüncə sistemini tarixdən silə bilmədi.

7

## Aqrar sektorun inkişafında yeni dövr başlayır



Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Bu gün bizim 1500 hektarı əhatə edən istixanalarımız var, 500 hektar əlavə olunmalıdır. Əlbəttə ki, biz burada da, ilk növbədə özəl sektorun fəaliyyətinə arxalanırıq". Dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələrin rayonda uğurlu icrasını təşkil etmək üçün Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bu günlər Soyulan kəndi ərazisində fermer Zəfər Nəsirovun istixana kompleksində olub, təsərrüfatın gələcək fəaliyyəti və istehsal potensialının genişləndirilməsi imkanları ilə maraqlanıb.

9

## NATO Ankara sammitində hansı mesajları verdi?



NATO-nun Ankara sammitinin yekun bəyannaməsi qlobal müdafiə sənayesi və strateji tərəfdaşlıqlar baxımından mühüm qərarları ehtiva edir. Belə ki, sammitdə müttəfiqlərin 50 milyard dolları ötən yeni tədarük müqaviləsi imzaladıqları bildirildi. Kollektiv istehsal potensialını artırmaq və innovasiyaları sürətləndirmək üçün sənaye sektoru ilə birgə işləmək öhdəliyi rəsmiləşdirildi. Bir müttəfiqə qarşı edilən hücumun bütün müttəfiqlərə qarşı edilmiş sayıldığı NATO-nun 5-ci maddəsinə və transatlantik əlaqələrə "sarsılmaz sadiqlik" bir daha təsdiqləndi. Bununla yanaşı, daha güclü bir NATO daxilində daha güclü bir Avropa və modernləşdirilmiş bir Alyansın hədəfləndiyi vurğulandı. Həmçinin Hörmüz boğazının yenidən tamam açıq olmasının və gəmiçilik azadlığı prinsipinin qlobal sabitlik üçün mühüm əhəmiyyət kəsb etdiyi qeyd olundu.

5

## "Binaların enerji effektivliyi üzrə pasportlaşdırılması Qaydaları"nın təsdiq edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 205** **Bakı şəhəri, 9 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Binaların enerji effektivliyi üzrə pasportlaşdırılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

2. "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 306 (Cild I) ləğv edilsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

4. Bu Qərar 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Qazdan istifadə Qaydaları"nın təsdiq edilməsi və "Qazdan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 206** **Bakı şəhəri, 9 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qazdan istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

2. Müəyyən edilsin ki:

2.1. istehlakçının tikinti obyektinin qaz təchizatı ilə bağlı qaz satıcısı ilə qazın alqı-satqı müqaviləsinin bağlanılması "ASAN Kommunal" mərkəzləri yaradılmadığı regionlarda bu mərkəzlər yaradılanadək "ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilir;

2.2. "Qazdan istifadə Qaydaları"nda Elektron Hökumət İnformasiya Sisteminin xidmət kanalı üzərindən müvafiq sistem operatorunun informasiya sistemi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurların təşkili təmin edilənədək həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. "Qazdan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452 (Cild I); 2024, № 3, maddə 336; 2025, № 9, maddə 879, № 12 (II kitab), maddə 1209) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərdə mövcud olan vəzifələrin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda nəzərdə tutulmuş dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 207** **Bakı şəhəri, 9 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin əməkhaqqı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 629 nömrəli Fərmanının 2.1.2.2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin işçilərinin aylıq vəzifə maaşlarının məbləğinin yuxarı həddinin müəyyənləşdirilməsi məqsədilə "Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərdə mövcud olan vəzifələrin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda nəzərdə tutulmuş dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

2. Publik hüquqi şəxslərə tapşırılsın ki, müvafiq Vahid Tarif-İxtisas Sorğu Kitabçaları ilə müəyyən edilmiş vəzifə (peşə) adları və ya tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla, mövcud vəzifələrin bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıya müvafiq olaraq dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılmasını tətbiq etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin və "Geodeziya və Kartoqrafiya Agentliyi"nin strukturu, işçilərinin say həddi və əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 208** **Bakı şəhəri, 9 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin strukturu" təsdiq edilsin *(əlavə olunur).*

2. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi"nin strukturu" təsdiq edilsin *(əlavə olunur).*

3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin aparatının işçilərinin say həddi 44 ştat vahidi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin Geologiya və Rəqəmsal Müşahidə Mərkəzinin işçilərinin say həddi 46 ştat vahidi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin regional ərazi şöbələrinin işçilərinin say həddi 30 ştat vahidi və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi"nin işçilərinin say həddi 200 ştat vahidi olmaqla təsdiq edilsin.

4. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin aparatının işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin *(əlavə olunur).*

5. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin Geologiya və Rəqəmsal Müşahidə Mərkəzinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi"nin regional ərazi şöbələrinin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin *(əlavə olunur).*

6. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi"nin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan işğaldan azad edilmiş ərazilərdə ekosistemlərin bərpası, meşələrin salınması və "yaşıl enerji" layihələri həyata keçirir

## Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın "Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi" mövzusunda videokonfransında çıxış edib



Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 9-da Parlamentlərarası İttifaqın "Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi" mövzusunda videokonfransında çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova çıxışında silahlı münaqişələr zamanı ətraf mühitin qorunmasının təkcə ekoloji olmadığını, bunun humanitar, hüquqi və təhlükəsizlik baxımından zəruri bir məsələ olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, silahlı münaqişələr təkcə insan faciələrinə deyil, həm də ekosistemlərə, biomüxtəlifliyə, su ehtiyatlarına və kənd təsərrüfatı ərazilərinə uzunmüddətli ziyan vurur. Bu isə dayanıqlı inkişafı zəiflədir və gələcək nəsillərə mənfi təsir göstərir.

Beynəlxalq humanitar hüququn silahlı münaqişələr zamanı ətraf mühitin qorunması üçün mühüm hüquqi çərçivə yaratdığını vurğulayan Milli Məclisin Sədri qeyd edib ki, onun effektivliyi milli səviyyədə tətbiqindən asılıdır. O, bu baxımdan parlamentlərin rolunu qeyd edib. Bildirilib ki, qanunvericilik orqanları beynəlxalq humanitar hüququn prinsiplərinin milli qanunvericilikdə əks etdirilməsini təmin etmək, onların icrasına nəzarəti gücləndirmək, ətraf mühitə vurulan zərərə görə hüquqi məsuliyyət mexanizmlərinin təkmilləşdirilməsinə töhfə vermək və beynəlxalq əməkdaşlıq vasitəsilə münaqişədən sonrakı ekoloji bərpa prosesini dəstəkləməklə mühüm rol oynayır.

Parlamentin spikeri çıxışında Azərbaycanın təcrübəsində silahlı münaqişələrin ətraf mühit üçün yaratdığı dağıdıcı nəticələri tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, otuz il davam etmiş işğal dövründə işğaldan zərər çəkmiş ərazilərə genişmiqyaslı ekoloji ziyan vurulmuş, meşələr qırılmış, torpaqlar deqradasiyaya uğramış, su ehtiyatları çirkləndirilmiş, biomüxtəliflik məhv edilmiş və təbii sərvətlər qanunsuz istismar olunmuşdur. Bundan əlavə, Sahibə Qafarova deyib ki, ərazilərdə basdırılmış bir milyondan artıq mina həm insanlar, həm də təbiət üçün ciddi təhlükə yaratmaqda davam edir, ekoloji bərpa prosesini və məcburi köçkünlərin təhlükəsiz qayıdışını ləngidir.

Milli Məclisin Sədri qeyd edib ki, bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı humanitar minatəmizləmə, ekosistemlərin bərpası, meşələrin salınması və "yaşıl enerji" layihələrini həyata keçirir. Azərbaycan parlamenti ölkənin müvafiq beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə uyğun olaraq, yeni qanunlar qəbul etmək və mövcud qanunlara düzəlişlər etməklə milli hüquqi çərçivəni gücləndirməyə davam edir. Bundan əlavə, 2024-cü ildə Milli Məclis Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişiklik etmiş, Məcəlləyə "Ekosid" adlı maddə əlavə edib və ekosidi sülh və bəşəriyyət əleyhinə cinayət kimi təsbit edib. Həmçinin "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlar qəbul olunub.

Spiker Sahibə Qafarova həmçinin 2024-cü ilin noyabr ayında Bakıda Parlamentlərarası İttifaq və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən COP29 çərçivəsində birgə təşkil edilmiş Parlament Görüşündə qəbul olunan Yekun Sənədi xüsusi vurğulayaraq qeyd edib ki, həmin sənəd parlamentləri münaqişələrin ətraf mühitə təsirlərinin qarşısını almağa, minaların və partlamamış hərbi sursatların vurduğu ekoloji zərər barədə məlumatlılığı artırmağa və ekosidlə mübarizə sahəsində qanunvericilik təşəbbüslərini gücləndirməyə çağırır. Onun sözlərinə görə, bu tövsiyələr COP29-a evsahibliyi etmiş ölkə kimi Azərbaycanın uzunmüddətli mövqeyini tam şəkildə əks etdirir: ətraf mühitin qorunması münaqişələrin qarşısının alınmasının, münaqişədən sonrakı bərpa prosesinin və dayanıqlı sülhün təmin edilməsinin ayrılmaz tərkib hissəsi olmalıdır.

Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha beynəlxalq humanitar hüququn həyata keçirilməsini daha da gücləndirmək və gələcək nəsillər üçün daha təhlükəsiz və dayanıqlı bir gələcəyi təmin etmək məqsədilə birgə səyləri davam etdirməyə çağırıb.

***"Azərbaycan"***

# Rəqəmsal hədəflər ayrıca hüquqi mexanizmlərin yaradılmasını zəruri edir

Azərbaycanda son illər rəqəmsal transformasiya sahəsində atılan addımlar ölkənin müasirləşmə strategiyasının mühüm prioritetlərindən birinə çevrilib. Bu proses dövlət idarəçiliyinin çevikliyini artırmaq, şəffaflığı təmin etmək və vətəndaşlara göstərilən xidmətləri tam rəqəmsallaşdırmaq məqsədi daşıyır.



Ölkəmizdə rəqəmsallaşma sahəsindəki mövcud vəziyyət və gələcək hədəflərin hüquqi və institusional bünövrəsi birbaşa Azərbaycan rəhbərliyinin siyasi iradəsinə əsaslanır. Prezident İlham Əliyevin rəqəmsal keçid sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncamlar bu sahədə vahid dövlət siyasətinin formalaşmasına təkan verib. Xüsusilə dövlətimizin başçısının rəhbərliyi ilə keçirilən müşavirədə ölkənin innovasiya ekosisteminin inkişafı, rəqəmsal hökumətin tam formalaşdırılması qarşıya mühüm vəzifə olaraq qoyulub.

Bu sahədəki fəaliyyətlərin effektiv koordinasiyası və strateji qərarların icrası məqsədilə Rəqəmsal İnkişaf Şurasının yaradılması və fəaliyyətə başlaması prosesə xüsusi dinamizm gətirib. Rəqəmsal Şuranın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilən ilk iclasında ölkəmizin rəqəmsal gələcəyinin yol xəritəsi müəyyənləşdirilib, dövlət xidmətlərinin tam inteqrasiyası, kibertəhlükəsizlik mühitinin gücləndirilməsi və insan kapitalının rəqəmsal bacarıqlarının artırılması kimi strateji hədəflər rəsmiləşdirilib.

Strateji addımların davamlılığını təmin etmək üçün ölkədə rəqəmsal mühitin müasir tələblərinə cavab verən güclü hüquqi baza formalaşdırılır və mütəmadi olaraq təkmilləşdirilir. Yeni texnologiyaların, innovativ xidmətlərin tənzimlənməsi üçün hüquqi çərçivənin yenilənməsi bu sahədəki islahatların ən mühüm istiqamətlərindən biridir. Parlamentdə müzakirə edilən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsi rəqəmsal transformasiyanın sürətləndiyi, kibertəhdidlərin isə getdikcə mürəkkəbləşdiyi müasir dövrdə ölkəmizin informasiya təhlükəsizliyinin hüquqi əsaslarının gücləndirilməsinə xidmət edən mühüm sənəddir.

Bu gün artıq informasiya təhlükəsizliyi yalnız texniki məsələ deyil, o, milli təhlükəsizliyin, iqtisadi sabitliyin, dövlət idarəçiliyinin və vətəndaşların hüquqlarının qorunmasının ayrılmaz tərkib hissəsidir. Dövlət xidmətlərindən bank əməliyyatlarına, səhiyyədən təhsilə qədər bütün sahələr rəqəmsal platformalara əsaslanır. Deməli, həmin platformaların təhlükəsizliyi də dövlətin strateji prioritetlərindən biri olmalıdır. Qanun layihəsinin əsas üstünlüyü ondan ibarətdir ki, ilk dəfə olaraq "informasiya təhlükəsizliyi", "kibertəhlükəsizlik", "kritik informasiya infrastrukturu", "Milli CERT", "SOC", "rəqəmsal tədqiqat", "rəqəmsal dəlil" kimi anlayışlar vahid hüquqi sistem daxilində dəqiq müəyyən edilir və onların fəaliyyət mexanizmləri tənzimlənir.

Diqqətəlayiq məqamlardan biri də ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin olunması ilə bağlı ayrıca hüquqi mexanizmlərin müəyyən edilməsidir. Bu, enerji, nəqliyyat, rabitə, maliyyə, səhiyyə və digər strateji sahələrin dayanıqlığının artırılması baxımından olduqca vacibdir.

Həkim və Milli Məclisin Səhiyyə komitəsinin üzvü kimi qeyd etmək istərdim ki, səhiyyə sektoru artıq ən həssas informasiya sistemlərindən biridir. Elektron xəstəlik tarixçələri, laborator məlumatlar, tibbi sığorta sistemləri və telemedisina xidmətləri kibertəhlükəsizliyin yüksək səviyyədə təmin edilməsini zəruri edir. Tibb müəssisələrinə yönələn kiberhücumlar yalnız məlumat itkisinə deyil, bəzən insanların həyat və sağlamlığı üçün də real təhlükə yarada bilər. Bu baxımdan layihənin müddəaları səhiyyə sisteminin rəqəmsal dayanıqlığını gücləndirmək baxımından da xüsusi əhəmiyyət daşıyır.

Digər mühüm yenilik rəqəmsal inkişaf layihələrinin əlaqələndirilməsi və maliyyələşdirilməsinə dair vahid yanaşmanın tətbiq edilməsidir. Bu yanaşma dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə, layihələrin təkrarlanmasının qarşısının alınmasına və rəqəmsal inkişaf sahəsində vahid dövlət siyasətinin formalaşmasına xidmət edəcək. Layihədə tənzimləyici test mühiti, yəni "regulatory sandbox" mexanizminin nəzərdə tutulmasını da müsbət qiymətləndirirəm. Bu mexanizm innovativ rəqəmsal həllərin və süni intellekt texnologiyalarının təhlükəsiz şəkildə sınaqdan keçirilməsinə, yeni texnologiyaların daha çevik tətbiqinə imkan yaradacaq. Eyni zamanda Milli CERT-in səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi, informasiya mübadiləsinin vahid platforma üzərindən həyata keçirilməsi və kiberinsidentlərə operativ reaksiya mexanizmlərinin formalaşdırılması ölkəmizin kibermüdafiə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirəcək. Hesab edirəm ki, bu qanun layihəsi Azərbaycanın rəqəmsal inkişaf strategiyasına, milli kibertəhlükəsizlik siyasətinə və dövlət idarəçiliyinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlara tam uyğun gəlir. Layihənin ümumi fəlsəfəsini, məqsədini və strateji istiqamətini tam dəstəkləyirəm. Konseptual baxımdan bu layihə ölkəmizin informasiya və kibertəhlükəsizlik sisteminin yeni mərhələyə yüksəldilməsi üçün mühüm hüquqi baza yaradır.

Bu gün Azərbaycan rəqəmsal infrastrukturunu yeniləyən və regional rəqəmsal mərkəzə çevrilməyi hədəfləyən bir ölkədir. Gələcək hədəflər isə təkcə xidmətlərin elektronlaşdırılmasını deyil, süni intellekt əsaslı proqnozlaşdırıla bilən rəqəmsal iqtisadiyyatın tam bərqərar olunmasını nəzərdə tutur.

Şübhə yox ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasında müəyyənləşdirilən prioritetlər Azərbaycanın rəqəmsal inkişafını yeni mərhələyə yüksəldəcək, ölkəmizi regionun süni intellekt və kibertəhlükəsizlik mərkəzlərindən birinə çevirəcək, iqtisadiyyatımızın rəqabət qabiliyyətini daha da gücləndirəcək.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



# Rəqəmsal inkişaf və innovativ iqtisadiyyat seçim deyil, zərurətdir

## İnnovativ qanunvericilik təşəbbüsləri rəqəmsal transformasiya üzrə strateji kursun məntiqi davamıdır

**"Rəqəmsal inkişaf ölkəmizin gələcəyini müəyyən edir".**
*İlham ƏLİYEV*



Son dövrlər rəqəmsal inkişaf və innovativ iqtisadiyyatın formalaşması ilə bağlı gündəliyin aktuallaşması, heç şübhəsiz, Prezident İlham Əliyev tərəfindən bu sahədə strateji baxışın və dövlət siyasətinin elan edilməsi ilə bağlıdır. Eyni zamanda milli iqtisadiyyatımızın innovativ və rəqəmsal relslər üzərinə keçirilməsini yeni dövrün hədəfləri diktə edir. Bunlar iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, məhsuldarlığın artırılması, yüksək əlavə dəyər yaradan fəaliyyətlərin genişləndirilməsi və rəqabət qabiliyyətinin artırılmasıdır. Rəqəmsal transformasiya və innovasiyasız bu hədəflərə nail olmaq mümkün deyil.

### İnnovasiyalar sahəsində ilk qanunvericilik təşəbbüsləri

Azərbaycan Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmiş innovativ fəaliyyətin dəstəklənməsinə dair qanun layihələri dövlətimizin məhz yeni mərhələdə rəqəmsal və texnoloji inkişaf sahəsində təşəbbüslərini və strateji hədəflərini əks etdirir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında qanun layihələri geniş müzakirə olunmuş və plenar iclasda 1-ci oxunuşa təqdim edilmişdir. Deputat həmkarlarımız dövlət başçısının innovativ qanunvericilik təşəbbüslərini dəstəkləməklə yanaşı, konseptual və məzmunlu çıxışları ilə rəqəmsal keçid strategiyasının mahiyyətini açıqlamış, bu sahədə maarifləndirmə işinə ilkin mərhələdə ciddi töhfə vermişlər.

Təqdim edilən layihələr mahiyyətcə ayrı-ayrı sənədlər deyil, əslində, bir-biri ilə sıx bağlı olan, vahid innovasiya zəncirinin hüquqi təminatını yaradan inteqrə olunmuş qanunvericilik paketidir. Bu səbəbdən də həmin layihələri birləşdirən vahid dövlət strategiyası, innovasiyalar sahəsində qanunvericilik təşəbbüsləri konseptual olaraq təqdim edilmişdir. Həmin kontekstdə "qanun nəyi dəyişir" sualına deyil, "niyə bu qanunları qəbul edirik" sualına cavab verilməsini məqsədəuyğun hesab edirik.

Azərbaycanın rəqəmsal inkişaf arxitekturası, siyasi iradəyə əsaslanan strateji baxış artıq ölkə ictimaiyyətinə təqdim edilmişdir. İndi isə bu strategiyanın hüquqi arxitekturasının qurulması zərurəti yaranır.

Strategiya inkişafın məqsədini və istiqamətini müəyyənləşdirir, qanunvericilik isə həmin inkişafın dayanıqlılığını, hüquqi mexanizmlərini təmin edir. Strategiya həmçinin siyasi iradəni ifadə edir, qanunlar isə həmin siyasi iradəni hüquqi normaya çevirir.

İnnovativ iqtisadiyyat platformasında yeni maliyyələşdirmə mexanizmləri, investorların hüquqlarının etibarlı müdafiəsi, intellektual mülkiyyətin qorunması, startapların təşviqi, heç şübhəsiz, qanunla təmin olunmalıdır.

Müzakirəyə çıxarılan qanun layihələri ölkə rəhbərliyi tərəfindən elan olunmuş strateji kursun məntiqi davamıdır və mahiyyət etibarilə innovativ iqtisadiyyatın hüquqi əsaslarının yaradılmasına xidmət edir. Eyni zamanda bu layihələr innovasiyalar sahəsində özəl sektorun genişlənməsini, bu sahəyə investisiyaların cəlb edilməsini və Azərbaycanın regional innovasiya mərkəzlərindən birinə çevrilməsini dəstəkləyən mühüm qanunvericilik təşəbbüsü kimi dəyərləndirilməlidir.

### Davamlı innovativ inkişafa yalnız hüquqi təminatlar zəmanət verə bilər



Təqdim edilən qanun layihələrinin müddəalarını sadəcə olaraq yeni tənzimləyici hüquqi normaların təsbiti, qanunlara ənənəvi dəyişikliklər kimi qəbul etməməliyik. Bu təşəbbüslər innovasiya iqtisadiyyatının təşəkkülü istiqamətində atılan sistemli addımlardır və onun əsas missiyası Azərbaycan iqtisadiyyatını daha texnologiyayönümlü və dayanıqlı etməkdir. Tarixi təcrübə göstərir ki, texnologiyalar iqtisadiyyatı dəyişir, amma qanunlar həmin dəyişiklikləri davamlı və dayanıqlı inkişaf modelinə çevirir. Təqdim edilən innovativ qanun layihələri həm də "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrasından irəli gəlir.

Hazırda ölkəmizdə startapların inkişafını təmin edən müasir maliyyələşdirmə mexanizmlərinin hüquqi bazası kifayət qədər formalaşmayıb. Təklif olunan qanun layihələri bu boşluğu aradan qaldırmaqla yerli və xarici investorların texnoloji sektora cəlb edilməsinə, innovasiya ekosisteminin genişlənməsinə təkan verəcək. Layihələrin məqsədi vençur, kraudfandinq və "mələk investor" kimi maliyyələşmə alətlərinin milli qanunvericilikdə tanınmasını təmin etmək, innovasiya, rəqəmsal texnologiyalar və süni intellekt sahəsində çoxşaxəli güzəştlər və təşviqlər üçün hüquqi əsaslar yaratmaqdır. Həmçinin bu layihələr rəqəmsal cəmiyyətin çoxsaylı anlayışlardan ibarət müasir, innovativ leksikonunu formalaşdırır. Heç bir innovasiya ekosistemi, heç bir rəqəmsal iqtisadiyyat yalnız inzibati qərarlarla və ya dövlət proqramları ilə inkişaf edə bilməz. İnnovasiyanın davamlı inkişafı yalnız hüquqi təminatlar mövcud olduqda mümkündür.

### Vahid rəqəmsal inkişaf arxitekturası və innovasiyalara aparan yol xəritəsi

Təbii ki, öncə ölkəmizdə qurulmaqda olan vahid rəqəmsal inkişaf arxitekturasını vurğulamalıyıq. O, bir tərəfdən rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik üzrə fəaliyyət istiqamətlərini əhatə edir. Digər tərəfdən də bütöv bir sistem kimi rəqəmsal dövlət idarəçiliyini, rəqəmsal iqtisadiyyatı və rəqəmsal cəmiyyəti özündə birləşdirir. Əsas məqsəd ölkənin texnoloji potensialını gücləndirmək, innovasiyaya əsaslanan iqtisadi modelə keçidi sürətləndirmək və bu sahədə vahid dövlət siyasətini koordinasiyalı şəkildə həyata keçirməkdir.

İnnovasiyaların dövlət siyasətinin əsas istiqaməti olaraq elan edilməsi və müəyyənləşdirilməsi düşünülmüş, müasir çağırışları nəzərə alan uzunmüddətli strategiyadır. Strategiya dövlət siyasətini müəyyən edir, dövlət siyasəti innovativ iqtisadi modeli formalaşdırır, qanunvericilik isə həmin modeli dayanıqlı hüquqi sistemə çevirir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev rəqəmsal inkişafı dövlətimizin gələcəyini müəyyən edən mühüm amil kimi xüsusi vurğulamışdır. Təqdim olunan qanun layihələri də məhz həmin strateji baxışın qanunvericilik müstəvisində həyata keçirilməsinə xidmət edir.

Xatırlatmaq istərdik ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 3-cü strateji istiqaməti "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" adlandırılmışdır. Azərbaycanda həmçinin rəqəmsal inkişaf sahəsində həm strateji baxışı müəyyən edən "Rəqəmsal İnkişaf Konsepsiyası", "Süni İntellekt Strategiyası", həm də icranı təmin edən "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair Fəaliyyət Planı" təsdiq olunmuşdur. Bunun məntiqi davamı kimi 2026-cı il fevral ayının 11-də dövlət başçısının sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilmişdir. Bu tədbir rəqəmsal inkişafla bağlı siyasi iradəni bir daha nümayiş etdirdi.

### İlham ƏLİYEV: "Qarşıdakı dövr daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq"

Bir məqamı da nəzərə almalıyıq ki, innovativ inkişaf məsələləri son illər strateji sənədlərdə əksini tapsa da, o, heç də yeni dövrün prioriteti deyil. Hələ 2016-cı ildə Prezident İlham Əliyev qeyd edirdi ki, qarşıdakı dövr daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq... İnnovasiyalara üstünlük verilməlidir... Biz Azərbaycana qabaqcıl texnologiyaları gətirməliyik və kadr potensialı da hazırlanmalıdır ki, gələcəkdə texnoloji tərəqqidən kənarda qalmayaq. Dövlət başçısının bu fikirləri onu göstərir ki, rəqəmsal transformasiya artıq uzun illərdir ki, ölkənin ümumi inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi nəzərdə tutulub.

Son 10 il ərzində Azərbaycanda rəqəmsal keçidə hazırlıq istiqamətində dövlət tərəfindən çox mühüm işlər görülmüşdür. Dövlətimiz innovativ inkişafa nail olmaq üçün zəruri infrastruktur, institusional baza və rəqəmsal ekosistemi mərhələli şəkildə formalaşdırmışdır. Bu gün qəbul olunan strategiyalar və qanunvericilik paketi həmin uzunmüddətli hazırlıq mərhələsinin məntiqi yekunudur.

Fikrimizi əsaslandırmaq üçün indiyə kimi görülmüş işləri ardıcıllıqla təqdim etmək yetərlidir.

1. Rəqəmsal infrastrukturun yaradılması
   - ölkə üzrə genişzolaqlı internet şəbəkəsi genişləndirildi;
   - "Onlayn Azərbaycan" layihəsi həyata keçirildi;
   - fiber-optik şəbəkələr genişləndirildi;
   - yüksəksürətli internetin əhatə dairəsi əhəmiyyətli dərəcədə artırıldı.
2. Rəqəmsal dövlət idarəçiliyi sisteminin formalaşdırılması
   - elektron hökumət xidmətləri inkişaf etdirildi;
   - daha sonra "mygov" vahid rəqəmsal platforması istifadəyə verildi;
   - dövlət xidmətlərinin rəqəmsallaşdırılması sürətləndirildi;
   - vətəndaş-dövlət münasibətlərində rəqəmsal yanaşma geniş tətbiq olunmağa başladı.
3. Texnoloji infrastrukturun qurulması
   - məlumat emalı mərkəzləri yaradıldı;
   - dövlət məlumat sistemlərinin inteqrasiyası gücləndirildi;
   - "Hökumət buludu" (G-Cloud) layihəsinə başlanıldı və dövlət qurumlarının informasiya sistemləri mərhələli şəkildə bu platformaya köçürüldü.

### Rəqəmsal keçidin institusional aspektləri

Rəqəmsal keçid üçün zəruri infrastruktur yaradıldıqdan sonra nəzərdə tutulan tədbirlərin sürətlə və səmərəli icrası bu prosesin institusional aspektlərinə xüsusi diqqət yetirilməsini şərtləndirir. Rəqəmsal transformasiya sistemli xarakter daşıdığına görə bu sahədə dövlət orqanlarının birgə fəaliyyəti və müvafiq təşkilati mexanizmin yaradılması tələb olunur.

Fevralın 11-də keçirilmiş müşavirədə Prezident İlham Əliyev rəqəmsal keçid sahəsində dövlət qurumları arasında sıx koordinasiyanın aparılmasını, pərakəndəliyə yol verilməməsini xüsusi olaraq tapşırmışdır. Eyni zamanda nəzərdə tutulan işlərin daha sistemli həyata keçirilməsi üçün hər bir dövlət qurumunda rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir rəhbər məsul şəxsin təyin edilməsi tövsiyə olunmuş və bütün qurumlarda bu sahə prioritet istiqamət olaraq elan edilmişdir. O da tapşırılmışdır ki, dövlət qurumları üzrə göstərilən xidmətlər müxtəlif platformalar və tətbiqlər vasitəsilə deyil, vahid mərkəzdən - "mygov" üzərindən həyata keçirilsin. Bunlardan əlavə, müşavirədə rəqəmsal və innovativ inkişafla bağlı məsələlər üzrə müvafiq icra hakimiyyəti orqanlarının mandatı müəyyən edilmişdir. Rəqəmsal inkişaf və innovativ iqtisadiyyat üzrə kadr hazırlığının təşkili də əsas vəzifələrdən biri kimi qeyd olunmuşdur. Çünki rəqəmsal transformasiya çoxşaxəli və uzunmüddətli proses olduğuna görə gələcəkdə bu sahədə ixtisaslaşmış kadrlara böyük ehtiyac yaranacaq. Prezidentin digər mühüm tapşırıqlarından biri süni intellektin tətbiqinin dövlət qurumlarında vüsət almasına nail olmaq, dövlət məmurlarının öz gündəlik xidməti fəaliyyətlərində süni intellektdən geniş istifadə etməsini təşviq etmək olmuşdur.

Rəqəmsal transformasiya prosesinin institusional baxımdan çevik və səmərəli təşkili məqsədilə Prezident İlham Əliyev tərəfindən Rəqəmsal İnkişaf Şurası yaradılmışdır. Şuranın ilk iclasında müvafiq proqramların icrası, innovasiya siyasətinin vahid yanaşma əsasında həyata keçirilməsi və bu sahədə qanunvericilik bazasının formalaşdırılması məsələləri geniş müzakirə edilmişdir.

Formalaşmış institusional çərçivə rəqəmsallaşma ilə bağlı hər bir qurumun fəaliyyət dairəsini və mandatını müəyyən edir. Belə ki, rəqəmsal inkişaf strategiyası Prezident tərəfindən müəyyən edildikdən sonra onun icrasını hökumət həyata keçirir, hüquqi bazasını isə parlament formalaşdırır.

### Qlobal rəqəmsal iqtisadiyyatda son inkişaf meylləri

Azərbaycan rəqəmsallaşma üzrə qlobal transformasiyanın iştirakçısı olduğuna, ciddi hədəflər qarşıya qoyduğuna görə, bu sahədə dünyada baş verən meyllərin öyrənilməsini və təhlil olunmasını vacib hesab edirik. Nəzərə almalıyıq ki, dünya iqtisadiyyatı yeni inkişaf mərhələsinə daxil olmuşdur. İndi ölkələrin iqtisadi gücü və rəqabət üstünlüyü ənənəvi istehsal amilləri, o cümlədən təbii sərvətlərlə deyil, innovasiya və yeni texnologiyalar yaratmaq, onları iqtisadi dövriyyəyə cəlb etmək və yüksək əlavə dəyər formalaşdırmaq qabiliyyəti ilə ölçülür.

Hazırda qlobal rəqəmsal iqtisadiyyatın həcmi təxminən 24 trilyon dollara çataraq dünya üzrə ÜDM-in 21 faizini təşkil edir. Bu o deməkdir ki, dünyada yaradılan hər 5 dollarlıq əlavə dəyərin təxminən 1 dolları innovativ iqtisadiyyatın payına düşür. Rəqəmsal sektor üzrə qlobal illik artım tempi 8-9 faiz olmaqla, ənənəvi iqtisadiyyatdakı 3,1 faizlik artımı təxminən 3 dəfəyədək qabaqlayır. Dünyada rəqəmsal xidmətlərin ixracı 4 trilyon dolları keçib. Bu rəqəmlər onu göstərir ki, gələcəyin iqtisadiyyatında əsas ixrac məhsulu xammal deyil, yüksək əlavə dəyər yaradan texnoloji xidmətlər olacaq.

### İdeya necə innovasiyaya çevrilərək yeni dəyər yaradır?

İnnovasiya yeni ideyanın yaranması deməkdir. Lakin ideya öz-özlüyündə iqtisadi dəyər yaratmır. O yalnız maliyyələşdirildikdə, biznesə çevrildikdə, bazara çıxarıldıqda və kommersiyalaşdırıldıqda yeni iqtisadi dəyər yaradır. Əgər rəqəmsal iqtisadiyyat yeni inkişaf modelidirsə, innovasiya onun hərəkətverici qüvvəsidir. Startaplar isə innovasiyanın əsas daşıyıcılarıdır.

İnnovativ iqtisadiyyatın mahiyyətini innovasiya zənciri vasitəsilə daha aydın təsəvvür etmək mümkündür. Bu zəncir bilikdən başlayır, ideyaya, innovasiyaya və startapa çevrilir, daha sonra vençur kapitalı və digər müasir maliyyələşdirmə alətləri ilə dəstəklənir. Nəticədə innovativ məhsul və xidmətlər yaranır, ixrac genişlənir, yüksək əlavə dəyər formalaşır, dayanıqlı və keyfiyyətli iqtisadi artım təmin edilir.

İnnovasiya layihələrinin həyata keçirilməsində özəl sektor ciddi şəkildə təşviq olunmalıdır. Nəzərə almalıyıq ki, dövlət innovasiyanı yaratmır, dövlət innovasiyanın yaranması üçün hüquqi, institusional və maliyyə mühitini formalaşdırır. İnnovasiyanın əsas daşıyıcısı özəl sektor, startaplar, investorlar və təhsil-tədqiqat müəssisələridir. Təklif olunan qanunvericilik paketi də məhz bu innovasiya zəncirinin ayrı-ayrı halqalarının hüquqi əsaslarını formalaşdırır.

### Azərbaycanda rəqəmsal və innovativ iqtisadiyyata keçidin strateji əhəmiyyəti

Sual oluna bilər ki, Azərbaycanda rəqəmsal iqtisadiyyatın qurulması niyə bu qədər strateji və həyati əhəmiyyət kəsb edir? Hansı səbəbdən dövlət özünün bütün inzibati və iqtisadi resurslarını bu məqsəd naminə səfərbər edir? İnnovasiya təşəbbüslərinin dəstəklənməsi nə üçün bu qədər vacibdir?

Bu, son illər dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər fonunda ölkələrarası rəqabətin daha da artması ilə bağlıdır. Perspektiv dövr dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi ilə səciyyəvi olacaqdır. Məhz buna görə də innovativ inkişaf bizim üçün artıq seçim deyil, zərurətdir. Azərbaycan dünyada artan rəqabətə hazır olmaq məqsədilə yüksək rəqabətqabiliyyətli insan kapitalını formalaşdırmalıdır. İnnovativ iqtisadiyyat da elə insan kapitalından başlayır. Bunun üçün maarifləndirilmiş rəqəmsal cəmiyyət, müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait ən vacib şərtlərdən biridir.

Rəqəmsallaşma strategiyası, əslində, innovasiyaya əsaslanan yeni iqtisadi artım konsepsiyasına keçidi nəzərdə tutur. Onun real nəticələri rəqəmsal sektorun milli iqtisadiyyatda, o cümlədən ixracın strukturunda payının artması ilə xarakterizə olunacaq. Hazırda bu göstəricilər ölkəmizin potensialını əks etdirmir. Belə ki, innovasiya sektorunun gəlirləri təxminən 1 milyard manat, ixrac həcmi isə 100 milyon dollar təşkil edir. Müvafiq strategiya çərçivəsində bu rəqəmlərin azı 10 dəfəyədək artırılması hədəflənir. Buna nail olmaq üçün yeni dəyər yarada bilən innovasiya ekosisteminə xüsusi əlverişli şərait yaratmalıyıq. Müzakirə etdiyimiz qanunvericilik paketi məhz bu məqsədə xidmət edir.

Əminik ki, rəqəmsal keçid istiqamətində görülən fundamental və sistemli tədbirlər, institusional tənzimləmə innovasiya əsaslı inkişaf modelini formalaşdıraraq milli iqtisadiyyatımızda ciddi keyfiyyət dəyişikliklərinə təkan verəcək və Azərbaycanı regionda innovativ lider ölkəyə çevirəcək.

*Azər ƏMİRASLANOV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri*

# "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda ictimai müzakirə keçirilib



İyulun 9-da Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının təşkilatçılığı ilə "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda ictimai müzakirə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komissiyanın sədri Ramid Namazov Milli Məclisin Sədri Sahibə Qafarovanın tövsiyəsi ilə təşkil olunan tədbirdə ölkəmizin tərəqqisində, cəmiyyətin zərərli təsirlərdən qorunması və gələcək nəslin formalaşmasında vacib hesab edilən mövzuların müzakirə ediləcəyini söyləyib.

Bildirilib ki, bu gün dünyada süni intellektin sürətli inkişafı, data mərkəzlərinin yaradılması və rəqəmsallaşma prosesi ölkələrin gələcək iqtisadi mövqeyini, rəqabət qabiliyyətini və milli təhlükəsizliyini müəyyən edən strateji amilə çevrilib. Azərbaycanın rəqəmsal arxitekturasının qurulmasında, ümumiyyətlə, rəqəmsal transformasiyasında Prezident İlham Əliyevin strateji uzaqgörənliyi xüsusilə qeyd olunub. Bu istiqamətdə dövlət başçımızın imzası ilə qəbul edilən hüquqi aktların - "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın, "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın, "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"nın əhəmiyyətindən bəhs edilib.

Bununla yanaşı, cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə dövlət başçımızın söylədiyi "artıq süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar ölkələrin gələcək inkişafını müəyyənləşdirir və Azərbaycan bu istiqaməti öz prioritetlər siyahısında önə qoymalıdır" kimi fikirlərinin xüsusi önəm kəsb etdiyi vurğulanıb. Qeyd edilib ki, həmin müşavirədə rəqəmsallaşmanın seçim yox, zərurət olduğu və məsələyə, sadəcə, texnoloji müstəvidən deyil, kompleks şəkildə - insan kapitalı, investisiya mühiti, milli təhlükəsizlik və beynəlxalq mövqe baxımından yanaşılması tələbi qoyuldu. Prezidentin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradıldı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi altında şuraya "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət funksiyası həvalə edildi.

Diqqətə çatdırılıb ki, iyunun 29-da keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz çıxışında şuranın məqsədi ilə bağlı önəmli fikirlər səsləndirib. Burada yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan vermək, investisiyalar cəlb etmək, yerli startaplara dəstək olmaq və daha səmərəli dövlət idarəetmə sistemi yaratmaq əsas hədəflər olaraq göstərilib. Kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsindəki risklərə hazır olmağın vacibliyi qeyd olunub. Bununla yanaşı, qanunvericilik islahatlarının miqyası barədə danışılarkən bunun rəqəmsal ekosistemin tənzimlənməsi istiqamətində həyata keçirilən əhatəli və fundamental islahat təşəbbüsü olduğu deyilib.

Ramid Namazov həmçinin süni intellekt sahəsində fəaliyyət istiqamətlərinə toxunub. Bildirilib ki, ölkədə artıq Milli Superkompüter Mərkəzi qurulub və bu, bizə imkan verir ki, mürəkkəb süni intellekt modelləri xarici bulud xidmətlərindən asılı olmadan, ölkə daxilində təhlükəsiz şəkildə öyrədilsin və idarə edilsin. Bu, həm milli təhlükəsizlik, həm də rəqəmsal suverenlik baxımından strateji addımdır, dövlətə məxsus həssas məlumatlar artıq ölkə sərhədlərini tərk etmədən emal oluna bilir. Qeyd olunub ki, "Suveren süni intellekt"in inkişafı rəqəmsal müstəqillik, informasiya təhlükəsizliyi və milli təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir və dövlət idarəetməsində səmərəliliyin artırılması, qərarvermə proseslərinin optimallaşdırılması və iqtisadiyyatın şaxələndirilməsi üçün geniş imkanlar yaradır. Habelə nəzərə çatdırılıb ki, növbəti addım kimi 2028-ci ilin sonuna qədər Azərbaycan dili üzrə Böyük Dil Modellərinin yaradılması məsələsidir. Öz dilimizdə güclü modellər yaratmaq mədəni və linqvistik suverenliyimizi daha da artıracaq. Bununla yanaşı, Süni İntellekt Strategiyası dörd əsas istiqaməti əhatə edir: süni intellektin idarə edilməsinin təkmilləşdirilməsi, məlumatların idarə edilməsi və hesablama infrastrukturunun inkişafı, kadr potensialının gücləndirilməsi və ictimai maarifləndirmə.

Qeyd olunub ki, uşaqlar və yeniyetmələr üçün sosial media platformalarında geniş yayılmış kiberzorakılıq, kiberqısnama, yaşa uyğun olmayan məzmuna məruz qalma və onlayn cinsi zorakılıq edən şəxslər tərəfindən istismar riski ciddi narahatlıq doğurur. Nəzərə çatdırılıb ki, Azərbaycanda uşaqların yaşa uyğun informasiya əldə etmək və zərərli informasiyadan mühafizəsi hüquqi cəhətdən hələ 2018-ci ildə qəbul edilmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunla tənzimlənir. Lakin sosial şəbəkə platformalarının bu illər ərzində keçdiyi transformasiya, sadə ünsiyyət vasitəsindən çoxşaxəli, alqoritmlə idarə olunan, bir çox hallarda isə manipulyativ dizayn həllərindən istifadə edən nəhəng ekosistemlərə çevrilməsi daha dəqiq tənzimləmə mexanizmlərini zəruri etdi. Bu baxımdan cari il iyunun 30-da Milli Məclisin qəbul etdiyi İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara edilən dəyişikliklərin uşaqlarımızı sosial media platformalarındakı zərərli təsirlərdən qorumaq, sağlam düşüncəli gələcək nəslin formalaşması sahəsində mühüm əhəmiyyət kəsb etdiyi söylənilib.

Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi sahəsində Mehriban xanım Əliyevanın xidmətləri, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilib. Bu baxımdan, Mehriban xanım Əliyevanın həm Rəqəmsal İnkişaf Şurasının sədri, həm də uşaqların rifahının uzunmüddətli müdafiəçisi olması, rəqəmsal siyasətin təkcə iqtisadi səmərəlilik və texnoloji irəliləyiş prizmasından deyil, həm də insani, humanizm tərəfdən formalaşdırıldığının göstəricisi olaraq vurğulanıb.

Sonra tədbirdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış ediblər.

Bildirilib ki, müasir həyatda süni intellekt gündəlik istifadə edilən rəqəmsal platformalarda geniş tətbiq olunur. Lakin hər bir texnoloji inkişaf kimi, süni intellekt və rəqəmsal platformalar da müəyyən risklər yaradır. Xüsusilə uşaqlar və yeniyetmələr internetdən və sosial şəbəkələrdən geniş istifadə etdikləri üçün bu risklərə daha həssas qrup hesab olunurlar. Müasir dövrdə internetin sürətli inkişafı və kibertəhdidlərin artması fonunda uşaqların virtual təhlükəsizliyinin təmini mühüm strateji vəzifəyə çevrilib. Bu sahədə yaranan problemlərin həllində dövlət, məktəb, ailə, texnologiya şirkətləri və vətəndaş cəmiyyəti birlikdə fəaliyyət göstərməlidir. Qeyd olunub ki, müasir texnologiyanın imkanlarından düzgün və səmərəli istifadə etməklə, süni intellekt və rəqəmsal inkişaf gələcək nəsillər üçün daha təhlükəsiz, daha savadlı və daha innovativ bir dünya qurmağa xidmət edəcək.

Çıxışlarda habelə hazırda rəqəmsal məkanda uşaqların təhlükəsizliyini təmin etməyə yönəlmiş beynəlxalq hüquqi çərçivənin mövcud olduğu söylənilib. Azərbaycanın bu sahədə qüvvədə olan Avropa Şurasının Uşaqların Cinsi İstismar və Cinsi Zorakılıqdan Müdafiəsi haqqında, BMT-nin Uşaq Hüquqları haqqında və Avropa Şurasının Kibercinayətkarlıq haqqında konvensiyalarına qoşulduğu nəzərə çatdırılıb. Bununla yanaşı, BMT-nin Kibercinayətkarlıq haqqında Konvensiyasının 2024-cü ilin dekabr ayında qəbul edildiyi və Azərbaycan bu sənədi ratifikasiya edən ilk ölkələrdən biri olduğu qeyd edilib. Həmçinin bildirilib ki, bu sahədə milli qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm addımlar atılıb. Bu istiqamətdə Prezidenti İlham Əliyevin "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" sərəncamının əhəmiyyəti xüsusi vurğulanıb.

Qeyd olunub ki, dövlətin rəqəmsal transformasiyası prosesində vətəndaşların, xüsusilə də uşaqların hüquqlarının qorunması vacib sahələrdən biridir. Burada əsas məqsəd uşaqlar üçün daha təhlükəsiz rəqəmsal mühit yaratmaq, zorakılığın təşviqini aradan qaldırmaq, uşaq hüquqlarının pozulmasının qarşısını almaq və yetkinlik yaşına çatmayanların fiziki və ya psixoloji inkişafına zərər verə biləcək məzmunun yayılmasını məhdudlaşdırmaqdır. Bildirilib ki, uşaq və gənclərə öz ideyalarını həyata keçirməyə, praktik bacarıqlar qazanmağa və ölkənin rəqəmsal iqtisadiyyatının inkişafına töhfə verməyə imkan verən təhsil proqramları, startaplar və digər layihələr böyük əhəmiyyət kəsb edir.

Bununla yanaşı bildirilib ki, Azərbaycan artıq rəqəmsal iqtisadiyyat modelinə keçid mərhələsindədir və bu proses yalnız dövlət proqramları ilə deyil, möhkəm hüquqi baza ilə təmin olunmalıdır. Rəqəmsal transformasiyanın dövlət idarəçiliyində, iqtisadiyyatda və cəmiyyətdə fundamental dəyişikliklər tələb etdiyi və bunun üçün siyasi iradənin əsas şərt olduğu söylənilib. Qeyd edilib ki, artıq bu istiqamətdə strateji sənədlər qəbul olunub, dövlət proqramları təsdiqlənib, institusional çərçivə yaradılıb və dövlət qurumlarının səlahiyyətləri müəyyənləşdirilib.

Çıxışlarda Azərbaycanda uşaqların hüquqlarının müdafiəsinin hər zaman dövlətin prioritet məsələlərindən hesab edildiyi vurğulanıb. Rəqəmsal mühitdə mövcud qanunvericilik mexanizmlərinin təkmilləşdirilməsi və yeni hibrid təhdidlərə uyğunlaşdırılmasının vacibliyindən bəhs edilib. Bununla yanaşı, maarifləndirmə tədbirlərinin, o cümlədən uşaqlara dezinformasiya və deepfake kontentləri ayırd etmək bacarığının aşılanmasının, ailələrin rəqəmsal təhlükəsizlik proqramları barədə məlumatlılığının artırılmasının əhəmiyyətindən söhbət açılıb.

Daha sonra ictimai müzakirədə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov, Milli Məclisin deputatları Kamal Cəfərov, Tahir Mirkişili, Rizvan Nəbiyev, Gülşən Paşayeva, Zaur Şükürov, "Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi" İctimai Birliyinin sədri Rauf Zeyni, Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli, "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə, "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, müasir dövrdə dünya iqtisadiyyatında rəqabətin əsas hərəkətverici qüvvələri texnologiya, innovasiya və insan kapitalıdır. Qeyd olunub ki, son illərdə ölkəmizdə rəqəmsal inkişaf dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyən edilib və bu sahədə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir.

Tədbirdə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın əsas istiqamətlərindən bəhs olunub. Rəqəmsal suverenliyin möhkəmləndirilməsi, gənclərin rəqəmsal bacarıqlarının artırılması məqsədilə təşkil olunan təlimlərin əhəmiyyəti, rəqəmsal texnologiyalar vasitəsilə iqtisadi səmərəliliyin yüksəldilməsi, innovativ həllərin tətbiqi və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Eyni zamanda uşaqların sosial şəbəkələrdən istifadəsində valideyn nəzarətinin əhəmiyyəti, onların rəqəmsal asılılıqdan qorunması, kibertəhlükəsizliyin təmin edilməsi və təhlükəsiz rəqəmsal mühitin formalaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Çıxışlarda rəqəmsal savadlılığın artırılması, ictimai maarifləndirmə tədbirlərinin genişləndirilməsi və təhlükəsiz rəqəmsal davranış vərdişlərinin təşviqi istiqamətində vətəndaş cəmiyyətinin üzərinə düşən məsuliyyətlərdən də bəhs olunub. Bununla yanaşı, gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr, qarşıda duran çağırışlar və bu sahədə dövlət-özəl sektor-vətəndaş cəmiyyəti əməkdaşlığının əhəmiyyəti xüsusi vurğulanıb.

İctimai müzakirənin yekununda Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri Ramid Namazov Azərbaycanda rəqəmsal inkişaf sahəsində son beş ay ərzində çox mühüm institusional addımların atıldığını, vahid koordinasiya sisteminə keçidin uğurla reallaşdırıldığını bildirib. Dövlət başçımızın strateji qərarları nəticəsində bu sahədə uğurla irəliləmək üçün artıq konkret yol xəritəsinin və institusional mexanizmin mövcud olduğu diqqətə çatdırılıb. Dövlət qurumlarının, özəl sektorun və vətəndaş cəmiyyətinin birgə səyi ilə Azərbaycanın həm rəqəmsal xidmətlər, həm də rəqəmsal təhlükəsizlik baxımından regionun etibarlı liderlərindən birinə çevriləcəyinə əminlik ifadə olunub.

İctimai müzakirədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Milli Məclisin deputatları Əminə Ağazadə, Kamran Bayramov, Sevil Mikayılova, Rasim Musabəyov, Elşən Musayev, Samir Vəliyev, Arzuxan Əli-zadə, Elman Nəsirov, Azər Badamov, Aydın Hüseynov, Parlament Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov, aidiyyəti qurumların təmsilçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# "Cənubi Qafqazdakı yeni güc balansı Bakı-Ankara strateji koordinasiyanın nəticəsidir"

Azərbaycan Prezidenti İlham Əliyevə ictimai etimadın və onun fəaliyyətinə dəstəyin yüksək səviyyədə olması təkcə seçki prosesləri və ya iqtisadi göstəricilərlə izah edilə bilməz. Xüsusilə beynəlxalq sistemdə rəqabətin dərinləşdiyi, regional təhlükəsizlik böhranlarının artdığı və geosiyasi dəyişikliklərin sürətləndiyi indiki şəraitdə liderlik anlayışı dövlətin təhlükəsizliyi təmin etmək qabiliyyəti, suverenliyini möhkəmləndirməsi, böhranların idarə olunması bacarığı və beynəlxalq sistemdə təsirli aktor kimi mövqeyi ilə birbaşa bağlıdır.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **siyasi elmlər və beynəlxalq münasibətlər üzrə mütəxəssis Serkan GÜNDOĞDU** bildirib.

O qeyd edib ki, Azərbaycanda formalaşan yüksək siyasi etimadı qiymətləndirərkən ölkənin son illərdə yaratdığı yeni təhlükəsizlik paradiqmasını nəzərə almamaq mümkün deyil.

"Qarabağda formalaşan yeni status-kvodan sonra Azərbaycan təkcə ərazi bütövlüyünü bərpa etmiş dövlət kimi çıxış etməyib, eyni zamanda Cənubi Qafqazın gələcəyini müəyyənləşdirən əsas geosiyasi aktorlardan birinə çevrilib. Bu transformasiya dövlətin institusional imkanlarına dair ictimai inamı daha da gücləndirib və siyasi liderliyin legitimliyini dəstəkləyən əsas amillərdən biri kimi ön plana çıxıb. Bu transformasiyanı yalnız milli potensialla izah etmək tam mənzərəni əks etdirmir. Azərbaycanın son illərdə qazandığı strateji nailiyyətlərin ən mühüm amillərindən biri, heç şübhəsiz, Türkiyə ilə formalaşdırdığı hərtərəfli strateji müttəfiqlik modelidir. "Bir millət, iki dövlət" prinsipi artıq yalnız ortaq tarix və mədəni bağları ifadə edən simvolik yanaşma deyil. Bu konsepsiya müdafiə sənayesi, hərbi koordinasiya, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, diplomatik əlaqələndirmə və regional böhranların idarə olunmasını əhatə edən çoxşaxəli strateji tərəfdaşlıq modelinə çevrilib", - deyə mütəxəssis bildirib.

Onun sözlərinə görə, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini klassik strateji tərəfdaşlıq mərhələsindən institusionallaşmış müttəfiqlik səviyyəsinə yüksəldib. Beləliklə, Ankara-Bakı xətti artıq yalnız ikitərəfli münasibətlərin deyil, həm də Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının əsas müəyyənedici elementlərindən birinə çevrilib. Beynəlxalq münasibətlər nəzəriyyəsində uğurlu müttəfiqliklərin ortaq təhlükə qavrayışı, ümumi strateji məqsədlər və yüksəksəviyyəli institusional koordinasiya üzərində qurulduğu qəbul edilir. Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər də məhz bu üç əsas sütun üzərində formalaşıb. İki ölkə yalnız böhran dövrlərində deyil, normallaşma mərhələlərində də birlikdə siyasət formalaşdırmaq qabiliyyətini inkişaf etdirir. Bu isə müttəfiqliyi reaktiv modeldən çıxararaq proaktiv regional nizam yaradan strateji mexanizmə çevirir.

S.Gündoğdunun sözlərinə görə, bu gün Cənubi Qafqazda formalaşan yeni güc balansı böyük ölçüdə Bakı ilə Ankara arasında qurulan strateji koordinasiyanın nəticəsidir. "Xüsusilə müdafiə sahəsində ortaq imkanlar, hərbi təhsil proqramları, birgə təlimlər və müdafiə sənayesi üzrə əməkdaşlıq regional çəkindiriciliyin güclənməsinə mühüm töhfə verir. Təhlükəsizlik tədqiqatlarında "genişləndirilmiş çəkindirmə" kimi xarakterizə olunan bu yanaşma yalnız iki ölkənin təhlükəsizliyini artırmır, eyni zamanda regionda sabitliyin qorunmasına xidmət edən yeni tarazlıq mexanizmi yaradır", - deyə Serkan Gündoğdu əlavə edib.

# "Prezident İlham Əliyevə yüksək ictimai etimad Azərbaycanın tarixi uğurlarının nəticəsidir"

Prezident İlham Əliyevə Azərbaycan cəmiyyətində göstərilən yüksək ictimai etimad və yüksək reytinq kifayət qədər aydın səbəblərlə izah olunur. Cəmiyyət hər zaman əldə olunan konkret nəticələrə qiymət verir və bu nəticələr bu gün açıq şəkildə görünür.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri Tatyana POLOSKOVA** deyib.

O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qarşısında duran ən mühüm milli məsələlərdən biri həll olunub: "İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycanın işğal altında olan əraziləri Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edildi, ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Bu, dövlətçilik tarixində mühüm nailiyyətdir və cəmiyyətin dövlət başçısına göstərdiyi yüksək etimadın əsas səbəblərindən biridir. Prezident İlham Əliyev Azərbaycanı regionun aparıcı dövlətlərindən birinə çevirməyə nail olub.

Nisbətən kiçik əraziyə malik və əsasən təbii resursları ilə tanınan Azərbaycan bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində təkcə Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada mühüm cazibə mərkəzinə çevrilib. Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə fəal əməkdaşlıq edir, ərəb dövlətləri ilə əlaqələrini genişləndirir və regionun əsas inkişaf mərkəzlərindən biri kimi çıxış edir".

Rusiyalı ekspert hesab edir ki, Azərbaycanın inkişaf perspektivləri də kifayət qədər genişdir. "Azərbaycanın gələcəkdə Türkiyə, Qazaxıstan və digər tərəfdaş dövlətlərlə birlikdə dünya miqyasında mühüm iqtisadi və mədəni cazibə mərkəzlərindən birinə çevrilməsi üçün bütün imkanlar mövcuddur. Cənubi Qafqazda gedən proseslər Rusiyada da böyük maraqla izlənilir. Biz Rusiyada Azərbaycanda baş verən prosesləri diqqətlə izləyirik. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticələri həm regionda, həm də beynəlxalq səviyyədə aydın şəkildə görünür", - deyə T.Poloskova bildirib. O, Azərbaycan-Rusiya münasibətlərinə də toxunaraq bildirib ki, iki ölkə arasında əməkdaşlıq sabit və praqmatik əsaslar üzərində inkişaf etməlidir. "Biz hesab edirik ki, Azərbaycan-Rusiya münasibətləri sabit, işgüzar və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanmalıdır. Bu münasibətlər hər iki ölkənin inkişafı üçün mühüm potensiala malikdir. Hesab edirəm ki, qarşıdurma heç bir tərəfin maraqlarına xidmət etmir və münasibətlər qarşılıqlı hörmət, etimad və əməkdaşlıq prinsipləri əsasında inkişaf etdirilməlidir", - deyə Rusiyanın birinci dərəcəli dövlət müşaviri vurğulayıb.

# "Zəngəzur dəhlizi qlobal ticarətin həcmini artırmaqla yanaşı, Türkiyə və Azərbaycanın regionlarının iqtisadi inkişafına böyük təkan verəcək"

"Orta dəhlizin əsas seqmenti olan Zəngəzur dəhlizi qlobal ticarətin həcmini artırmaqla yanaşı, Türkiyə və Azərbaycanın regionlarının iqtisadi inkişafına da böyük təkan verəcək. Dəhlizin Naxçıvan ilə Türkiyəni birləşdirən hissəsi regional ticarətin, iqtisadi əlaqələrin və turizmin inkişafına dəstək olacaq. Naxçıvanın Türkiyə üzərindən Avropaya çıxışını təmin edəcək".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin **"365 gün" media qrupunun rəhbəri Yakub ASLAN** deyib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizi ideyası uzaqgörən geosiyasi addımdır. Bu dəhliz yalnız 2 ölkənin deyil, ümumilikdə region dövlətlərinin nəqliyyat əlaqəsinin genişlənməsinə xidmət edir. Bu da öz növbəsində həmin ölkələrin iqtisadi-ticarət əlaqələrinin artmasına, iqtisadi inkişafına əhəmiyyətli töhfə verir: "Qars-İğdır-Aralık-Dilucu-Naxçıvan dəmir yolu xətti 224 kilometrdir və qlobal strateji dəyəri olan layihədir. Hələ 2023-cü ilin sentyabrında Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Qars-Naxçıvan dəmir yolu layihəsi ilə bağlı niyyət protokolu imzalayıblar. Ötən il isə layihənin tikintisinə başlanıb. Bu layihə Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində atılmış mühüm tarixi addım hesab olunur. Yeni dəmir yolu illik 5,5 milyon sərnişin və 15 milyon ton yük daşımağa imkan yaradacaq. Regiondakı sülh prosesini daha da irəli apararaq sabitliyin dayanıqlı olmasına şərait yaradacaq".

Ekspert deyib ki, gələcəkdə tikintisi davam edən Qars-İğdır-Aralık-Dilucu-Naxçıvan dəmir yolu Türkiyə, Ermənistan və Azərbaycan arasında dəmir yolu əlaqələrinin gücləndirilməsinə töhfə verəcək. Bu nəqliyyat layihəsi, sadəcə, ölkənin infrastrukturuna qoyulan investisiya deyil, istehsalı, ixracı, məşğulluğu, turizmi, regional inkişafı və beynəlxalq əməkdaşlığı təşviq edən strateji xarakter daşıyan layihədir. Türkiyənin 2002-ci ildə dəmir yolu şəbəkəsinin uzunluğu təxminən 11 min kilometr idi, bu gün isə söhbət 14 min kilometrdən gedir. Türkiyə dəmir yolu şəbəkəsini 2028-ci ilə qədər 17 min 287 kilometrə, 2053-cü ilə qədər isə 28 min 590 kilometrə çatdırmağı planlaşdırır".

# Daxili İşlər Nazirliyində 6 ayın yekunları müzakirə olunub



İyulun 9-da Daxili İşlər Nazirliyində 2026-cı ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.



İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirdiyini bildirib. Beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin etibarlı təmin olunduğunu, qanunla müəyyən edilmiş funksiyaların digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıqla icra edildiyini vurğulayıb. Qarşıda mühüm vəzifələrin dayandığını da diqqətə çatdıraraq onların ətraflı müzakirəsinin, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə əlavə təşkilati tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin vacibliyini qeyd edib.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Hesabat məruzəsində vurğulanıb ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 15.420 cinayət qeydə alınıb və onların 95,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub, 87 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növləri təşkil edib.

2025-ci ilin 6 ayı ilə müqayisədə ümumi cinayətlər 8,6, ağır və xüsusilə ağır cinayətlər 6,5, mülkiyyət əleyhinə olanlar 15,3, onlardan oğurluqlar 11,5, dələduzluqlar 16,8, soyğunçuluqlar 8,8, quldurluqlar 44,2, hədə-qorxu ilə tələb etmələr 10,5, habelə xuliqanlıqlar 12,5, yetkinlik yaşına çatmayanların cinayətləri 15,3, ailə münaqişəsi zəminində törədilənlər 3,5, qrup halında baş verənlər 16,6 faiz, odlu silahın tətbiqi ilə törədilənlər 3 fakt, yol-nəqliyyat hadisələrinin sayı 7,6 faiz, qəzalarda xəsarət alanların sayı 19 faiz, həlak olanların sayı 9 faiz azalıb.

Cinayətlərin açılması 1,1 faiz, qeyri-aşkar şəraitdə törədilənlərin açılması 2,5 faiz, mülkiyyət əleyhinə olanların açılması 4,4 faiz, onlardan oğurluqların açılması 10,7 faiz, dələduzluqların açılması 1,2 faiz yaxşılaşıb, adam oğurluğu və avtonəqliyyat vasitəsinin qaçırılması cinayətlərinin açılması tam təmin edilib.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 93,9 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 218 və görülmüş operativ cavab tədbirləri ilə 3.013 cinayət açılıb, eləcə də 4.474 hüquqazidd əməlin qarşısı alınıb. Müxtəlif cinayətlər törətmiş 6.887 şəxs məhkəmə məsuliyyətinə verilib. İstintaqdan və təhqiqat orqanlarından yayınan 4.282, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 645 təqsirləndirilən şəxs tutulub. Axtarış işinin nəticələri 3 faiz yaxşılaşaraq 82,7 faizə yüksəlib.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 288, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 104 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 70 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Eyni zamanda 3.088 odlu silah, 337 qumbara və 99 mindən çox patron aşkarlanıb.

Qeyri-leqal dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 360 kiloqram çox, yəni 4 ton 318 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 254 tondan artıq çətənə və xaş-xaş kolu aşkarlanıb məhv edilib. Bu növ əməllərə görə 41 cinayətkar qrup zərərsizləşdirilib, 2.652 şəxs cinayət məsuliyyətinə cəlb olunub.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm funksiyaların icrası da davam etdirilərək 3.889 şəxsin qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb. Nazirliyə daxil olmuş müraciətlər operativ araşdırılaraq hər biri təşəbbüskarların hüquqları izah edilməklə yazılı cavablandırılmışdır.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Azərenerji" və Dünya Bankı nümayəndə heyətlərinin görüşü olub



"Azərenerji" ASC-nin sədri Baba Rzayev və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Rolande Praysın rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş olub.

Görüşdə AZURE layihəsinin ümumi gedişatı, komponentlər üzrə son vəziyyət, qarşıda görüləcək işlər, yeni əməkdaşlıq imkanları barədə müzakirələr, Azərbaycanda həyata keçirilən irihəcmli bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası və əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# NATO Ankara sammitində hansı mesajları verdi?

NATO-nun iyulun 7-8-də Ankarada keçirilən 36-cı sammitinin müzakirə dairəsi geniş idi. Alyansın Ukraynaya hərbi dəstəyindən tutmuş Avropanın müdafiə sənayesinin gücləndirilməsinə, təhlükəsizlik və yeni qlobal maliyyə sistemlərinin qurulmasına qədər məsələlər sammitdə müzakirə olundu. Bu sammit həm də Alyansın yeni strateji hədəflərini müəyyənləşdirdi.



Sammit ev sahibi Türkiyə üçün rəmzi və tarixi əhəmiyyət kəsb etdi. Bu, 2004-cü ildə keçirilən və Alyansın qlobal böhranların idarə edilməsi modelinə ("NATO 2.0") keçidini rəsmiləşdirən İstanbul sammitindən 22 il sonra ölkədə keçirilən ikinci ən böyük NATO tədbiri idi. Türkiyə bu dəfə yeni reallıqların müzakirə ünvanına çevrildi.

Sammitlə bağlı liderlər mətbuata açıqlama verdilər. NATO-nun Baş katibi Mark Rutte tədbiri yüksək qiymətləndirdi. Bildirdi ki, bir il əvvəl Haaqada götürülən öhdəliklər artıq həyata keçirilir. Onun sözlərinə görə, Şimali Atlantika Alyansı əvvəlkindən daha güclüdür və müttəfiqlər arasında münasibətlər möhkəmdir. Baş katib ABŞ Prezidenti Donald Trampın NATO ideyalarına həmişə sadiq olduğunu vurğuladı. Mark Rutte həmçinin çox sayda yeni öhdəliklərin elan olunduğunu diqqətə çatdırdı, ittifaq daxilində müdafiə xərclərinin və sənaye investisiyalarının artdığını qeyd etdi.

Polşa Baş nazirinin müavini və xarici işlər naziri Radoslav Sikorski Türkiyənin NATO-dakı xüsusi önəminə diqqət çəkdi. Çexiyanın Baş naziri Andrey Babiş isə sammit ərəfəsində ölkəsinin bu il müdafiə xərclərini ÜDM-in 2 faizi səviyyəsinə çatdırmaq öhdəliyini yerinə yetirə bilməyəcəyini bəyan etdi.

ABŞ lideri D.Tramp ölkəsinin NATO-ya trilyonlarla dollar investisiya yatırdıqlarını xatırlatdı və bunun Avropanı, Kanadanı təhdidlərdən qorumaq üçün edildiyini bildirdi. ABŞ öz strateji resurslarını getdikcə Asiya-Sakit okean bölgəsinə yönəldiyi üçün, Avropa artıq öz təhlükəsizliyinin əsas maliyyə yükünü üzərinə götürməlidir. Məhz buna görə də sammitin əsas məqsədlərindən biri müttəfiq ölkələrin hərbi xərclərini öz büdcələrinin ÜDM-in 5 faizinə qaldırmaq planını qəbul etmək idi.

Bu mənada Türkiyə öz hədəflərini artıq seçib. Prezident Rəcəb Tayyib Ərdoğan ölkənin 2030-cu ilə qədər hərbi xərclərini 3,5 faizə qaldırmaq üçün lazımi addımları atdığını bildirib. Qeyd edib ki, təhlükəsizlik xərcləri indidən büdcənin 1,5 faizini təşkil edir. Beləliklə, Türkiyə ümumi 5 faizlik hədəfə nəzərdə tutulan vaxtdan 5 il əvvəl, yəni 2030-cu ildə çatmağı planlaşdırır.

Qeyd edək ki, Türkiyə Kosovoda, Qara dənizdə, Baltikyanı ölkələrdə və digər bölgələrdə Alyansın əməliyyatlarına və təlimlərinə ən çox töhfə verən dövlətdir.

Ankara sammiti çərçivəsində ən mühüm məqamlardan biri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə ABŞ Prezidenti Donald Tramp arasında keçirilən görüş oldu. Görüşdə F-35 qırıcıları və Türkiyənin milli hərbi təyyarəsi olan "KAAN"ın mühərrik tədarükü ilə bağlı razılaşmaların əldə olunduğu bildirilib. Donald Tramp Türkiyənin çox sadiq bir tərəfdaş olduğunu xüsusilə qeyd edərək bu məsələni nəzərə alacaqlarını diqqətə çatdırdı. Ən mühüm məqam isə Trampın Türkiyəyə qarşı tətbiq edilən "CAATSA" sanksiyalarının ləğv edilə biləcəyini vurğulaması olub. Bu açıqlama Ankara-Vaşinqton xəttində uzun illərdir davam edən hərbi-texniki böhranın həlli istiqamətində tarixi bir addımdır.

Sammitdə qlobal təhlükəsizlik məsələləri, sadəcə, hərbi müqavilələrlə məhdudlaşmadı, Yaxın Şərqdəki münaqişələr və Ukrayna müharibəsi də əsas müzakirə mövzusu oldu. Terrorizmlə mübarizədə onun bütün forma və təzahürlərinə qarşı tam bir həmrəylik içində hərəkət etməyin vacibliyi bildirildi. İran və ABŞ arasındakı gərginliyin azaldılması istiqamətində Pakistan və Qətərlə birgə bu əlaqələrin sabit müstəviyə gətirilməsi üçün səylərin davam etdirildiyi vurğulandı. Yaxın Şərqdə uzunmüddətli və davamlı sülhün yeganə açarının iki dövlətin əməkdaşlığı ilə həll variantı olduğu bir daha diqqətə çatdırıldı. Ukrayna ilə bağlı isə sülh masasına yönəldəcək diplomatik əlaqə kanallarından aktiv istifadə olunduğu və Trampın sülh planının dəstəkləndiyi ifadə edildi. Mark Rutte Kiyevə dəstəyin davam edəcəyini vurğulayaraq bildirdi ki, müttəfiqlər bu il və gələn il Ukraynaya hərbi texnika, yardım və dəstək üçün ən azı 70 milyard avro ayırmağı öhdələrinə götürüblər.

NATO-nun Ankara sammitinin yekun bəyannaməsi qlobal müdafiə sənayesi və strateji tərəfdaşlıqlar baxımından mühüm qərarları ehtiva edir. Belə ki, sammitdə müttəfiqlərin 50 milyard dolları ötən yeni tədarük müqaviləsi imzaladıqları bildirildi. Kollektiv istehsal potensialını artırmaq və innovasiyaları sürətləndirmək üçün sənaye sektoru ilə birgə işləmək öhdəliyi rəsmiləşdirildi. Bir müttəfiqə qarşı edilən hücumun bütün müttəfiqlərə qarşı edilmiş sayıldığı NATO-nun 5-ci maddəsinə və transatlantik əlaqələrə "sarsılmaz sadiqlik" bir daha təsdiqləndi. Bununla yanaşı, daha güclü bir NATO daxilində daha güclü bir Avropa və modernləşdirilmiş bir Alyansın hədəfləndiyi vurğulandı. Həmçinin Hörmüz boğazının yenidən tamam açıq olmasının və gəmiçilik azadlığı prinsipinin qlobal sabitlik üçün mühüm əhəmiyyət kəsb etdiyi qeyd olundu. Ukraynanın transatlantik təhlükəsizliyə verdiyi töhfələr yüksək qiymətləndirildi, ölkənin azadlığı, suverenliyi və ərazi bütövlüyünün müdafiəsinə dəstək ifadə olundu. Həmçinin Aİ-nin Ukraynaya Dəstək Krediti vasitəsilə çoxillik maliyyə yardımı ayırmaq qərarı məmnuniyyətlə qarşılandı. Müttəfiqlər Avropa-Atlantik təhlükəsizliyi və sabitliyinə yönəlmiş uzunmüddətli təhdidlərə və terrorizmə qarşı durmaq məqsədilə Haaqa Müdafiə Öhdəliyini həyata keçirdiklərini təsdiqlədilər.

Göründüyü kimi, NATO-nun Ankara sammiti, sadəcə, hərbi strategiyaların müzakirə edildiyi növbəti bir iclas olmadı. Bu sammit müdafiə sənayesindəki sanksiyaları və ticarət maneələrini aşmağa çalışan Türkiyənin, yeni qlobal hərbi-maliyyə sistemi təklif edən Kanadanın və öz təhlükəsizlik taleyini daha çox öz çiyinlərinə götürən Avropanın ortaq gələcək axtarışı oldu. Qəbul edilən tarixi qərarlar qarşıdakı onilliklərdə qlobal təhlükəsizlik xəritəsini yenidən cızacaq və Ankara bu yeni nizamın elan olunduğu mərkəz kimi yaddaşlarda qalacaq.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# "Azərbaycanın qlobal nüfuzu və beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi mövqeyi davamlı inkişafın mühüm göstəricisidir"

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi mövqeyini ildən-ilə daha da möhkəmləndirməsi, qlobal miqyasda öz sözünü deyən, prinsipial mövqeyi ilə seçilən və müstəqil siyasət yürüdən dövlət statusunu gücləndirməsi ölkənin beynəlxalq nüfuzunun yüksəlməsinin əsas göstəricilərindəndir. Eyni zamanda həyata keçirilən məqsədyönlü iqtisadi siyasət və müasir infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanının mühüm beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsini təmin edib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türkiyəli iqtisadçı ekspert İlhan İŞBAŞ** bildirib.

Ekspert qeyd edib ki, son illərdə qlobal iqtisadiyyat və beynəlxalq münasibətlər sistemi ciddi transformasiya mərhələsinə qədəm qoyub. Yeni geoiqtisadi reallıqlar, alternativ ticarət marşrutlarına artan ehtiyac və beynəlxalq təchizat zəncirlərinin yenidən formalaşması strateji mövqeyə malik ölkələrin əhəmiyyətini daha da artırır. Belə bir şəraitdə Azərbaycan uzaqgörən dövlət siyasəti, sabit inkişaf modeli və etibarlı tərəfdaş imici sayəsində regionun ən mühüm aktorlarından biri kimi çıxış edir.

İlhan İşbaş bildirib ki, Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən biri milli maraqlara söykənməsi və bütün tərəfdaşlarla qarşılıqlı hörmət prinsipi əsasında münasibətlər qurmasıdır. Məhz bu yanaşma ölkəyə müxtəlif beynəlxalq platformalarda etibarlı tərəfdaş kimi qəbul olunmaq imkanı qazandırıb. Azərbaycan regional və qlobal məsələlərdə balanslı mövqeyi, konstruktiv təşəbbüsləri və prinsipial yanaşması ilə beynəlxalq aləmdə böyük etimad formalaşdırıb.

"Bu gün Azərbaycan yalnız Cənubi Qafqazın lider dövləti deyil, həm də Avropa ilə Asiyanı birləşdirən strateji körpü rolunu uğurla yerinə yetirən mühüm geoiqtisadi mərkəzdir. Dövlətin həyata keçirdiyi müstəqil siyasət, güclü iqtisadi potensial və müasir idarəetmə modeli ölkənin beynəlxalq nüfuzunu davamlı şəkildə artırır", - deyə ekspert vurğulayıb.

Onun sözlərinə görə, ölkədə siyasi sabitliyin qorunması, iqtisadi islahatların ardıcıl şəkildə həyata keçirilməsi, rəqəmsal transformasiya, investisiya mühitinin təkmilləşdirilməsi və qeyri-neft sektorunun inkişafı Azərbaycanın iqtisadi dayanıqlığını daha da gücləndirib. Bütün bunlar beynəlxalq maliyyə institutlarının və xarici investorların Azərbaycana marağının artmasına səbəb olur: "Azərbaycanın beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi mövqeyinin gücləndirilməsi son illərin ən mühüm strateji uğurlarından biridir. Ölkənin əlverişli coğrafi mövqeyi məqsədyönlü investisiyalar hesabına böyük iqtisadi üstünlüyə çevrilib. Müasir avtomobil yolları, yüksək standartlara cavab verən dəmir yolu infrastrukturu, Xəzər hövzəsində inkişaf etdirilən dəniz nəqliyyatı imkanları, beynəlxalq hava limanları və logistika mərkəzləri Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə artırıb. Dünya ticarətində alternativ marşrutlara marağın artdığı indiki dövrdə Orta dəhlizin əhəmiyyəti sürətlə yüksəlir. Bu marşrutun əsas iştirakçılarından biri olan Azərbaycan yükdaşımaların sürətli, təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsində mühüm rol oynayır. Bu isə ölkənin qlobal logistika xəritəsində strateji əhəmiyyətini daha da artırır".



Ekspert vurğulayıb ki, Azərbaycanın nəqliyyat infrastrukturuna yatırdığı sərmayələr yalnız milli iqtisadiyyatın inkişafına deyil, həm də region ölkələri arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir. Bu layihələr Avropa, Mərkəzi Asiya, Qafqaz və Yaxın Şərq arasında ticarət əlaqələrinin genişlənməsinə, yeni iqtisadi əməkdaşlıq imkanlarının yaranmasına şərait yaradır.

O deyib ki, Azərbaycan və Türkiyə arasında mövcud olan strateji müttəfiqlik münasibətləri nəqliyyat və logistika sahəsində də mühüm nəticələr verir. İki qardaş ölkənin birgə həyata keçirdiyi layihələr regionun tranzit imkanlarını artırmaqla yanaşı, Avrasiya məkanında iqtisadi əlaqələrin genişlənməsinə, beynəlxalq ticarətin sürətlənməsinə və yeni investisiya axınının formalaşmasına əhəmiyyətli töhfə verir.

İlhan İşbaş bildirib ki, Azərbaycanın həyata keçirdiyi çoxşaxəli iqtisadi siyasət ölkənin beynəlxalq rəqabət qabiliyyətini yüksəldir. Tranzit, logistika, enerji, sənaye, rəqəmsal texnologiyalar və "yaşıl iqtisadiyyat" istiqamətlərində aparılan islahatlar Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas elementləridir. Bu istiqamətlərdə əldə olunan nəticələr ölkənin iqtisadi dayanıqlığını daha da möhkəmləndirir.

Ekspert hesab edir ki, qlobal iqtisadi sistemdə etibarlı tərəfdaş kimi tanınmaq üçün təkcə coğrafi üstünlük kifayət etmir. Bunun üçün siyasi sabitlik, hüquqi etibarlılıq, müasir infrastruktur, çevik dövlət idarəçiliyi və beynəlxalq əməkdaşlığa açıq yanaşma vacibdir. Azərbaycanın bu meyarların hamısına cavab verməsi onun beynəlxalq nüfuzunu davamlı şəkildə artırır.

"Azərbaycanın həyata keçirdiyi siyasət regionda sülhün, sabitliyin və iqtisadi əməkdaşlığın möhkəmlənməsinə də mühüm töhfə verir. Ölkənin təşəbbüsü ilə reallaşdırılan iqtisadi və nəqliyyat layihələri yalnız milli maraqlara deyil, bütövlükdə region dövlətlərinin qarşılıqlı inkişafına xidmət edir və uzunmüddətli tərəfdaşlıq üçün yeni imkanlar yaradır. Azərbaycanın son illərdə qazandığı uğurlar təsadüfi deyil, ardıcıl həyata keçirilən strateji inkişaf siyasətinin məntiqi nəticəsidir. Ölkənin müstəqil siyasəti, yüksək beynəlxalq nüfuzu, iqtisadi dayanıqlığı və beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi mövqeyinin daha da güclənməsi yaxın illərdə də davam edəcək. Bu amillər Azərbaycanın yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının ən mühüm siyasi və iqtisadi güc mərkəzlərindən biri kimi rolunu daha da möhkəmləndirəcək", - deyə o vurğulayıb.



# Azərbaycan - regionun sabitlik və əməkdaşlıq ünvanı

## Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Cənubi Qafqazda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır

Dünya öz tarixinin mürəkkəb, proqnozlaşdırılması çətin və münaqişələrlə zəngin olan dövrlərindən birini yaşayır. Hazırda qlobal təhlükəsizliyin sarsılması, regional qarşıdurmaların coğrafiyasının genişlənməsi və böyük güclər arasında kəskinləşən rəqabət dünyanı qeyri-müəyyənlik dalğasına qərq edib.

Son günlər Yaxın Şərqdə münaqişə tərəfləri arasında qarşıdurmanın yenidən şiddətlənməsi, Rusiya-Ukrayna cəbhəsində illərdir davam edən müharibə qlobal müstəvidə gərginliyi pik nöqtəyə çatdırıb. Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionuna yaxın bir çox coğrafiyada, həm şimal, həm də cənub qonşuluğunda ciddi münaqişə ocaqlarının olması artıq öyrəşdiyimiz reallıqdır. Amma uzunmüddətli savaşlar təkcə siyasi böhranla məhdudlaşmır, həm də qlobal enerji və nəqliyyat dəhlizləri, beynəlxalq yük daşımaları üçün misli görünməmiş humanitar və iqtisadi problemlər yaradır.

Ənənəvi təchizat zəncirlərinin qırıldığı, qitələrarası keçidlərin təhlükə altına düşdüyü bu cür mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanda qorunan daxili sabitlik, sosial-iqtisadi dayanıqlılıq və yüksək ictimai təhlükəsizlik mühiti qlobal miqyasda xüsusi diqqət çəkir və yüksək qiymətləndirilir. Azərbaycan bu xaosun ortasında öz təhlükəsizliyini təmin edən və dünya üçün etibarlı tərəfdaş rolunu qoruyan unikal sabitlik adası kimi çıxış edir.

Azərbaycanın daxili sabitliyi və regional əməkdaşlıq təşəbbüsləri dövlətimizin başçısı tərəfindən mükəmməl şəkildə formalaşdırılmış və zamanın sınağından uğurla çıxmış balanslaşdırılmış xarici siyasət kursunun birbaşa nəticəsidir. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas xüsusiyyətlərindən biri qəbul edilən qərarların uzunmüddətli strateji hədəflərə hesablanmasıdır. Dövlət idarəçiliyindəki praqmatik yanaşma, milli maraqların ön planda tutulması və sürətlə dəyişən beynəlxalq reallıqlara çevik uyğunlaşma siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb.

Müasir dünyada əsas çatışmazlıqlardan biri dialoq platformalarının azlığıdır. Lakin Azərbaycanın qlobal və regional güclərin hər biri ilə açıq, qarşılıqlı hörmətə əsaslanan diplomatik əlaqələrə və dialoq imkanlarına malik olması rəsmi Bakıya geniş manevr imkanları verir. Vurğulanan məqamlar ölkəmizi qlobal güc mərkəzlərinin əməkdaşlıq etdiyi unikal məkana çevirir. Bu yanaşma Azərbaycanın xarici siyasətinin mühüm və strateji uğuru olmaqla yanaşı, dövlətimizi beynəlxalq arenada söz sahibi edir, onun etibarlı tərəfdaş statusunu gücləndirir.

Azərbaycan rəhbərliyinin mütəmadi vurğuladığı kimi, ölkəmiz geosiyasi rəqabət və qarşıdurma meydanı yox, sülh və əməkdaşlıq məkanıdır. Dövlətimizin təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı qlobal və regional layihələr ölkələri birləşdirir, qarşılıqlı iqtisadi asılılığı artırır və regionda davamlı sabitliyin təmin olunmasına xidmət edir. Yəni Azərbaycanın sabitlik və əməkdaşlıq məkanı olması bu günün hadisəsi deyil. Ölkəmiz hələ uzun zaman öncədən bu strateji kursu özünün dövlət fəlsəfəsi seçib. Zaman dövlətimizin başçısının uzaqgörən strategiyasının nə qədər doğru olduğunu sübuta yetirdi.

Azərbaycanın formalaşdırdığı təhlükəsiz bağlantı mühiti və regional sabitlik dünya nəhənglərinin də diqqət mərkəzindədir. Qlobal aktorlar Azərbaycanı regional əməkdaşlığın ən mühüm ölkəsi kimi görürlər. Hazırda ABŞ, Avropa İttifaqı və Çin ölkəmizlə münasibətləri dərinləşdirməyə xüsusi maraq göstərir. Avropa İttifaqı üçün Azərbaycan etibarlı alternativ enerji mənbəyi olmaqla paralel, həm də Mərkəzi Asiyaya açılan ən təhlükəsiz strateji qapıdır. Azərbaycan ABŞ üçün Avrasiyanın nəqliyyat və enerji xəritəsində balans yaradan, regional təhlükəsizliyin təminatçısı olan əvəzedilməz strateji tərəfdaşdır. O cümlədən Çin üçün də ölkəmiz qlobal "Bir kəmər, bir yol" layihəsinin ən mühüm və risklərdən uzaq coğrafi məkanıdır. Azərbaycan Cənubi Qafqaz bölgəsində Şərqlə Qərbi qarşılıqlı maraqlar müstəvisində birləşdirən və qlobal ticarət üçün riskləri minimuma endirən yeganə təhlükəsiz ölkədir.

Böyük güclərin Azərbaycana marağı bəyanatlarla məhdudlaşmır, konkret layihələrdə özünü büruzə verir. Məsələn, Avropa İttifaqı ilə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu çərçivəsində Azərbaycanın "qoca qitə"nin qaz təchizatındakı payı ilbəil artmaqdadır. "Yaşıl enerji" dəhlizi bu tərəfdaşlığı yeni müstəviyə daşıyır. Eyni zamanda rəsmi Bakı Pekinin strateji maraqları çərçivəsində Çin-Mərkəzi Asiya-Avropa marşrutunun gömrük və logistika prosedurlarını rəqəmsallaşdıran yeganə etibarlı tərəfdaş kimi çıxış edir. ABŞ isə regionda enerji marşrutlarının diversifikasiyası və terrorizmə qarşı mübarizədə Azərbaycanı Cənubi Qafqazın əvəzedilməz dayaq nöqtəsi olaraq qəbul edir.

Ənənəvi şimal və cənub nəqliyyat dəhlizlərinin funksionallığını itirməsi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) önəmini artırıb. Azərbaycan Orta dəhlizin əsas hərəkətverici qüvvəsidir. Ölkəmizin uzun illər öncədən reallaşdırdığı infrastruktur layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, modernləşdirilmiş magistral yollar və hava limanları infrastrukturu bu gün qlobal ticarətin xilaskarına çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycan Çindən çıxan yüklərin Avropaya qısa, ucuz və ən əsası təhlükəsiz şəkildə çatdırılmasını təmin edir. Qlobal təchizat zəncirinin Azərbaycandan asılı vəziyyətə gəlməsi ölkəmizin beynəlxalq təhlükəsizlik statusunu daha da gücləndirir.

Azərbaycan bütövlükdə Avrasiya məkanının mühüm siyasi-iqtisadi aktorlarından biridir. Cənubi Qafqazda yaranan yeni regional reallıqlar fonunda Azərbaycanın mövqeyi daha güclüdür. Ölkəmiz regional əməkdaşlıq gündəliyini müəyyənləşdirən aparıcı dövlətdir. Azərbaycanın irəli sürdüyü və tərəfdaş ölkələrlə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli regional sabitliyə fundamental töhfə verir, eyni zamanda beynəlxalq iqtisadi inteqrasiyanın sərhədlərini genişləndirir. Prezident İlham Əliyevin yürütdüyü siyasət həm də regionda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır.

Yekun olaraq qeyd edə bilərik ki, dünyanı bürüyən qlobal böhranlar və gərginliklər fonunda daxildəki sabitlik, xarici siyasətdəki praqmatizm və təhlükəsiz bağlantı imkanları ölkəmizin gələcək inkişafının və yüksək statusunun təminatıdır. Ölkəmizin təklif etdiyi beynəlxalq əməkdaşlıq formatları və layihələr göstərir ki, güclü dövlət konsepsiyası təkcə hərbi və iqtisadi potensialla deyil, həm də yüksək etimad qazanmaq və dünyaya sabitlik ixrac etmək bacarığı ilə ölçülür.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-İordaniya əlaqələri yüksək hüquqi müstəviyə keçir

Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasındakı ikitərəfli münasibətlər, sadəcə, deklarativ xarakterli bəyanatlarla məhdudlaşmayaraq, beynəlxalq hüququn ümumi tanınmış prinsip və normaları, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyünün toxunulmazlığı və "pacta sunt servanda" - beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi imperativləri üzərində bərqərar olub.

İki suveren subyekt arasında formalaşan bu hüquqi dialoq həm ikitərəfli müqavilə-hüquq bazasının təkmilləşdirilməsi, həm də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi çoxtərəfli institutlar çərçivəsində beynəlxalq hüquq qaydalarının müdafiəsi naminə strateji koordinasiya ilə xarakterizə olunur. Bu müstəvidə tərəflər arasında ümumi mülki pasportlara malik vətəndaşlar üçün viza tələbinin qarşılıqlı olaraq ləğv edilməsi haqqında hökumətlərarası sazişin və onunla sinxronlaşdırılan digər sahəvi memorandumların imzalanması rəsmi Bakının qlobal arenada müstəqil xarici siyasət yürüdən legitim xüsusi çəkili hüquqi aktor kimi mövqeyini daha da möhkəmləndirir.



**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasi doktrina ölkəmizi regional güc mərkəzi statusundan qlobal arenada beynəlxalq hüququn müdafiəçisi və qlobal təşəbbüslərin müəllifi səviyyəsinə yüksəldib: "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş fərdi özünümüdafiə hüququna istinad edərək öz güc və imkanları hesabına, milli iradənin yeganə təmsilçisi İlham Əliyevin qətiyyəti ilə suveren ərazilərində işğala son qoyaraq ərazi və sərhəd bütövlüyünün bərpasına nail olan Azərbaycan beynəlxalq hüququn məcburi icra mexanizmlərinin effektivliyini nümayiş etdirib. Həmçinin iriməsafəli transkontinental enerji və logistika magistrallarının hüquqi və fiziki təhlükəsizliyinin təminatçısı rolunda çıxış edən rəsmi Bakı Qoşulmama Hərəkatında həyata keçirdiyi səmərəli sədrlik missiyası və COP29 kimi universal iqlim konvensiyalarının tətbiqi platformalarına, BMT-nin dayanıqlı inkişaf məqsədinin ehtiva olunduğu WUF kimi nüfuzlu tədbirə evsahibliyi etmək hüququ qazanması ilə qlobal idarəetmə arxitekturasında öz hüquqi və siyasi çəkisini sarsılmaz edib. Bu xarici siyasi nailiyyətlərin təməl hərəkətverici qüvvəsi qismində isə, heç şübhəsiz ki, Azərbaycan dövlətinin beynəlxalq hüquq sisteminin bütövlüyünə, xüsusən BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində bəyan edilən "dövlətlərin qarşılıqlı əməkdaşlığı" və sülhün qorunması prinsiplərinə nümayiş etdirdiyi mütləq sadiqlik çıxış edir. Azərbaycanın qlobal hüquq qaydasının deqradasiyaya uğradığı və beynəlxalq konvensiyaların selektiv tətbiq edildiyi müasir geosiyasi şəraitdə dövlətlərarası münasibətlərin dinc və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində tənzimlənməsi üçün həm universal, həm də regional müstəvilərdə ardıcıl normativ töhfələr verməsi heç bir beynəlxalq subyektdə şübhə doğurmur. Cənab İlham Əliyevin dəfələrlə əməli formada da nümayiş etdirdiyi kimi, ölkəmiz konfrontasiya və birtərəfli sanksiyalar praktikasına qarşı çıxaraq, fərqli hüquqi və siyasi sistemlər, sivilizasiyalar arasında dialoq platformaları formalaşdırır".

Deputat qeyd edib ki, İordaniya Haşimilər Krallığı ilə ikitərəfli əlaqələrin keyfiyyətcə daha yüksək hüquqi müstəviyə keçməsi də məhz Azərbaycanın sivilizasiyalararası konvensiyaların implementasiyasına və dövlətlərin suveren hüquqlarına hörmət prinsiplərinə əsaslanan dinc yanaşı yaşama fəlsəfəsinin əməli təzahürüdür: "Eyni zamanda Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi dövr rəsmi Bakının qlobal məsuliyyət hissini və bəşəri dəyərlərə sadiqliyini bütün dünyaya nümayiş etdirməsi, bəşəriyyətin ağır sınaqdan keçdiyi COVID-19 pandemiyası dövründə Prezident İlham Əliyevin qlobal liderlik missiyasını üzərinə götürərək "vaksin millətçiliyi"nə qarşı kəskin etiraz etməsi, inkişaf etməkdə olan və azgəlirli ölkələrin vaksindən bərabər istifadə hüququnu müdafiə etməsi beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilməklə Bakının qlobal arenada lokomotiv rolunu daha da möhkəmlədirdi. Xüsusən Azərbaycanın təşəbbüsü ilə QH-nin Təmas Qrupunun Zirvə görüşlərinin təşkili, BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması və Ümumdünya Səhiyyə Təşkilatına, eləcə də onlarca ehtiyaclı ölkəyə birbaşa humanitar və maliyyə yardımlarının göstərilməsi kimi böyük məsuliyyətli addımlar ölkəmizin Yaxın Şərqdə, xüsusən də İordaniyada nüfuzuna çox ciddi və müsbət təsir göstərib. Onsuz da qarşılıqlı hörmət və beynəlxalq hüquqa sədaqət üzərində qurulmuş əvvəlki dövr əlaqələrimizdə bu bəşəri nüfuz faktoru bugünkü ikitərəfli yaxınlaşmanın mənəvi və siyasi əsasını təşkil edir".

B.Məhərrəmov bildirib ki, Bakıya çox aydın münasibət direktivləri olan İordaniya Krallığı Azərbaycanın bu humanitar diplomatiyasını, qlobal həmrəylik səylərini və çətin məqamlarda beynəlxalq əməkdaşlığa verdiyi real töhfələri yaxından izləyərək rəsmi Bakının etibarlı, prinsipial və ədalətli tərəfdaş kimi rolunu daha əhatəli qəbul edib. Onun sözlərinə görə, məhz bu kontekstdə rəsmi Bakı İordaniya ilə ikitərəfli təmasların normativ-hüquqi əsaslarının təkmilləşdirilməsinə xüsusi önəm verir və cari strateji xətt təkcə Xarici İşlər nazirlikləri səviyyəsində qurulan intensiv hüquqi-siyasi məsləhətləşmələrlə məhdudlaşmır, həm də dövlətlərarası münasibətlərin institusional sütunlarından birini təşkil edən parlament diplomatiyası vasitəsilə reallaşdırılır: "Hər iki ölkənin qanunverici orqanları arasında fəaliyyət göstərən parlamentlərarası işçi qrupları qanunvericilik texnikası və beynəlxalq hüquqi sənədlərin ratifikasiyası proseslərində təcrübə mübadiləsini təmin edir. Parlament müstəvisində qurulan bu səmərəli dialoq Parlamentlərarası İttifaq və digər beynəlxalq parlament assambleyalarında tərəflərin qlobal hüquq qaydasının qorunması və milli mənafelərin müdafiəsi istiqamətində konsolidasiya olunmuş mövqedən çıxış etməsinə hüquqi zəmin yaradır. Sözügedən çoxşaxəli inteqrasiya prosesinin mərkəzində isə heç şübhəsiz ki, bilavasitə Prezident İlham Əliyevin şəxsi beynəlxalq nüfuzu, beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan qətiyyətli mövqeyi və yüksək diplomatik uzaqgörənliyi dayanır. Prezidentin həm regional, həm də transregional müstəvidə hüququn aliliyinə və suveren bərabərliyə əsaslanan xarici siyasət kursu ərəb-müsəlman dünyasında, xüsusilə İordaniya Haşimilər Krallığının rəhbərliyi və Kral II Abdulla tərəfindən yüksək ehtiram və tam etimadla qarşılanır. Dövlət başçıları səviyyəsində formalaşmış səmimi və etibarlı dialoq ikitərəfli hüquqi bazanın genişləndirilməsində və strateji əməkdaşlıq müqavilələrinin praktiki implementasiyasında həlledici katalizator rolunu oynayır. Məhz bu təməllər üzərində davam etdirilən əməkdaşlığa əsasən, Bakıda rəsmi prosedurlara uyğun şəkildə imzalanmış sənədlər paketi xüsusilə ümumi mülki pasportlara malik vətəndaşlar üçün viza tələbinin qarşılıqlı olaraq ləğv edilməsi haqqında saziş, dövlətlərin iqtisadi və humanitar suverenliyi çərçivəsində tətbiq edilən xüsusi hüquqi rejim dəyişikliyidir. Bu saziş tərəflərin iqtisadiyyatlarına multiplikativ hüquqi və maliyyə effektləri verir. Səyahət sənədlərinin rəsmiləşdirilməsi zamanı qarşılıqlı olaraq inzibati və maliyyə maneələrinin ləğv edilməsi fərdlərin hərəkət sərbəstliyini təmin etməklə yanaşı, turizm sənayesinin hüquqi tənzimlənməsini sadələşdirir. Bu qərar BMT-nin Ümumdünya Turizm Təşkilatının qlobal etik kodeksinin prinsiplərinə müvafiq olaraq, qarşılıqlı turizm potensialının diversifikasiyasına yol açır".

Deputatın dediklərinə onu da əlavə edək ki, Azərbaycan vətəndaşları üçün İordaniyanın Petra antik şəhəri, Vadi Ram ekosistemi və Ölü dəniz regionu hüquqi və logistik baxımdan daha əlçatan olur. Eyni zamanda İordaniya vətəndaşları üçün Azərbaycanın ekoloji turizm zonaları və modern paytaxt infrastrukturu yeni hüquqi-iqtisadi cazibə mərkəzinə çevrilir ki, bu da ikitərəfli aviaəlaqələrə dair hava nəqliyyatı haqqında konvensiyaların tətbiqini və birbaşa reyslərin intensivləşməsini stimullaşdırır. Turizm sahəsində hüquqi rejimin liberallaşdırılması, birbaşa olaraq transsərhəd iqtisadi müqavilələrinin və "B2B" - "biznesdən biznesə" formatlı investisiya fəaliyyətinin aktivləşməsinə xidmət edir. Sahibkarların sərbəst hərəkəti, 1965-ci il İndisilah Mübahisələrinin Həlli üzrə Vaşinqton Konvensiyası və digər investisiyaların qarşılıqlı qorunması haqqında ikitərəfli müqavilələrin ruhuna uyğun olaraq, daşınmaz əmlak, hotelçilik və xidmət sektorlarında investisiya risklərinin yerindəcə minimallaşdırılmasına şərait yaradır. İordaniyanın qabaqcıl əczaçılıq sənayesi və kənd təsərrüfatı subyektləri ilə Azərbaycanın təmin etdiyi xüsusi hüquqi imtiyazlar, o cümlədən Ələt Azad İqtisadi Zonası və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının təqdim etdiyi prefensial gömrük-vergi rejimləri arasında yeni kooperasiya müqavilələrinin bağlanması labüdləşir. Müqavilə-hüquq bazasının gətirdiyi bu imkanların real iqtisadi dividendlərə çevrilməsi üçün tərəflərin icra strukturları tərəfindən müvafiq normativ və təşviqat xarakterli addımların atılması zəruridir. Bura qarşılıqlı marketinq strategiyalarının hüquqi tənzimlənməsi, milli media məkanında birgə təbliğatın təşkili və Yaxın Şərq ilə Cənubi Qafqaz regionlarını əlaqələndirən kompleks transregional turizm məhsullarının yaradılması daxildir.

B.Məhərrəmov bildirib ki, Azərbaycan-İordaniya münasibətlərində əldə olunmuş normativ-hüquqi tərəqqi iki dövlətin təkcə rəsmi-diplomatik səviyyədə deyil, həm də vətəndaş cəmiyyətləri və biznes subyektləri səviyyəsində inteqrasiyasının təmin edilməsinə ciddi təkan verəcək: "Prezident İlham Əliyevin qlobal hüquqi və humanitar nüfuzunun, onun direktivləri əsasında Xarici İşlər nazirlikləri və parlament diplomatiyasının yaratdığı möhkəm institusional zəmin müasir beynəlxalq çağırışlar fonunda hər iki dövlətin qeyri-neft iqtisadiyyatının davamlı inkişafına və beynəlxalq hüququn prinsiplərinə əsaslanan tərəfdaşlığın dərinləşməsinə fundamental töhfədir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sənaye zonaları: *sərmayə, istehsal və ixrac artır*

Hazırda dünya iqtisadiyyatında sənaye park və məhəllələrinə böyük maraq var ki, bu da səbəbsiz deyil. Bu cür zonalarda sahibkarlara edilən geniş güzəştlər investisiya təşviqində stimulverici rol oynayır.

Ölkəmizdə mövcud mexanizmlərə görə, rezidentlər mənfəət, torpaq və əmlak vergilərindən 10 il müddətinə azad edilirlər. Bununla yanaşı, rezidentlər istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular üçün əlavə dəyər vergisi və gömrük rüsumları ödəmirlər. Bu güzəştlər investisiya xərclərini əhəmiyyətli dərəcədə azaldır, layihələrin gəlirgətirmə müddətini qısaldır və sənaye zonalarının investisiya cəlbediciliyini artırır. Beləliklə, sənaye zonaları investorlar üçün əlverişli biznes mühitlərindən birinə çevrilir.

Tətbiq olunan təşviq mexanizmlərinin effektivliyi statistik rəqəmlərlə də təsdiqlənir. Təkcə ötən il sənaye parklarında fəaliyyət göstərən rezidentlər yalnız vergi və gömrük güzəştləri hesabına 42,3 milyon manatdan artıq vəsaitə qənaət ediblər. Sənaye zonalarının fəaliyyətə başladığı gündən indiyədək isə rezidentlər tərəfindən qənaət olunan vəsaitin ümumi həcmi 567 milyon manatdan çoxdur. Bu göstəricilər sənaye zonalarında tətbiq edilən güzəşt mexanizmlərinin investorlar üçün real iqtisadi üstünlüklər yaratdığını açıq nümayiş etdirir.

Sənaye parkları və məhəllələrində müxtəlif çeşiddə məhsul istehsalı yerli tələbatın ödənilməsində və ixracın genişlənməsində mühüm rol oynayır. Onu da vurğulayaq ki, belə müəssisələr yaradılarkən beynəlxalq kommunikasiyaya çıxış, xammal bazarına yaxınlıq, ərazinin əmək resursları nəzərə alınır. Məsələn, Mingəçevir Sənaye Parkı tekstil sənayesi üzrə ixtisaslaşıb. Məlumdur ki, bu şəhər ən çox pambıq və ipək üçün xammal istehsal edən rayonların əhatəsindədir. Bu səbəbdən xammalın daşınması üçün çox xərc çəkilmir, üstəlik, fermerlər də öz məhsullarını satmaq üçün uzağa getmirlər.

Sənaye parklarında və məhəllələrində yüksək texnologiyalardan istifadə olunur. Bu, həmin müəssisələrə dünya bazarına məhsul çıxarmağa imkan verir. Çünki istehsal edilən məhsulların dünya bazarında rəqabətədavamlı olması yüksək keyfiyyəti ilə bağlıdır ki, bu da yalnız yüksək texnologiyadan istifadə hesabına mümkün olur. İldən-ilə sənaye zonalarında istehsal olunan məhsulların daha çox xarici bazara çıxarılması bunun nəticəsidir. Məsələn, 2025-ci ildə sənaye zonalarında ümumilikdə 4 milyard manatlığa yaxın məhsul satışı həyata keçirilib. Bunun isə 1,2 milyard manatlığı ixrac edilib. 2024-cü illə müqayisədə istehsal 21,1, ixrac 13,4 faiz artıb. 2026-cı ilin I rübü ərzində sənaye zonalarında ümumilikdə 900 milyon manatlığa yaxın məhsul satışı həyata keçirilib və onun 260,6 milyon manatlığı xarici ölkələrdəki bazarlara çıxarılıb. Sənaye zonalarımızda istehsal olunan məhsullar bu gün dünyanın 70-dən çox ölkəsinə ixrac olunur. Əsas ixrac istiqamətləri Avropa ölkələri, MDB məkanı, Türkiyə və Yaxın Şərq regionudur. Bu bazarlara metallurgiya və kimya sənayesi məhsulları, tikinti materialları və s. ixrac olunur.

Məlumdur ki, hər bir sektorun inkişafı investisiya qoyuluşundan birbaşa asılıdır. Ölkəmizdə də xarici investisiyaların cəlb edilməsi üçün bir çox təşviqedici vasitədən istifadə olunur. Yaradılmış əlverişli investisiya mühiti, təqdim olunan güzəştlər və infrastruktur təminatı nəticəsində xarici investorların ölkəmizin sənaye zonalarına marağı əhəmiyyətli dərəcədə artıb. İndiyədək müxtəlif ölkələrin şirkətləri tərəfindən sənaye zonalarında həyata keçirilən layihələr üzrə ümumilikdə 520 milyon manat investisiya yatırılıb. Onun 288,3 milyon manatından artıq istifadə edilib ki, bu da layihələrin real icra mərhələsində olduğunu göstərir.

Xarici investisiyaların cəlbində mühüm amillərdən biri də müasir texnologiyaların ölkəyə gətirilməsi və insan kapitalının bu texnologiyalara uyğunlaşdırılmasıdır. Bu, sənaye zonalarının uzunmüddətli inkişafına əlavə dayanıqlılıq qazandırır.

Əsas investor ölkələr sırasında Çin, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, İsveçrə, Pakistan, Rusiya, Bolqarıstan və Litva yer alır. Coğrafiyanın genişliyi Azərbaycanın sənaye zonalarının beynəlxalq səviyyədə cəlbediciliyinin artdığını nümayiş etdirir.

Eyni zamanda xarici investisiyaların artım dinamikası da diqqətəlayiqdir. Belə ki, illər üzrə götürsək, məsələn, 2016-cı ildə sənaye zonalarına 10,4 milyon manat xarici investisiya cəlb olunduğu halda 2025-ci il ərzində bu göstərici 87,9 milyon manata yüksəlib. Bu, aparılan islahatların və investisiyayönümlü siyasətin real nəticəsidir. Görülən işlərin davamı olaraq, cari ildə də sənaye zonalarına xarici sərmayələrin cəlbi istiqamətində müsbət nəticələr əldə olunmaqdadır. Ümumilikdə sənaye zonalarına yatırılan investisiyaların dinamikası da müsbət olaraq qalır. 2026-cı ilin birinci rübündə sənaye zonalarına sahibkarlar tərəfindən 158,7 milyon manat investisiya yatırılıb. Halbuki ötən ilin eyni dövründə bu göstərici 30,6 milyon manat təşkil etmişdi. Bu, sənaye zonalarına investor marağının artdığını və yaradılmış biznes mühitinin effektivliyini bir daha təsdiq edir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Bakıdan başlayan 100 illik yol: Türkoloji Qurultayın irsi

Tarixin elə məqamları var ki, onların əhəmiyyəti baş verdiyi dövrün hüdudlarını aşaraq gələcək əsrlərin siyasi, elmi və mənəvi istiqamətini müəyyənləşdirir. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay da məhz belə hadisələrdəndir. Bir əsr sonra həmin qurultayın 100 illiyinin yenidən Azərbaycanda qeyd olunması türk dünyasının yeni inkişaf mərhələsinin məhz Bakıda nümayiş etdirilməsi idi.



Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi haqqında" sərəncamı ilə təşkil olunan "Türk Dünyası Həftəsi" göstərdi ki, 100 il əvvəl əsası qoyulan ideyalar bu gün artıq elmi müstəvidən çıxaraq siyasi, iqtisadi və humanitar əməkdaşlığın real mexanizminə çevrilməkdədir.

Birinci Türkoloji Qurultay dünya türkologiyasının tarixində dönüş nöqtəsi hesab olunur. İlk dəfə müxtəlif ölkələrdən gəlmiş alimlər vahid platformada türk dillərinin inkişafı, əlifba islahatı, tarix, ədəbiyyat, folklor, etnoqrafiya və mədəni irsin qorunması kimi fundamental məsələləri müzakirə etdilər. Həmin müzakirələr zahirdə elmi xarakter daşısa da, onların mahiyyətində daha böyük bir ideya dayanırdı. Qurultay parçalanmış coğrafiyalarda yaşayan türk xalqlarının ortaq kimlik şüurunun formalaşmasına xidmət edən intellektual hərəkat idi. Sonrakı repressiyalar bu ideyaların müəlliflərini susdura bildi, lakin onların irəli sürdüyü düşüncə sistemini tarixdən silə bilmədi.

Qurultayın məhz Bakıda keçirilməsi də təsadüfi deyildi. Görkəmli şərqşünas Vasili Bartold yazırdı ki, əksər əhalisi türk olan respublikalar arasında Azərbaycan və onun paytaxtı Bakı universitet və ümumilikdə elmi həyatın səviyyəsinə görə seçilirdi. Bu qiymətləndirmə həmin dövrdə Bakının türkoloji araşdırmaların əsas mərkəzi kimi qəbul olunduğunu göstərirdi. Bu gün isə eyni şəhər artıq fərqli statusa malikdir. Əgər 1926-cı ildə Bakı elmi potensialına görə seçilirdisə, 2026-cı ildə o, türk dünyasının elmi, siyasi və humanitar inteqrasiyasını birləşdirən aparıcı platforma kimi çıxış edir.

"Türk Dünyası Həftəsi" də məhz bu reallığın nümayişinə çevrildi. Bu tədbirlər silsiləsi mədəni proqramların məcmusu olmaqdan daha geniş məna daşıyırdı. Tədbir göstərdi ki, türk dövlətləri arasında əməkdaşlıq artıq yalnız ortaq tarix və mədəniyyət amili ilə məhdudlaşmır. Bu gün qarşılıqlı münasibətlər nəqliyyat, enerji təhlükəsizliyi, logistika, rəqəmsal iqtisadiyyat, elm, təhsil və humanitar siyasət kimi strateji istiqamətlər üzrə inkişaf edir. Belə bir şəraitdə ortaq tarixi yaddaş həm də gələcək əməkdaşlığın siyasi dayaqlarından birinə çevrilir. Müasir beynəlxalq münasibətlər sistemində regional birliklərin rolu getdikcə artır.

Qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi bir dövrdə ortaq maraqlara malik dövlətlərin koordinasiyalı fəaliyyəti onların iqtisadi və siyasi dayanıqlılığını müəyyən edən əsas amillərdən hesab olunur. Türk Dövlətləri Təşkilatının son illər institusional baxımdan güclənməsi də bu prosesin mühüm göstəricisidir. Xəzər hövzəsi üzərindən keçən Orta dəhlizin inkişafı, enerji marşrutlarının şaxələndirilməsi, nəqliyyat-kommunikasiya layihələrinin genişlənməsi və rəqəmsal transformasiya türk dövlətlərinin geoiqtisadi çəkisini daha da artırır. "Türk Dünyası Həftəsi"ndə səsləndirilən fikirlər göstərdi ki, bu əməkdaşlıq modeli gələcəkdə daha geniş strateji məzmun qazanacaq. Bu prosesdə Azərbaycanın rolu xüsusi diqqət çəkir. Son illər həyata keçirilən uğurlu xarici siyasət nəticəsində ölkə Şərqlə Qərbi birləşdirən mühüm nəqliyyat və enerji mərkəzinə çevrilib.

Qarabağda əldə olunan tarixi Zəfərdən sonra regionda formalaşmış yeni geosiyasi reallıq Azərbaycanın mövqeyini daha da gücləndirib. Bu gün Bakı yalnız beynəlxalq tədbirlərin keçirildiyi şəhər deyil, həm də türk dövlətlərinin gələcəyinə dair strateji qərarların və ortaq baxışların müzakirə olunduğu əsas siyasi platformalardan biridir. Bu status təsadüfən qazanılmayıb. O, ardıcıl diplomatik fəaliyyətin, iqtisadi gücün və regional təşəbbüslərin məntiqi nəticəsidir. Birinci Türkoloji Qurultayın yüzilliyi münasibətilə keçirilən tədbirlər bir daha göstərdi ki, ortaq gələcəyin qurulması yalnız siyasi sənədlərlə mümkün deyil. Bunun üçün güclü humanitar baza formalaşdırılmalıdır. Türk dillərinin öyrənilməsi, ortaq terminoloji sistemin hazırlanması, universitetlər arasında əməkdaşlığın genişləndirilməsi, elmi tədqiqatların əlaqələndirilməsi və akademik mübadilə proqramlarının inkişafı gələcək inteqrasiyanın əsas istiqamətlərindəndir. Elm və təhsil sahəsində qurulan əməkdaşlıq uzunmüddətli strateji tərəfdaşlığın ən etibarlı təminatıdır.

Yubiley tədbirlərində səsləndirilən fikirlərdən biri də türk mədəni irsinin bütöv şəkildə öyrənilməsinin vacibliyi idi. Xüsusilə türk naxışlarının ortaq mədəni yaddaşın daşıyıcısı kimi qiymətləndirilməsi diqqət çəkirdi. Vurğulandı ki, xalçalarda, kilimlərdə, memarlıq abidələrində və digər tətbiqi sənət nümunələrində yaşadılan ornamentlər yalnız estetik element deyil, minilliklər boyu formalaşmış dünyagörüşünün, həyat fəlsəfəsinin və mənəvi dəyərlərin simvolik ifadəsidir. Həyat ağacı motivi, həndəsi kompozisiyalar və digər ornamentlər türk sivilizasiyasının yazısız salnaməsi kimi bu gün də öz aktuallığını qoruyur.

Tarixi irsin araşdırılması kontekstində Göytürk imperiyasının irsi də xüsusi vurğulandı. Tarixdə "türk" adını ilk dəfə rəsmi dövlət adı kimi daşıyan bu imperiyanın Azərbaycan türkləri də daxil olmaqla müasir türk xalqlarının etnik və mədəni formalaşmasında mühüm rol oynadığı qeyd edildi. Bu fakt türkoloji araşdırmaların yalnız keçmişi öyrənməyə deyil, ortaq kimliyin elmi əsaslarının möhkəmləndirilməsinə xidmət etdiyini bir daha göstərir.

Birinci Türkoloji Qurultayın iştirakçılarından olan Strasburq nümayəndəsi Menzelin vaxtilə söylədiyi bir fikir bu gün də aktuallığını saxlayır. O qeyd edirdi ki, qurultay yalnız türkoloji məsələləri deyil, sivilizasiyalararası mədəni əlaqələrin gələcək perspektivlərini də müəyyənləşdirməyə çalışırdı. Əslində, bu baxış indi daha geniş miqyasda öz təsdiqini tapır. Azərbaycanın evsahibliyi etdiyi "Türk Dünyası Həftəsi" də mədəniyyətlər arasında dialoqu, qarşılıqlı anlaşmanı və ortaq humanitar məkanın formalaşdırılmasını təşviq edən mühüm təşəbbüs kimi çıxış edir.

Tarixini qoruyan xalqlar gələcəyini daha inamla qururlar. Birinci Türkoloji Qurultayın yüzillik yubileyinin dövlət səviyyəsində keçirilməsi də məhz bu prinsipə söykənir. Bu yubiley keçmişə ehtiramın ifadəsi olmaqla yanaşı, gələcəyə ünvanlanan strateji baxışın nümayişidir. Yüz il əvvəl Bakıda səslənən ideyalar bu gün yeni məzmun qazanaraq türk dövlətləri arasında əməkdaşlığın intellektual dayaqlarını formalaşdırır. Azərbaycan isə həmin böyük irsin, sadəcə, qoruyucusu deyil, onun müasir mərhələdə inkişafını təmin edən əsas təşəbbüskarlarından biri kimi çıxış edir.

Bir əsr əvvəl dünya türkologiyasının taleyini müəyyən edən şəhər bu gün türk dünyasının gələcəyinə dair strateji müzakirələrin aparıldığı mərkəzə çevrilib. Bu, tarixin təsadüfi deyil. Bu, Azərbaycanın ardıcıl dövlət siyasətinin, zəngin elmi ənənələrinin və türk dünyasının ortaq dəyərlərinə sadiqliyinin məntiqi nəticəsidir. Məhz buna görə də "Türk Dünyası Həftəsi" və Birinci Türkoloji Qurultayın yüzilliyi yalnız bir yubiley kimi deyil, türk dünyasının ortaq gələcəyinə aparan yolun yeni mərhələsinin başlanğıcı kimi dəyərləndirilməlidir.

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru*

# "Əsas məqsəd rəqəmsal mühitdə uşaqların maraqlarını təhlükəli təsirlərdən qorumaqdır"

Sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu platformalar informasiya əldə etmək, ünsiyyət qurmaq, yeni biliklər qazanmaq, yaradıcılıq imkanlarını genişləndirmək və ictimai proseslərdə iştirak etmək baxımından böyük imkanlar yaradır. Lakin rəqəmsal texnologiyaların sürətli inkişafı ilə yanaşı, sosial medianın xüsusilə uşaqlar və yeniyetmələr üzərində zərərli təsirləri də bütün dünyada ciddi narahatlıq doğurur.

Məhz bu baxımdan Milli Məclisdə üçüncü oxunuşda qəbul edilən və uşaqların sosial şəbəkə mühitində müdafiəsinin gücləndirilməsinə yönələn qanunvericilik dəyişiklikləri mühüm sosial və hüquqi əhəmiyyət daşıyır. Dəyişikliklərə əsasən, sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən edilir. 16-18 yaş aralığında olan şəxslərin isə sosial şəbəkə platformalarında fərdi rəqəmsal hesab yaratması, həmin hesablardan istifadə etməsi və məzmun paylaşması qanuni nümayəndələrinin razılığı və nəzarəti altında mümkün olacaq.

**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə müsahibəsində deyib ki, söhbət ilk növbədə sosial şəbəkələrdə qeydiyyat zamanı yaş yoxlanılması mexanizmlərinin tətbiqindən, uşaqların zərərli məzmun və manipulyativ təsirlərdən qorunmasından, platformaların məsuliyyətinin artırılmasından və uşaqların rəqəmsal həyata daha hazırlıqlı şəkildə daxil olmasından gedir: "Uşağın sağlam böyüməsi, fiziki və psixoloji rifahının qorunması, düzgün inkişafı və təhlükəsiz mühitdə yetişməsi yalnız ailənin deyil, bütövlükdə cəmiyyətin və dövlətin məsuliyyətidir. Bu səbəbdən yeni tənzimləmələr ayrıca və təcrid olunmuş təşəbbüs deyil, uşaqların müdafiəsi sisteminin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Konstitusiyanın 17-ci maddəsinin 6-cı bəndində açıq şəkildə qeyd olunur ki, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Azərbaycanın qoşulduğu uşaq hüquqlarına dair beynəlxalq konvensiyalar da dövlətin bu sahədə fəal müdafiə mexanizmləri yaratmasını tələb edir. Əslində, uşaqların hüquqları qorunmaqla onların sağlamlığı və rifahı naminə müxtəlif sahələrdə yaş məhdudiyyətlərinin tətbiqi yeni yanaşma deyil. Uşaqlara siqaret və alkoqollu içkilərin satılmasına, müəyyən təhlükəli əşyaların əldə edilməsinə, digər zərərli məzmunlara çıxışına məhdudiyyətlər məhz onların müdafiəsi məqsədilə tətbiq olunur. Heç kim bu məhdudiyyətləri uşaqların hüquqlarının pozulması kimi qiymətləndirmir. Əksinə, onlar uşağın sağlamlığının, təhlükəsizliyinin və rifahının qorunması üçün zəruri müdafiə tədbirləri hesab edilir".

Deputat qeyd edib ki, müasir rəqəmsal dövrdə eyni müdafiə fəlsəfəsinin sosial media mühitində də öz əksini tapması təbiidir: "Əgər real həyatda uşağın inkişafına zərər verə biləcək məhsul, xidmət və məzmunlara yaş məhdudiyyəti tətbiq edilirsə, virtual dünyada onun psixologiyasına, davranışına, dünyagörüşünə və təhlükəsizliyinə təsir edən risklər də hüquqi tənzimləmədən kənarda qala bilməz". P.Vəliyeva həmçinin vurğulayıb ki, Azərbaycanda uşaqların informasiya təhlükəsizliyinin qorunması istiqamətində hüquqi baza əvvəlki illərdən formalaşdırılıb: "2018-ci ildə qəbul edilmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə yanaşı, onların zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edib. Hazırkı qanunvericilik dəyişiklikləri həmin siyasətin müasir rəqəmsal reallıqlara uyğun davamıdır. Sosial şəbəkələrin uşaqların həyatına erkən yaşlardan daxil olması, alqoritmik məzmun seçiminin genişlənməsi, şəxsi məlumatların toplanması, kiberzorakılıq, manipulyasiya, zərərli çağırışlar və uyğun olmayan məzmunların yayılması yeni hüquqi və texnoloji müdafiə mexanizmlərini zəruri edir. Prezident İlham Əliyev tərəfindən 27 fevral 2026-cı ildə imzalanmış "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" sərəncam da bu istiqamətdə dövlət siyasətinin sistemli xarakterini göstərir. Sərəncam sosial şəbəkələrin tənzimlənməsi ilə bağlı yeni hüquqi mexanizmlərin hazırlanmasını, məktəblərdə cihaz istifadəsinə dair qaydaların müəyyən edilməsini, kurikulumlara rəqəmsal savadlılıq və kibertəhlükəsizlik mövzularının daxil edilməsini, həmçinin valideynlər və uşaqlar üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur".

Deputat xatırladıb ki, bu ilin əvvəlində qəbul edilən "Uşaq hüquqları haqqında" yeni qanunda rəqəmsal mühitdə uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilməsi də bu siyasətin davamlılığını nümayiş etdirir: "Məqsəd aydındır: uşaqların rəqəmsal mühitdə təhlükəsizliyini və sağlam inkişafını təmin etmək. Bu məqsədlə İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişikliklər edilir. Uşaqlar, xüsusilə yeniyetməlik dövründə sosial təsirlərə, emosional təzyiqə və manipulyasiyaya böyüklərlə müqayisədə daha həssasdırlar. 16 yaşınadək dövrdə ətraf mühitin, risklərin və manipulyativ davranışların tam dərk edilməməsi uşaqların müxtəlif qrupların təsirinə düşməsini, təhlükəli söhbətlərə qoşulmasını, yanlış məlumatlara inanmasını və zərərli davranış modellərini mənimsəməsini asanlaşdıra bilər. Platformalar istifadəçilərin hansı paylaşımlara nə qədər baxdığını, nəyə klik etdiyini, hansı videonu təkrar izlədiyini və hansı məzmun qarşısında daha uzun müddət dayandığını analiz edir. Daha sonra alqoritmlər istifadəçini platformada mümkün qədər uzun müddət saxlamaq məqsədilə fərdiləşdirilmiş məzmun axını yaradır.Yetkin insan belə mexanizmlərin təsirinə məruz qala bilir. Uşaq və yeniyetmələr üçün isə risk daha yüksəkdir. Alqoritmik sistemlər müəyyən hallarda uşağı getdikcə daha emosional, aqressiv, depressiv, qorxuducu və ya yaşına uyğun olmayan məzmunlara yönəldə bilər. Beləliklə, uşağın nə izlədiyini yalnız onun şüurlu seçimi deyil, görünməyən rəqəmsal mexanizmlər də müəyyən edir".



P.Vəliyeva bildirib ki, uşaq yetkinlik yaşına çatana qədər rəqəmsal savadlılıq, şəxsi məlumatların qorunması, dezinformasiyanın tanınması, kibertəhlükəsizlik, alqoritmik manipulyasiyanın dərk edilməsi, onlayn etik davranış və təhlükəli əlaqələrdən qorunma bacarıqları əldə etməlidir. Sonrakı mərhələdə isə qanuni nümayəndənin razılığı və nəzarəti ilə sosial şəbəkə mühitinə daxil olması daha təhlükəsiz model yarada bilər. Bu, fərd üçün psixoloji və fiziki sağlamlıq, ailə üçün uşağın təhlükəsizliyi, cəmiyyət üçün sağlam nəsil, dövlət üçün isə insan kapitalının qorunması məsələsidir.

Azərbaycanın bu sahədə atdığı addımların qlobal inkişaf meyillərindən olduğunu deyən deputat qeyd edib ki, hazırda dünyanın müxtəlif ölkələrində uşaqların sosial mediaya çıxışı, yaş yoxlanılması, platformaların məsuliyyəti və valideyn razılığı ilə bağlı yeni hüquqi mexanizmlər qəbul edilir və ya müzakirə olunur: "ABŞ-nin ayrı-ayrı ştatlarında fərqli yaş hədləri və valideyn razılığı mexanizmləri üzrə yanaşmalar formalaşır. İrlandiyada "Online Safety Code", Böyük Britaniyada "Online Safety Act" çərçivəsində uşaqların rəqəmsal təhlükəsizliyi ilə bağlı platformaların öhdəlikləri gücləndirilir. Qazaxıstan və Özbəkistanda uşaqların sosial şəbəkələrdə müdafiəsinin gücləndirilməsi ilə bağlı qanunvericilik təşəbbüsləri gündəmə gəlir. Norveç isə sosial media platformaları üçün yeni yaş məhdudiyyəti mexanizmlərinin tətbiqi istiqamətində addımlar planlaşdırır".

P.Vəliyeva qeyd edib ki, yeni qanunvericilik yanaşmasının mühüm tərəflərindən biri məsuliyyətin yalnız uşağın və valideynin üzərinə qoyulmamasıdır. Sosial media platformalarının da uşaqların təhlükəsizliyinin qorunması, zərərli və təhlükəli məzmunun qarşısının alınması, şəxsi məlumatların mühafizəsi, qanunvericiliyə zidd məlumatların operativ şəkildə aradan qaldırılması və aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq edilməsi istiqamətində öhdəlikləri olmalıdır: "Bu, prinsipial məsələdir, çünki uşağın diqqətini cəlb edən, onun davranışını təhlil edən, maraqlarını proqnozlaşdıran və qarşısına fərdiləşdirilmiş məzmun çıxaran sistemlərin texnoloji imkanları ailələrin imkanlarından qat-qat böyükdür. Belə şəraitdə yalnız "valideyn uşağına nəzarət etsin" demək kifayət deyil. Platformalar da yaratdıqları rəqəmsal mühitə görə məsuliyyət daşımalıdırlar. Bununla yanaşı, ancaq qanunvericilik bütün problemləri həll edə bilməz. Digər tərəfdən, uşaq valideynin "ağıllı telefon"undan və ya sosial media hesabından istifadə edə bilər. Əgər yaş məhdudiyyəti tətbiq edildikdən sonra uşaq, sadəcə, valideynin telefonuna və hesabına keçəcəksə, tənzimləmənin real təsiri zəifləyəcək. Buna görə valideynlər rəqəmsal savadlılığın artırılması tədbirlərinin fəal iştirakçısına çevrilməlidirlər. Məhz buna görə dövlət-ailə-məktəb-platforma əməkdaşlığı vahid müdafiə mexanizmi kimi işləməlidir", - deyə o bildirib.

Sosial şəbəkələrin müasir həyatın reallığı olduğunu deyən P.Vəliyeva yekunda deyib: "Lakin texnologiyanın mövcud olması onun bütün yaş qrupları üçün eyni dərəcədə təhlükəsiz olması demək deyil. Uşaqların inkişaf xüsusiyyətləri, psixoloji həssaslığı və manipulyasiyaya daha açıq olması dövlətin, ailənin və cəmiyyətin üzərinə əlavə məsuliyyət qoyur. Azərbaycanın qanunvericiliyə etdiyi dəyişikliklər beynəlxalq təcrübə, yerli şərait və dünyada gedən inkişaf meyilləri nəzərə alınmaqla uşaqların müdafiəsi üçün yeni tənzimləmə çərçivəsi yaradır. Burada əsas məqsəd sosial şəbəkələri qadağan etmək deyil, rəqəmsal mühitdə uşaqların maraqlarını kommersiya alqoritmlərindən, zərərli məzmundan, manipulyasiyadan və təhlükəli təsirlərdən qorumaqdır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Ağıllı yol"lar, rəqəmsal körpülər - müasir nəqliyyat sisteminin Azərbaycan modeli

**Bir sıra dövlət elektron xidmətlərinin "mygov.az" platformasında cəmləşdirilməsi, mobil tətbiqlərin funksionallığının genişləndirilməsi, eləcə də indiyədək ənənəvi qaydada göstərilən xidmətlərin mərhələli şəkildə rəqəmsal formata keçirilməsi "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın ilk uğurlu nəticələri kimi qiymətləndirilə bilər. Bu yeniliklər vətəndaşlara daha operativ, şəffaf və rahat xidmət göstərilməsini təmin etməklə yanaşı, dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini də sürətləndirir.**

Şübhəsiz ki, rəqəmsallaşma yalnız texnoloji yenilənmə prosesi deyil. Bu, iqtisadi inkişafın sürətləndirilməsi, idarəetmənin səmərəli olmasına yol verilməsi, biznes mühitinin daha əlverişli hala gətirilməsi və cəmiyyətin innovativ düşüncə tərzinə uyğun yenilənməsi deməkdir. Rəqəmsal İnkişaf Şurasının ilk iclasında xüsusi vurğulandığı kimi, əsas hədəf milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, müasir innovasiya mühitinin formalaşdırılması və ölkənin investisiya cəlbediciliyinin daha çox artırılmasıdır. Ona görə də fəaliyyət planının icrası Azərbaycanın rəqəmsal gələcəyinin etibarlı təməllərinin yaradılması istiqamətində mühüm mərhələ kimi dəyərləndirilir. Bu zərurət xüsusən beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan üçün yeni imkanlar, yeni vəzifə və tələblər formalaşdırır. Bütün bunlar çevik nəqliyyat-kommunikasiya imkanlarını, yerli və xarici bazarlara operativ çıxışı, eləcə də müasir logistik xidmətlərin inkişafını tələb edir.

Bəs həyata keçirilən rəqəmsallaşma nəqliyyat xidmətlərinə necə təsir göstərəcək? Avrasiya məkanının mühüm nəqliyyat-tranzit qovşağı olan Azərbaycanın iştirakı ilə reallaşdırılan beynəlxalq nəqliyyat-logistik-tranzit proseslərinə rəqəmsallaşma və süni intellektin tətbiqi hansı təsirləri göstərə bilər? Və nəhayət, rəqəmsal nəqliyyat-logistika prosesləri hansı üstünlükləri vəd edir?

Mövzuya münasibət bildirən **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şöbə müdiri Aqil ƏSƏDOV** deyir ki, müasir dövrdə beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı qlobal iqtisadiyyatın davamlı və etibarlı olmasını təmin edən əsas amillərdən birinə çevrilib. Onun sözlərinə görə, XXI əsrdə dünya iqtisadiyyatında baş verən dərin struktur dəyişiklikləri nəqliyyat sistemlərinin inkişafı üçün də yeni tələblər formalaşdırıb. Qloballaşmanın sürətlənməsi, elektron ticarətin geniş vüsət alması, yük və sərnişin daşımalarının həcminin artması beynəlxalq nəqliyyat əməliyyatlarının daha operativ, təhlükəsiz və səmərəli idarə olunmasını zəruri edir. Həmin hədəflərə nail olunmasında nəqliyyat əlaqələri və logistika sisteminin səmərəli fəaliyyəti həlledici əhəmiyyət daşıyır. Məhz buna görə rəqəmsal inkişaf nəqliyyat-logistika sektorunda təkcə yeni informasiya texnologiyalarının tətbiqi ilə məhdudlaşmır. Bu proses idarəetmə modelinin yenilənməsini, məlumatların real vaxt rejimində emalını, avtomatlaşdırılmış qərar qəbuletmə mexanizmlərinin formalaşdırılmasını və logistika zəncirinin bütün mərhələlərinin daha səmərəli təşkilini özündə ehtiva edir.

Şübhəsiz, rəqəmsallaşmanın əsas hərəkətverici qüvvələrindən biri süni intellektdir. Süni intellekt texnologiyaları böyükhəcmli məlumatları qısa



müddətdə hazırlamağa, yük və sərnişin axınlarını daha dəqiq proqnozlaşdırmağa, marşrutları optimallaşdırmağa, mümkün riskləri əvvəlcədən qiymətləndirməyə və resurslardan daha səmərəli istifadəni təmin etməyə imkan verir. Nəticədə nəqliyyat-logistika prosesləri daha çevik, təhlükəsiz və iqtisadi cəhətdən səmərəli idarə olunur ki, bu da beynəlxalq daşımaların keyfiyyətinin yüksəldilməsi və tranzit potensialının daha effektiv reallaşdırılması baxımından mühüm üstünlüklər yaradır.

Ekspertin də fikri belədir ki, süni intellekt nəqliyyat-logistika sektorunda ən perspektivli texnologiyalardandır. Onun alqoritmləri yol hərəkətinin intensivliyini, hava şəraitini, sərhəd-keçid məntəqələrindəki vəziyyəti, yanacaq sərfi və digər amilləri kompleks şəkildə təhlil edərək, ən səmərəli marşrutları müəyyənləşdirir. Bu isə daşınma müddətinin qısaldılmasına, logistika xərclərinin azalmasına və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır. Eləcə də anbar təsərrüfatında robotlaşdırılmış sistemlər sifarişlərin çeşidlənməsi, hazırlanması və yüklənməsi proseslərini avtomatlaşdırır. Süni intellekt isə nəqliyyat vasitələrinin yüklənməsini optimallaşdıraraq onların daşıma potensialından maksimum istifadəni təmin edir.

Bu baxımdan qeyd edək ki, rəqəmsallaşma və süni intellektin tətbiqi Azərbaycan üçün də uzunmüddətli strateji üstünlüklər vəd edir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, üstəlik, Orta dəhlizin əsas iştirakçılarından biri olan ölkəmizdə rəqəmsal nəqliyyat sistemlərinin inkişafı artıq zərurətə çevrilib. Bu istiqamətdə "ASAN xidmət" və elektron hökumət sistemlərinin inkişafı, rəqəmsal gömrük texnologiyalarının tətbiqi, logistika mərkəzlərinin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının idarəetmə sistemlərinin rəqəmsallaşdırılması, dəmir yolu daşımalarının elektron platformalar üzərindən idarə olunması çox əhəmiyyətlidir. Paralel olaraq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə hazırlanması və Orta dəhlizin inkişafı fonunda rəqəmsal logistika texnologiyalarının geniş tətbiqi Azərbaycanın beynəlxalq tranzit imkanlarını artırmaqla, onun Avrasiyanın aparıcı nəqliyyat-logistika mərkəzlərindən biri kimi mövqeyini gücləndirəcək.

Beynəlxalq təcrübə göstərir ki, rəqəmsallaşma ilə yanaşı, yüksək investisiya tələbi, kibertəhlükəsizlik, hüquqi tənzimləmə, informasiya sistemlərinin inteqrasiyası və ixtisaslı kadr təminatı kimi bir sıra problemlər də mövcuddur. Lakin bütün bu amillərə baxmayaraq, süni intellekt və rəqəmsal texnologiyaların inkişafı nəqliyyat-logistika sahəsində yeni imkanlar yaradır. Tam avtomatlaşdırılmış logistika mərkəzləri, "ağıllı nəqliyyat" sistemləri, rəqəmsal sənədləşmə və optimallaşdırılmış daşımalar gələcəyin nəqliyyat modelinin əsas elementlərinə çevriləcək.

Beləliklə, nəqliyyat əlaqələrinin rəqəmsallaşdırılması qlobal iqtisadi inkişafın mühüm istiqamətlərindən biri olmaqla yanaşı, Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi baxımından da strateji əhəmiyyət daşıyır. Süni intellekt və innovativ texnologiyaların tətbiqi daşımaların səmərəsini artırmaq və logistika xərclərini azaltmaqla, eləcə də xidmət keyfiyyətini yüksəltməklə ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində mövqeyini daha da gücləndirəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Dövlət Aqrar Universitetinin görkəmli məzunları

## Onların sırasında akademiklər, nazirlər, Dövlət mükafatı laureatları, əmək qəhrəmanları var

Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin, iqtisadi inkişafının və milli intellektual potensialının formalaşmasında ali təhsil müəssisələrinin müstəsna rolu olmuşdur. Bu baxımdan Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) təkcə kənd təsərrüfatı üçün yüksəkixtisaslı kadrlar hazırlayan elm ocağı deyil, həm də milli elmin, dövlətçilik ənənələrinin və ziyalı təfəkkürünün inkişafına mühüm töhfələr verən qüdrətli məktəb kimi ölkəmizin tarixində xüsusi yer tutur.

Bir əsrə yaxın fəaliyyəti ərzində universitetin yetirmələri Azərbaycan elminin müxtəlif istiqamətlərində fundamental məktəblər yaratmış, dövlət idarəçiliyində məsul vəzifələr daşımış, kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə əvəzsiz töhfələr vermişlər. Bu mənada Azərbaycan Dövlət Aqrar Universitetinin tarixi, əslində, Azərbaycanın aqrar elminin, milli ziyalı təbəqəsinin və dövlətçilik ənənələrinin inkişaf tarixinin ayrılmaz tərkib hissəsidir.

Universitetin ilk azərbaycanlı məzunları olan Mirzə Sadıqov, Ağaxan Ağabəyli və Firuz Məlikov sonralar ölkəmizdə aqrar elmin və müasir heyvandarlıq məktəbinin əsasını qoyan görkəmli alimlər kimi tanınmışlar. Onların fəaliyyəti nəticəsində Azərbaycanda damazlıq işinin elmi əsasları formalaşmış, yüksək məhsuldarlığa malik zərifyunlu "Azərbaycan dağ merinosu" cinsi yaradılmışdır. Bu böyük elmi nailiyyətin SSRİ Dövlət mükafatına layiq görülməsi Azərbaycan aqrar elminin beynəlxalq səviyyədə tanınmasının parlaq nümunələrindən biri olmuşdur. Mirzə Sadıqovun təşəbbüsü ilə Gədəbəydə Dövlət Damazlıq Ocağının yaradılması, Firuz Məlikovun Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasına rəhbərlik etməsi, Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi, Ağaxan Ağabəylinin elmi-pedaqoji fəaliyyəti və ölkənin heyvandarlıq elminin inkişafına verdiyi töhfələr ADAU-nun hələ ilk illərdən böyük elm məktəbi formalaşdırdığını sübut edir. Sonrakı dövrlərdə universitetin yetirmələri arasında Azərbaycan elminin və dövlət idarəçiliyinin yeni görkəmli simaları da yetişmişdir. Həsən Əliyev, İmam Mustafayev, Müzəffər Abutalıbov, Ələkbər Quliyev, İlyas Abdullayev, Validə Tutayuq, uzun illər meşə təsərrüfatı naziri işləyən Sosialist Əməyi Qəhrəmanı Mehdi Mustafayev, Musa Musayev, Siddiqə Məmmədova, Məmmədtağı Cəfərov, Vahid Hacıyev və digər görkəmli şəxsiyyətlər öz fəaliyyətləri ilə Azərbaycan elminin "qızıl fondu"nu yaratmışlar.

Akademik Həsən Əliyevin adı Azərbaycan ekologiya və torpaqşünaslıq elminin inkişafı ilə ayrılmaz şəkildə bağlıdır. O, yalnız böyük alim deyil, həm də təbiətin mühafizəsi ideyasını dövlət siyasəti səviyyəsinə yüksəldən ziyalılardan biri olmuşdur. Onun zəngin elmi irsi, təbiətə və torpağa münasibətdə formalaşdırdığı milli yanaşma bu gün də aktuallığını qoruyur.

ADAU-nun yetirməsi olan akademik İmam Mustafayev isə həm elm, həm də dövlət idarəçiliyi sahəsində silinməz iz qoymuş şəxsiyyətlərdəndir. O, müxtəlif dövlət vəzifələrində, o cümlədən Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışmaqla yanaşı, genetika və seleksiya elminin inkişafına da mühüm töhfələr vermişdir. Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin onun xidmətlərinə verdiyi yüksək qiymət, yubileylərinin dövlət səviyyəsində qeyd olunması bu böyük şəxsiyyətin Azərbaycan tarixində tutduğu mövqenin göstəricisidir.



**Şəkildə: Universitetin inzibati binasının akt salonu - 1933-cü il.**
**(Arxa cərgədə soldan 3-cü Həsən Əliyev, 9-cu Mehdi Mustafayev, 10-cu Validə Tutayuq)**

Universitetin yetirmələri arasında Azərbaycan Milli Elmlər Akademiyasının çoxsaylı həqiqi və müxbir üzvlərinin olması xüsusi diqqət çəkir. Müzəffər Abutalıbov genetika və seleksiya sahəsində, Validə Tutayuq botanika elmində, Musa Musayev zoologiya və parazitologiyada, Siddiqə Məmmədova bitki mühafizəsində, Vahid Hacıyev isə geobotanika istiqamətində yeni elmi məktəblər yaratmışlar. Onların fəaliyyəti nəticəsində Azərbaycan elmi beynəlxalq elmi ictimaiyyətdə daha geniş tanınmağa başlamışdır. Xüsusilə Validə Tutayuqun biologiya elmləri doktoru elmi dərəcəsini alan ilk azərbaycanlı qadınlardan biri olması milli elm tariximizin mühüm hadisələrindən hesab olunur. Onun uzun illər ərzində yetişdirdiyi elmi kadrlar və yaratdığı məktəb bu gün də öz ənənələrini yaşadır. Siddiqə Məmmədovanın bitki mühafizəsi sahəsində apardığı tədqiqatlar isə kənd təsərrüfatının məhsuldarlığının artırılmasına mühüm təsir göstərmişdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin çoxəsrlik ənənələrinin ən mühüm cəhətlərindən biri onun təkcə elm adamları deyil, eyni zamanda dövlət idarəçiliyində böyük məsuliyyət daşıyan və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsiyyətlər yetişdirməsidir. Bu mənada universitet milli dövlətçilik tariximizin formalaşmasına öz töhfəsini vermiş nadir ali təhsil müəssisələrindən biri kimi xüsusi əhəmiyyət daşıyır. ADAU-nun məzunları arasında Azərbaycan SSR və SSRİ Ali sovetlərinin deputatları, nazirlər, dövlət komitələrinin rəhbərləri, elm təşkilatçıları, Sosialist Əməyi qəhrəmanları və SSRİ Dövlət mükafatı laureatlarının olması bu elm ocağının ictimai nüfuzunu və milli inkişaf prosesindəki rolunu aydın şəkildə nümayiş etdirir. Universitetin yetirmələrindən biri olan akademik İlyas Abdullayev uzun illər Azərbaycan dövlət idarəçiliyində mühüm vəzifələrdə çalışmış, Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini kimi məsul postlarda fəaliyyət göstərmişdir. Onun həyat yolu aqrar təhsil almış mütəxəssislərin dövlət idarəçiliyində də yüksək peşəkarlıq nümayiş etdirdiklərinin parlaq nümunəsidir. Akademik Ələkbər Quliyev də həm elmi, həm də inzibati fəaliyyətində böyük uğurlara imza atmışdır. O, kənd təsərrüfatı naziri, ali məktəb rəhbəri və elmi müəssisələrin təşkilatçısı kimi ölkənin aqrar siyasətinin həyata keçirilməsində mühüm rol oynamışdır.

ADAU-nun məzunları arasında dövlətçilik ənənələrinin formalaşmasında xüsusi xidmətləri olan şəxsiyyətlərdən biri də Həsən Seyidov olmuşdur. O, Azərbaycan KP Mərkəzi Komitəsinin katibi kimi fəaliyyət göstərməklə yanaşı, elmi araşdırmalarını da davam etdirmiş, aqrar sahənin inkişafına dair mühüm təşəbbüslərlə çıxış etmişdir. Bu, universitetin yetirmələrinin həm elmə, həm də dövlət quruculuğuna eyni dərəcədə xidmət etdiyini göstərən mühüm faktlardan biridir. Azərbaycan Dövlət Aqrar Universiteti akademik elmin inkişafına da mühüm töhfələr vermişdir. Məzunlar arasında onlarca həqiqi və müxbir üzvün yer alması bu ali təhsil müəssisəsinin intellektual potensialının göstəricisidir. Məmməd Emin Salayev, Rəhim Hüseynov, Aydın Məmmədov, Mahmud Abdullayev, Zeynal Əkbərov, İbrahim Cəfərov və Saleh Məhərrəmov kimi alimlərin fəaliyyəti Azərbaycan aqrar elminin müxtəlif istiqamətlərinin inkişafında mühüm mərhələlər yaratmışdır. Xüsusilə Rəhim Hüseynovun yaratdığı məhsuldar "Azərbaycan" ipəkqurdu cinsinin SSRİ Dövlət mükafatına layiq görülməsi ölkəmizin ipəkçilik tarixində əlamətdar hadisələrdən biri olmuşdur. Bu nailiyyət təkcə elmi uğur deyil, həm də kənd təsərrüfatının iqtisadi səmərəliliyinin artırılmasına xidmət edən mühüm yenilik kimi qiymətləndirilmişdir. Cəbrayıl Hüseynovun neft mənşəli tullantıların əkinçilikdə tətbiqi ilə bağlı tədqiqatları isə Azərbaycan elminin innovativ istiqamətlərə açıq olduğunu nümayiş etdirmişdir. Onun araşdırmaları yalnız keçmiş sovetlər birliyində deyil, ABŞ, Almaniya və digər ölkələrdə də maraqla qarşılanmış, müəllifinə SSRİ Dövlət mükafatı qazandırmışdır.

Universitetin dövlətçilik ənənələrinin formalaşmasında onun rəhbərlərinin də mühüm xidmətləri olmuşdur. Professor Möhsün Poladov, Soltan Mirzəyev, Bala Ağayev və akademik Məmmədtağı Cəfərov müxtəlif dövrlərdə universitetə rəhbərlik etməklə yanaşı, ölkənin ictimai-siyasi və elmi həyatında da fəal iştirak etmişlər. Onların idarəçilik təcrübəsi, elmə və təhsilə bağlılığı ADAU-nun milli kadr hazırlığı məktəbi kimi nüfuzunun daha da artmasına səbəb olmuşdur. Məzunlar arasında Sosialist Əməyi qəhrəmanlarının, görkəmli təsərrüfat rəhbərlərinin və əmək fədailərinin çoxluğu da diqqətəlayiqdir. Şamama Həsənova, Bəsti Bağırova, Qızqayıt Həsənova, Şaban Rzayev və digər əmək qəhrəmanları Azərbaycan kəndinin inkişafında, kənd təsərrüfatı istehsalının yüksəldilməsində və zəhmət ənənələrinin yaşadılmasında mühüm rol oynamışlar. Bu isə o deməkdir ki, Azərbaycan Dövlət Aqrar Universiteti təkcə elm və təhsil məbədi deyil, həm də milli dövlətçilik ənənələrinin, vətənpərvərlik ruhunun və yüksək ziyalı mədəniyyətinin formalaşdığı qüdrətli bir məktəbdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin keçdiyi şərəfli inkişaf yolunun mühüm mərhələlərindən biri Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərlə bağlıdır. Ümummilli Lider kənd təsərrüfatını Azərbaycanın iqtisadi qüdrətinin və ərzaq təhlükəsizliyinin əsas dayaqlarından biri hesab edir, bu sahənin inkişafını isə ilk növbədə yüksəkixtisaslı milli kadrların hazırlanması ilə əlaqələndirirdi. Məhz bu strateji yanaşma aqrar təhsilə, xüsusilə ölkənin yeganə ali aqrar təhsil müəssisəsi olan Azərbaycan Dövlət Aqrar Universitetinə göstərilən diqqət və qayğının əsasını təşkil edirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə aqrar sahənin elmi əsaslarla inkişaf etdirilməsini dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Onun təşəbbüsü ilə kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi genişlənmiş, elmi-tədqiqat müəssisələrinin fəaliyyəti gücləndirilmiş, aqrar sahə üçün peşəkar mütəxəssis hazırlığına xüsusi önəm verilmişdir.

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən də uğurla və yaradıcı şəkildə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə aqrar sahənin modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində mühüm proqramlar həyata keçirilmişdir. Təbii ki, bu prosesdə Azərbaycan Dövlət Aqrar Universitetinin üzərinə böyük vəzifələr düşür. Dövlət başçısının dəstəyi ilə yeni tədris korpusları, tələbə evləri, laboratoriyalar və innovativ mərkəzlər istifadəyə verilmiş, təhsil mühitinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Prezident İlham Əliyevin Gəncəyə etdiyi səfərlər çərçivəsində universitetdə həyata keçirilən bir sıra layihələrin açılışında şəxsən iştirak etməsi, müəllim və tələbələrlə görüşməsi, gələcək inkişafla bağlı tövsiyə və tapşırıqlar verməsi aqrar təhsilə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir.

Azərbaycan Dövlət Aqrar Universiteti artıq yalnız milli səviyyədə deyil, beynəlxalq təhsil məkanında da öz mövqelərini möhkəmləndirən ali məktəblərdən biridir. Universitet dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali təhsil və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq edir, beynəlxalq layihələrdə fəal iştirak edir, ikili diplom proqramları həyata keçirir. Hazırda universitetdə bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə minlərlə tələbə Azərbaycan, rus, ingilis və türk dillərində təhsil alır. Müasir laboratoriyalar, elmi-tədqiqat mərkəzləri, tədris-təcrübə təsərrüfatları, rəqəmsal texnologiyalar və innovativ aqrobiznes layihələri tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla birləşdirməsinə şərait yaradır. Dünyada baş verən IV Sənaye İnqilabı, rəqəmsallaşma və süni intellekt texnologiyalarının inkişafı aqrar sektorun da yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Bu gün "ağıllı kənd təsərrüfatı", rəqəmsal fermerlik, dəqiq əkinçilik və ekoloji dayanıqlılıq məsələləri qlobal gündəliyin əsas istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan Dövlət Aqrar Universiteti də bu çağırışlara uyğun olaraq təhsil proqramlarını yeniləyir, innovativ yanaşmaları tətbiq edir və gələcəyin mütəxəssislərini hazırlayır.

Zəngin və şərəfli tarixə malik olan Azərbaycan Dövlət Aqrar Universiteti bu gün də milli elmin, dövlətçilik ənənələrinin və yüksək ziyalı mədəniyyətinin etibarlı dayaqlarından biri olaraq fəaliyyətini uğurla davam etdirir. Onun yetişdirdiyi alimlər, dövlət xadimləri, əmək qəhrəmanları və müasir mütəxəssislər Azərbaycanın intellektual sərvətinin ayrılmaz hissəsini təşkil edir. Tam əminliklə demək olar ki, zəngin tarixi irsə, güclü elmi potensiala, müasir infrastruktura və dövlət qayğısına malik olan Azərbaycan Dövlət Aqrar Universiteti gələcəkdə də ölkəmizin aqrar inkişafına, milli elmin tərəqqisinə və dövlətçilik ənənələrinin möhkəmlənməsinə layiqli töhfələr verməyə davam edəcəkdir.

***Nüsrət HÜSEYNOV,***
***ADAU-nun dosenti,***
***qabaqcıl təhsil işçisi***

# Proqram mühəndisliyi kibertəhlükəsizliyin və rəqəmsal inkişafın əsas dayaqlarındandır

Müasir dünyada dövlətlərin iqtisadi gücü və milli təhlükəsizliyi artıq təbii sərvətlər, sənaye potensialı və ya hərbi imkanlarla deyil, həm də rəqəmsal texnologiyaların inkişaf səviyyəsi ilə müəyyən olunur.

Bu baxımdan proqram mühəndisliyi rəqəmsal transformasiyanın, süni intellekt texnologiyalarının, kibertəhlükəsizliyin və rəqəmsal iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri hesab edilir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələr proqram təminatı sənayesini strateji sahə kimi qiymətləndirir və onun inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirirlər.

Proqram mühəndisliyi elmi istiqaməti ötən əsrin 60-cı illərində proqram təminatının hazırlanması prosesində yaranan böhranın aradan qaldırılması məqsədilə formalaşmışdır. Onun əsas ideyası proqram təminatının hazırlanmasına sistemli mühəndislik yanaşmasının tətbiq edilməsidir. Necə ki körpü, bina və ya digər mühəndis qurğuları müəyyən standartlara, layihələndirmə prinsiplərinə və keyfiyyət tələblərinə uyğun inşa edilir, proqram sistemləri də elmi əsaslandırılmış metodologiyalar, standartlar və keyfiyyət meyarları əsasında hazırlanmalıdır.

Son onilliklər ərzində proqram mühəndisliyi sürətlə inkişaf edərək informasiya cəmiyyətinin əsas elmi istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycanda isə bu sahənin inkişafı müstəqillik illərində yeni mərhələyə qədəm qoymuşdur. Xüsusilə informasiya-kommunikasiya texnologiyalarının dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan olunması proqram mühəndisliyinin inkişafı üçün mühüm zəmin yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "2023-2027-ci illər üzrə İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizlik Strategiyası" ölkənin texnoloji müstəqilliyinin gücləndirilməsini, milli proqram sənayesinin inkişaf etdirilməsini və yüksəkixtisaslı kadr hazırlığını əsas prioritetlərdən biri kimi müəyyən etmişdir. Strategiyanın başlıca məqsədlərindən biri informasiya təhlükəsizliyi sahəsində xarici texnologiyalardan asılılığın azaldılması və milli proqram məhsullarının yaradılmasına elmi dəstəyin göstərilməsidir.

Cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövzusunda müşavirədə də rəqəmsal inkişafın yeni mərhələsi ilə bağlı mühüm qərarlar qəbul olunmuş, ölkənin rəqəmsal transformasiyası üzrə fəaliyyət planı müəyyən edilmişdir. Müşavirədə kibertəhlükəsizlik məsələləri əsas prioritetlərdən biri kimi qiymətləndirilmiş və dövlət informasiya infrastrukturunun etibarlı qorunmasının vacibliyi xüsusi vurğulanmışdır.

Bu istiqamətdə daha bir mühüm hadisə bu il iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası olmuşdur. İclasda qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını nəzərdə tutan yol xəritəsinin müəyyən edildiyi bildirildi. Vurğulandı ki, süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amillərindən biridir və dövlətlərin təhlükəsizliyində getdikcə daha mühüm rol oynayır. Bu yanaşma proqram mühəndisliyinin ölkənin rəqəmsal inkişaf strategiyasında tutduğu xüsusi yeri bir daha təsdiq edir.

Ölkəmizdə proqram mühəndisliyi üzrə elmi məktəbin formalaşdırılmasında İnformasiya Texnologiyaları İnstitutunun mühüm rolu olmuşdur. Azərbaycanda proqram mühəndisliyi istiqamətində sistemli elmi tədqiqatlara ilk dəfə 2003-cü ildə akademik Rasim Əliquliyevin rəhbərliyi ilə başlanılmışdır. Sonrakı illər bu istiqamətdə geniş elmi araşdırmalar aparılmış, 2013-cü ildə "Proqram mühəndisliyi", 2020-ci ildə isə "Proqram mühəndisliyinin əsasları" adlı kitablar nəşr edilmişdir. Hazırda həmin kitablar ölkənin bir sıra ali təhsil müəssisələrində dərs vəsaiti kimi istifadə edilir.

Aparılan elmi fəaliyyət nəticəsində proqram mühəndisliyi üzrə beynəlxalq nüfuzlu jurnallarda və konfrans materiallarında 180-dən çox elmi məqalə və tezis dərc edilmiş, bu istiqamətdə fəlsəfə doktorluğu dissertasiyası müdafiə olunmuşdur. İnstitutun təşəbbüsü ilə 2025-ci ildən etibarən ölkədə ilk dəfə "Proqram mühəndisliyi" ixtisası üzrə magistr səviyyəsində kadr hazırlığına başlanılması isə milli proqram mühəndisliyi məktəbinin inkişafında mühüm mərhələ hesab olunur.

Proqram mühəndisliyinin əhəmiyyəti yalnız elm və təhsil sahəsi ilə məhdudlaşmır. Müasir dövrdə proqram təminatı iqtisadi inkişafın əsas resurslarından birinə çevrilmişdir. Bu gün dünyanın aparıcı iqtisadiyyatlarında milyonlarla proqram mühəndisi fəaliyyət göstərir. Çində təxminən 7 milyon, Hindistanda 5 milyona yaxın, ABŞ-də isə 4 milyondan artıq proqramçı çalışır. Onların fəaliyyəti nəticəsində yaradılan proqram məhsulları dövlətlərin iqtisadi artımına, rəqabət qabiliyyətinin yüksəldilməsinə və texnoloji müstəqilliyinin təmin olunmasına mühüm töhfə verir. Elə buna görə də proqram təminatı sənayesi çox zaman "yeni neft" kimi xarakterizə olunur.

Müasir proqram mühəndisliyinin inkişafını süni intellekt texnologiyalarından ayrı təsəvvür etmək mümkün deyil. Süni intellekt proqram mühəndisliyinin məhsulu olmaqla yanaşı, eyni zamanda onun inkişafına da güclü təkan verir. Bu gün proqram kodunun avtomatik generasiyası, proqramların testləşdirilməsi, proqram səhvlərinin aşkarlanması, təhlükəsizlik boşluqlarının müəyyən edilməsi və proqram təminatının optimallaşdırılması kimi proseslərdə süni intellekt texnologiyaları geniş tətbiq olunur. Digər tərəfdən, səsli köməkçilər, avtomatik tərcümə sistemləri, tibbi diaqnostika, üz tanınması, pilotsuz nəqliyyat vasitələri və digər intellektual sistemlər proqram mühəndisliyinin prinsipləri əsasında yaradılmış mürəkkəb proqram məhsullarıdır.

Bununla yanaşı, Azərbaycanda proqram mühəndisliyi üzrə tədrisin inkişafı istiqamətində həllini gözləyən problemlər də mövcuddur. Bunlara proqram təminatı sənayesinin inkişafına yönəlmiş kompleks dövlət proqramının olmaması, beynəlxalq standartlara uyğun yüksəkixtisaslı mütəxəssis çatışmazlığı, ali təhsildə praktiki hazırlığın kifayət qədər olmaması, müasir laboratoriyaların və proqram platformalarının məhdudluğu, müəllim heyətinin davamlı peşəkar inkişafına ehtiyac və universitet-sənaye əməkdaşlığının zəifliyi daxildir. Bu problemlərin aradan qaldırılması ölkədə proqram təminatı sənayesinin inkişafına və milli rəqəmsal iqtisadiyyatın gücləndirilməsinə mühüm töhfə verə bilər.

İnformasiya Texnologiyaları İnstitutu proqram mühəndisliyi istiqamətində fəaliyyətini bundan sonra da davam etdirməyi planlaşdırır. Cari ilin noyabr ayında institutun təşkilatçılığı ilə "Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri" II respublika konfransının keçirilməsi nəzərdə tutulur. Konfrans proqram mühəndisliyi sahəsində aparılan elmi tədqiqatların müzakirəsi, yeni əməkdaşlıqların qurulması və milli proqram mühəndisliyi məktəbinin inkişafı baxımından mühüm platforma olacaq.

Bu gün proqram mühəndisliyi təkcə proqram təminatının hazırlanması ilə məşğul olan texniki sahə deyil. O, ölkənin kibertəhlükəsizliyinin təmin edilməsində, rəqəmsal iqtisadiyyatın inkişafında, süni intellekt texnologiyalarının yaradılmasında, milli proqram sənayesinin formalaşdırılmasında və texnoloji müstəqilliyin möhkəmləndirilməsində strateji əhəmiyyətə malikdir. Azərbaycanın rəqəmsal gələcəyinin qurulmasında proqram mühəndisliyinin inkişafı dövlət, elm, təhsil və sənaye arasında sıx əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir.

***Tofiq KAZIMOV,***
***ETN İnformasiya Texnologiyaları***
***İnstitutunun şöbə müdiri, dosent***



# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Aqrar sektorun inkişafında yeni dövr başlayır

"Aqrar sektorun inkişafı ilə bağlı mayın 25-də keçirilmiş müşavirədəki nitqində Prezident İlham Əliyev demişdir: "İntensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun".

Tərtər rayonunda 2371,5 hektar meyvə və giləmeyvə bağları var. Onlardan 824,9 hektarı intensiv, 1546,6 hektarı ənənəvi bağlardır. Bağların 49 hektarı yeni salınmışdır. Mövcud meyvə bağlarının 845,7 hektarı isə ixracatyönümlü xurma bağlarıdır.

Rayondakı iri müəssisələrdən birinin- "Frutti Aqro" MMC-nin rəhbəri Zaur Əliyevin verdiyi məlumata görə, MMC-nin ümumi əkin sahəsi 315 hektardır və bu sahənin 175 hektarını xurma, 70 hektarını nektarin, 44 hektarını şaftalı, 16 hektarını əncir,10 hektarını isə ərik bağları təşkil edir. Müəssisədə hazırda 60 nəfər daimi, mövsüm zamanı isə 200 nəfər yerli sakin işlə təmin olunur. Burada müasir tələblərə cavab verən mütərəqqi avtomatlaşdırılmış damcı suvarma sistemi qurulub. Eyni zamanda ərazidə suvarma suyunun fasiləsizliyini təmin etmək üçün tutumu 200 min kubmetr olan xüsusi süni göl yaradılıb ki, bu da bitkilərin vegetasiya dövründə optimal su təminatına tam zəmanət verir.

Cari ildə həyata keçirilən aqrotexniki qulluq nəticəsində təsərrüfatda bol və keyfiyyətli məhsul yetişib. Lakin son günlər qeyri-sabit keçən hava şəraiti nəticəsində meyvə bağlarına ciddi ziyan dəyib. Amma təsərrüfat məhsulunu sığortaladığı üçün dəymiş maddi ziyana görə ASF-dən vəsait alacaq.

"Tərtər 1" MMC-nin intensiv meyvə bağları isə Seydimli və Bala Kəngərli kəndlərində 98 hektar sahəni əhatə edir. Bu sahənin 75 hektarı xurma, 12 hektarı nektarin və 11 hektarı şaftalıdır. Bağların 79 hektarı yeni salınıb. Burada 14 nəfər daimi, 80 nəfər mövsüm zamanı işlə təmin olunur. Hamısı yerli sakinlərdir. Bu müəssisədə də müasir suvarma infrastrukturu qurulub, 1,5 hektar sahədə tutumu 130 min kubmetr olan xüsusi süni göl yaradılıb. Görülən tədbirlər nəticəsində su ehtiyatlarından səmərəli istifadə edilir.

Müəssisənin təsisçisi Muxtar Orucov deyir ki, 2026-2030-cu illəri əhatə edən yeni dövlət proqramından irəli gələn vəzifələri yerinə yetirmək üçün mövcud imkanlardan maksimum və səmərəli istifadə olunacaq. Müasir aqrar texnologiyaların təsərrüfata tətbiqi genişləndiriləcək, nəticədə daxili və xarici bazarlara rəqabətədavamlı, ekoloji təmiz meyvələrin çıxarılması artacaq.

Bundan başqa, Tərtərin Qaradağlı kəndində 38 hektar sahəsi olan "FRUİT FOR AZ" MMC, Kəbirli kəndində ümumi əkin sahəsi 164 hektar olan "AZNEKTARİN" MMC, Kəbirli kəndində 120 hektarda yerləşən "Aqropat" MMC fəaliyyət göstərir. Bu müəssisələrdə müasir tələblərə uyğun meyvə bağları salınıb və hər il yüksək məhsul götürülür.

"Aqropat" MMC-də hazırda 70 nəfər yerli sakin daimi işlə təmin olunub. Mövsüm vaxtı isə işçilərin sayı 150 nəfərə çatır. Müəssisənin ərazisində tutumu 1100 ton olan müasir soyuducu anbar kompleksi yaradılıb ki, bu da yetişdirilən məhsulların keyfiyyətli saxlanılmasını təmin edir.

Bu sahədə əldə etdiyi nailiyyətləri görən digər fermerlər də meyvəçiliyə üstünlük verirlər. Onlardan biri İsmayılbəyli kəndindən olan Mirzə Cümşüdovdur. O, 50 hektar sahədə müasir standartlara uyğun meyvə bağı salıb. Nektarin, gilas və ərik yetişdirir. Mirzə Cümşüdov deyir: "Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə qeyd olunduğu kimi, meyvə-tərəvəz istehsalı ölkə üçün həm məşğulluğun artmasında, həm istehsalda, həm də ixrac potensialının yüksəlməsində faydalıdır. Lakin təcrübə göstərir ki, artıq köhnə üsullarla işləmək nə kəndliyə, nə də bütövlükdə dövlətimizə fayda verir. İntensiv əkinçiliyə keçməyin zamanıdır. Bu üsulları öyrənərək mütərəqqi texnologiyaları təsərrüfatımda tətbiq edirəm. Gələcəkdə dövlət proqramının yerinə yetirilməsinə töhfə vermək üçün daha çox yeniliklərdən istifadə edəcəyik".







Bölgələrdə kənd təsərrüfatının inkişafının sürətləndirilməsi, əhalinin məşğulluğunun artırılmasında emal müəssisələrinin üzərinə böyük vəzifələr düşür. Tərtərdə fəaliyyət göstərən "PATRON" MMC-nin maliyyə direktoru Emin Məmmədov deyir ki, müəssisənin gələcək fəaliyyətini yeni dövlət proqramından irəli gələn vəzifələrə uyğun qurmaq üçün bütün qüvvələr səfərbər olunub.

Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Bu gün bizim 1500 hektarı əhatə edən istixanalarımız var, 500 hektar əlavə olunmalıdır. Əlbəttə ki, biz burada da, ilk növbədə özəl sektorun fəaliyyətinə arxalanırıq".

Dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələrin rayonda uğurlu icrasını təşkil etmək üçün Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bu günlər Soyulan kəndi ərazisində fermer Zəfər Nəsirovun istixana kompleksində olub, təsərrüfatın gələcək fəaliyyəti və istehsal potensialının genişləndirilməsi imkanları ilə maraqlanıb. Bildirilib ki, hazırda ərazisi 2 hektar olan kompleksin 1 hektarında istixana təsərrüfatı yaradılıb. Gələcəkdə kompleksin ərazisinin 3 hektara çatdırılması planlaşdırılır. Burada qazanxana, su anbarı, inzibati bina, anbarlar inşa edilib. İstixanada müasir avadanlıqlar, damla suvarma sistemi quraşdırılıb. Suvarma, isitmə, havalandırma sistemləri tam avtomatlaşdırılmış rejimdə idarə olunur. Kompleksdə hazırda 10 nəfər daimi, 25 nəfər mövsümi işlə təmin edilib. İllik istehsal gücü 200 ton olan istixana kompleksində pomidor istehsal edilir. Məhsul hazırda daxili bazara çıxarılır. Gələcəkdə isə xarici bazara ixracı nəzərdə tutulub.

2026-2030-cu illəri əhatə edəcək proqramda qarşıya qoyulan vəzifələrdən biri də ölkəmizi ət, süd, quş əti ilə təmin etməkdir. Hazırda bu, 80-90 faiz səviyyəsindədir. Müşavirədə qeyd olunub ki, heyvandarlıq sektorunun qarşısında duran əsas çağırışlardan biri məhz məhsuldarlıqdır. Çünki heyvandarlıqda məhsuldarlıq bu gün aşağıdır. Ölkə üzrə sürüdə cins heyvanların sayı cəmi 2,5 faizdir. Əgər ailə təsərrüfatında yerli bir cins inək ildə 1800 litr süd verirsə, intensiv təsərrüfatlarda bir inək başına məhsuldarlıq 7500 litrdir, hətta bəzi təsərrüfatlarda 10 min-12 min litrə çatır. Eyni mənzərə mal əti istehsalında da mövcuddur.

Tərtər rayonunda son illər sahibkarlar arasında cins heyvanların saxlanılmasına maraq artıb. Hazırda cins mallardan ibarət bir neçə təsərrüfat fəaliyyət göstərir. Onlardan biri Poladlı kəndində "Azərbaycan Bayrağı" ordenli Elnur Salahovun atası fermer Elbrus Salahovun heyvandarlıq təsərrüfatıdır. Təsərrüfatda 75 baş qaramal saxlanılır. Elbrus Salahov bildirdi ki, dövlət tərəfindən verilən subsidiyalardan, güzəştli kreditlərdən səmərəli istifadə edərək təsərrüfatda məhsuldarlığın artırılması və cins tərkibinin yaxşılaşdırılmasına nail olmağı qarşıya məqsəd qoyub.

Ümumilikdə isə rayon üzrə 33,3 min qaramal mövcuddur. Onlardan 13,5 min başı inək və camışlar - ana maldır. Davarın sayı isə 42,2 min başdır. Ötən il rayonda 3731,6 ton ət (kəsilmiş çəkidə), 25588,8 ton süd istehsal edilib.

Tərtər rayonu bitkiçilik sahəsində də ildən-ilə uğurlar qazanır. Ancaq yeni proqram ayrı-ayrı fermerlərin deyil, bu sahə ilə məşğul olan hər bir pambıqçının, taxılçının yüksək məhsuldarlığa nail olmasını nəzərdə tutur. Müstəqim Məmmədov bu barədə belə deyir: "Kiçik ailə təsərrüfatları toxum seçimində, aqrotexniki tədbirlərin həyata keçirilməsində çox geri qalırlar. Onların nəticələri iri fermerlərin əldə etdikləri göstəricilərdən qat-qat aşağı olur və rayonun ümumi işinə təsir edir. Gələcəkdə bütün bunlar nəzərə alınacaq. Bu, həm əhalinin özünün həyat səviyyəsini yüksəldəcək, həm də bütövlükdə kənd təsərrüfatının inkişafı sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsinə kömək edəcək".

Bütün hallarda qarşıda görülləsi işlər çoxdur. Odur ki, torpaq sahələrini genişləndirmədən kənd təsərrüfatının hər bir sahəsində daha çox məhsul əldə etmək üçün yollar axtarılır, imkanlar səfərbər edilir.

***SVETLANA BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***

● Taxıl yığımı

## Ölkə üzrə zəmilərdən 2 milyon tondan çox məhsul toplanıb

### Əkin sahələrinin 67 faizində biçin yekunlaşıb

**Ölkədə taxıl biçini davam edir. Kənd Təsərrüfatı Nazirliyi yanında taxıl biçini ilə əlaqədar yaradılmış Mərkəzi Qərargahın operativ məlumatına görə, iyulun 9-dək ölkə üzrə payızlıq taxıl sahələrinin 66,7 faizində biçin başa çatıb.**



Mövsüm ərzində 642 696 hektar sahədə biçin aparılıb, bu sahələrdən 2251886 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 35 sent/ha təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 sent/ha çoxdur.

İndiyədək mexanizatorlar tərəfindən 224603 hektar buğda, 418093 hektar arpa sahəsi biçilib. Bu sahələrdən 884182 ton buğda, 1367704 ton arpa yığılıb. Buğda sahələrinin 49 faizində, arpa sahələrinin isə 83 faizində biçin yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 39,4 sent/ha, arpa üzrə isə 32,7 sent/ha təşkil edir.

Artıq Ucar, Naftalan və Kəlbəcərdə biçin tam yekunlaşıb, respublikanın 17 rayonunda - Ağdaş, Ağsu, Astara, Bərdə, Biləsuvar, Göyçay, Kürdəmir, Goranboy, İmişli, Masallı, Neftçala, Yevlax, Zərdab, Saatlı, Sabirabad, Salyan, Tərtər rayonlarında taxıl biçini yekunlaşmaq üzrədir.

Respublika üzrə biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

## Şəmkir: *orta məhsuldarlıq hələlik 40 sentnerdir*

**Ölkənin əsas kənd təsərrüfatı rayonlarından olan Şəmkirdə cari ilin məhsulu üçün 13 min 909 hektar sahədə taxıl əkini aparılmışdır. Əkin sahələrinin 7 min 135 hektarı suvarılan, 6 min 774 hektarı isə dəmyə torpaqlarıdır. Suvarılan sahələrdə 3 min 202 hektar buğda, 3 min 933 hektar arpa, əlavə olaraq 85 hektar ərazidə isə vələmir əkilmişdir.**

Taxıl biçininin mütəşəkkil təşkili və məhsulun itkisiz yığılması üçün rayon icra hakimiyyətində qərargah yaradılmışdır. Qərargahın üzvləri tez-tez biçin aparılan sahələrdə olur, prosesin gedişini yerində izləyir, fermerlər və təsərrüfat rəhbərləri ilə görüşərək mövcud vəziyyətlə maraqlanırlar. Bu zaman biçin kampaniyasının bütün mərhələlərinin operativ şəkildə əlaqələndirilməsi, kombaynların sahələrə vaxtında cəlb olunması, texnika təminatının düzgün təşkili və məhsul yığımında hər hansı gecikmənin yaranmaması məsələləri diqqətdə saxlanılır. Fermerlərlə keçirilən görüşlərdə onların təklif və müraciətləri dinlənilir, biçin prosesinin daha mütəşəkkil təşkili üçün görüləcək tədbirlər müzakirə olunur. Məhsulun vaxtında və itkisiz yığılmasının əhəmiyyəti diqqətə çatdırılaraq, biçin mövsümündə fermerlərin üzləşə biləcəyi çətinliklərin operativ aradan qaldırılması, kombayn təminatı və texnikanın sahələr üzrə düzgün bölgüsü və fermerlərin müraciətlərinə operativ baxılması barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilir.



Əvvəlki illərdə olduğu kimi, bu il də fermerlər zəmilərdə bol məhsul yetişdirmişlər. Cari mövsümdə də əkin sahələrinə aqrotexniki tələblərə uyğun qulluq göstərilmiş, mineral və üzvi gübrələrdən səmərəli istifadə edilmiş, zərərvericilərə qarşı vaxtında mübarizə tədbirləri görülmüşdür. Görülən aqrotexniki tədbirlər məhsuldarlığın artmasına müsbət təsir göstərmişdir.

Məlumat üçün bildirək ki, bizə verilən son məlumata görə, rayon üzrə 5 min 303 hektar sahədə biçin aparılıb. Bunun 1 442 hektarını buğda, 3 min 861 hektarını arpa zəmiləri təşkil edir. Ümumilikdə sahələrdən 19 min 681 ton məhsul (5 min 782 ton buğda, 13 min 899 ton arpa) biçilib. Rayon üzrə orta məhsuldarlıq hələlik 40 sentnerdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Goranboydakı "Süd Bulağı" MMC xarici bazarlara çıxmaq istəyir

**Goranboyun Muzdurlar kəndində fəaliyyət göstərən "Süd Bulağı" MMC son vaxtlar öz fəaliyyətini genişləndirib.**

Hazırda müəssisədə lazer mala, diskli mala, dişli mala və müxtəlif ferma avadanlıqları istehsal olunur. Rayonda sənayenin aqrar sahəyə inteqrasiyasının gücləndirilməsi baxımından bu müəssisənin fəaliyyəti yüksək qiymətləndirilir.

MMC-nin rəhbəri Fərid Əkbərzadə deyir ki, məqsədləri müəssisədə istehsal olunan texnikaların beynəlxalq standartlara uyğunlaşdırılması və gələcəkdə onların dünya bazarında Azərbaycan məhsulu kimi tanıdılmasıdır: "Bu məqsədlə hazırda müəssisədə yeni texnikaların istehsalına geniş hazırlıq işləri görülür".

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***



## Xocavəndin Hadrut qəsəbəsində torpaqlar əkin məqsədilə istifadəyə verilir

**Dünəndən başlayaraq Xocavənd rayonunun Hadrut qəsəbəsində torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) - eagro.az saytı vasitəsilə müraciətlərin qəbuluna başlanır. Hadrut qəsəbəsində məskunlaşan və yaşayan sakinlərdən müraciətlərin qəbulu prosesi avqustun 9-u gününün sonunadək davam edəcək.**

Hadrut qəsəbəsi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli 236 nömrəli Fərmanının 4.1-ci bəndi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli 544 nömrəli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçiriləcək.

Torpaq sahələri minimum 5 ha təşkil etməklə suvarılan ərazilər olub, əkin üçün hazır vəziyyətə gətirilmiş kənd ətrafında yerləşən torpaqlardır. Hadrut qəsəbəsində birillik və çoxillik bitkilərdən - şaftalı, nektarin, ərik, nar, alma, şabalıd, xurma, armud, gilas, qoz, fındıq, üzüm (süfrə və texniki), çiyələk, qarağat, mavigilə (dibçəkdə), moruq, pomidor, xiyar, badımcan, bibər, soğan, sarımsaq, tərəvəz lobyası, mətbəx çuğunduru, kök, kələm, kartof, buğda, arpa, qarğıdalı (dən və silos üçün), soya, noxud, mərcimək, tütün, yonca, xaşa, müxtəlif ot qarışıqlarının (vika, yulaf, arpa, çovdar) əkilməsi nəzərdə tutulur.








# Gənclik






● Gələcəyin qurucuları

## Gənclərimiz Daşkənd səfərindən zəngin təəssüratla dönüblər

**Qəhrəmanlıq anlayışı zaman keçdikcə yeni məzmun qazanır. Bir vaxtlar bu anlayış daha çox döyüş meydanlarında göstərilən igidliklə əlaqələndirilirdisə, bu gün onun sərhədləri xeyli genişlənib. Müasir dövrdə Vətənə sədaqətlə xidmət etmək, öz dövlətinin maraqlarını beynəlxalq platformalarda qorumaq, öz xalqını layiqincə təmsil etmək, əldə olunan bilik və bacarığı ölkənin inkişafına yönəltmək də qəhrəmanlıq nümunələridir.**




Azərbaycan gəncliyi bu sahədə üzərinə düşən missiyanı uğurla yerinə yetirir. Gənclərimiz beynəlxalq forumlarda, konfranslarda və müxtəlif əməkdaşlıq platformalarında ölkəmizin milli maraqlarını inamla təmin edir, Azərbaycanın müasir simasını dünyaya uğurla tanıdırlar. Gənclərimizin qazandığı hər uğur həm də dövlətimizin nailiyyətidir.

Bu gün Azərbaycan gənclərinin fəaliyyəti ölkə sərhədlərini çoxdan aşıb. Dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlər savadlı, təşəbbüskar və milli dəyərlərə bağlı gənclərimizin öz potensialını nümayiş etdirməsi üçün geniş imkanlar yaradır. Həmin platformalarda səslənən hər fikir, qurulan hər yeni əlaqə və irəli sürülən hər təşəbbüs Azərbaycanın gələcəyinə xidmət edən mühüm addımdır. Məhz bu baxımdan redaksiyamızın qonaqları - Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri, Prezident mükafatı laureatı Ülviyyə Axundova və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının İdarə Heyətinin üzvü, "Career-Plus" inkişaf proqramının rəhbəri Nicat Əliyevlə söhbətimiz maraqlı oldu.

Həmsöhbətlərimiz bir neçə gün əvvəl Daşkənddən qayıdıblar. İyunun 30-da Gənclər Gününə həsr olunmuş Yüksəksəviyyəli Dialoqda Azərbaycan nümayəndə heyətinin üzvləri kimi iştirak edən gənclərimizin təəssüratlarından aydın olur ki, bu səfər onlar üçün təkcə növbəti beynəlxalq tədbir olmayıb. Daşkənd görüşləri yeni dostluqların, ortaq layihələrin və gələcək əməkdaşlıqların əsasını qoymaqla yanaşı, Azərbaycanın uğurlu dövlət gənclər siyasətinin beynəlxalq müstəvidə təqdimatı baxımından da mühüm əhəmiyyət daşıyıb.

Müxtəlif ölkələrdən gəlmiş gənclər, dövlət qurumlarının nümayəndələri və gənclər təşkilatlarının təmsilçiləri bir araya gələrək müasir dövrün çağırışlarını müzakirə edir, təcrübələrini bölüşür, yeni əməkdaşlıq istiqamətlərini müəyyənləşdirirdilər. Azərbaycan nümayəndə heyəti isə bu mötəbər platformada ölkəmizin uğurlu gənclər siyasətini, əldə etdiyi təcrübəni və inkişaf modelini inamla təqdim edə biliblər.

Söhbət zamanı diqqətimizi cəlb edən məqamlardan biri də qonaqlarımızın qazandıqları uğurları şəxsi nailiyyət kimi deyil, Azərbaycanın uğuru kimi dəyərləndirmələri oldu. Onların fikirlərində bir düşüncə qırmızı xətt kimi keçirdi: beynəlxalq platformalarda qurulan hər yeni əlaqə, hər uğurlu təqdimat və səmimi dialoq nəticə etibarilə Azərbaycanın nüfuzuna xidmət edir. Bu tədbir bir daha nümayiş etdirdi ki, müasir dünyada gənclər artıq yalnız gələcəyin qurucuları deyil, bu gün də quruculuğumuzun ən fəal iştirakçılarıdır. Dövlət idarəçiliyindən innovasiyalara, təhsildən beynəlxalq əməkdaşlığa qədər müxtəlif sahələrdə onların təşəbbüsləri dəstəklənir, ideyaları inkişafın mühüm istiqamətlərindən birinə çevrilir.

Təmsilçilərimiz yalnız tədbirin iştirakçıları kimi deyil, həm də öz təcrübəsini bölüşən, yeni əməkdaşlıq təşəbbüsləri irəli sürən və Azərbaycanın müasir inkişaf modelini təqdim edən gənclər kimi diqqətəlayiqdirlər. Nicat Əliyevin sözlərindən də hiss olunurdu ki, Daşkənd səfəri onun üçün növbəti xarici ezamiyyətdən daha böyük məna daşıyır: "Tədbir mənim üçün yalnız beynəlxalq forum deyildi. Orada müxtəlif ölkələrdən olan gənclərlə tanış olduq, onların həyata keçirdikləri layihələrlə yaxından tanışlıq imkanı qazandıq, gələcək əməkdaşlıqlar barədə fikir mübadiləsi apardıq. Xüsusilə türk dünyasını təmsil edən gənclərlə qurduğumuz əlaqələr ortaq layihələrin həyata keçirilməsi və yeni əməkdaşlıq imkanlarının yaranması baxımından böyük əhəmiyyət daşıyır".

Nicatın sözlərinə görə, müxtəlif ölkələrdən olan gənclərin eyni masa arxasında toplaşaraq problemləri müzakirə etməsi, təcrübələrini bölüşməsi və ortaq baxış formalaşdırması beynəlxalq əməkdaşlığın ən səmərəli yollarından biridir. Bu baxımdan tədbir yeni ideyaların formalaşdığı, əməkdaşlıq perspektivlərinin müəyyənləşdirildiyi mühüm intellektual platforma kimi yadda qalıb.

Prezident mükafatı laureatı Ülviyyə Axundova isə tədbirin əhəmiyyətini daha geniş prizmadan qiymətləndirir. Onun fikrincə, Özbəkistanda yaradılan açıq dialoq mühiti dövlətin gənclərə göstərdiyi yüksək etimadın və diqqətin ən yaxşı nümunəsidir: "Dialoq zamanı gənclərin qərarqəbuletmə prosesində iştirakının genişləndirilməsi, innovativ yanaşmaların tətbiqi, beynəlxalq əməkdaşlığın inkişafı və yeni təşəbbüslərin dəstəklənməsi ətrafında maraqlı müzakirələr aparıldı. Azərbaycan nümayəndə heyəti olaraq bu platforma bizim üçün ölkəmizin uğurlu təcrübəsini təqdim etmək, eyni zamanda digər dövlətlərin müsbət təcrübəsini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb etdi".



Ülviyyə Axundova xüsusi vurğuladı ki, son illər Azərbaycanda həyata keçirilən gənclər siyasəti gənclərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradıb. Bu siyasət onların yalnız keyfiyyətli təhsil almasına deyil, həm də idarəetmədə, ictimai həyatda və beynəlxalq əməkdaşlıq platformalarında fəal iştirakına əlverişli şərait formalaşdırıb.

Söhbət zamanı hər iki həmsöhbətimizin fikirlərində ortaq bir məqam xüsusi diqqət çəkdi. Onlar beynəlxalq tədbirlərdə yalnız özlərini deyil, bütöv bir ölkəni təmsil etdiklərinin məsuliyyətini dərindən dərk ediblər. Söylənilən hər fikir, qurulan hər yeni əlaqə və nümayiş etdirilən hər davranış Azərbaycanın beynəlxalq nüfuzunun formalaşmasına xidmət edib.

Yüksəksəviyyəli Dialoqun yaddaqalan məqamlarından biri də tədbirin sonunda Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakçılarla görüşü olub. Müxtəlif ölkələrdən gəlmiş nümayəndələrlə səmimi söhbət edən dövlət başçısının Azərbaycan nümayəndə heyətinə göstərdiyi xüsusi diqqət iştirakçılarda xoş təəssürat yaradıb. Həmin anları Nicat Əliyev bizimlə belə bölüşdü: "Tədbirin sonunda Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşmək mənim üçün unudulmaz anlardan biri oldu. Azərbaycan nümayəndə heyətinə göstərilən səmimiyyət bir daha təsdiqlədi ki, ölkələrimiz arasında münasibətlər təkcə siyasi və iqtisadi sahələri deyil, gənclər sahəsində əməkdaşlığı da əhatə edir. İnanıram ki, belə platformalarda Azərbaycanın fəal iştirakı dövlətimizin gənclər siyasətinin beynəlxalq səviyyədə daha yaxından tanınmasına və yeni əməkdaşlıq imkanlarının yaranmasına mühüm töhfə verir".

Ülviyyə Axundova da hesab edir ki, son illər Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin dinamik inkişafı gənclər sahəsində əməkdaşlığa da yeni məzmun qazandırıb: "Bu gün Azərbaycan və Özbəkistan arasında gənclər siyasəti sahəsində əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə yüksəlib. Qarşılıqlı səfərlər, forumlar və mübadilə proqramları gənclərin bir-birini daha yaxından tanımasına, ortaq layihələrin həyata keçirilməsinə geniş imkan yaradır. Daşkənddə keçirdiyimiz görüşlər də göstərdi ki, gələcək əməkdaşlıq üçün kifayət qədər böyük potensial mövcuddur".

Tarix sübut edib ki, dövlətlərin ən böyük sərvəti təbii ehtiyatlar deyil, insan kapitalıdır. Bu gün Azərbaycanın əsas üstünlüklərindən biri milli dəyərlərə sadiq, müasir dünyagörüşünə malik, savadlı və təşəbbüskar gənclər nəslinin formalaşmasıdır.

Əsl liderlik diplomların, sertifikatların və ya mükafatların sayı ilə ölçülmür. Həqiqi lider qazandığı bilik və təcrübəni cəmiyyətin inkişafına yönəldə bilən, ətrafındakı insanları faydalı fəaliyyətə ruhlandıra bilən insandır. Nicat Əliyevin tələbə hərəkatındakı fəaliyyəti və beynəlxalq proqramlarda qazandığı təcrübə, Ülviyyə Axundovanın isə dövlət gənclər siyasətinin həyata keçirilməsində iştirakı bu baxımdan müasir Azərbaycan gəncliyinin formalaşan liderlik modelini aydın şəkildə nümayiş etdirir.

Gənclər redaksiyamızdan ayrılarkən bir daha əmin olduq ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bu gənclər yaxşı anlayırlar ki, Vətənə xidmət yalnız müəyyən bir peşə və ya vəzifə ilə məhdudlaşmır. Vətənə xidmət harada yaşamağından və fəaliyyət göstərməyindən asılı olmayaraq öz xalqını layiqincə təmsil etmək, dövlətinin maraqlarını qorumaq, qazandığın bilik və bacarığı cəmiyyətin inkişafına yönəltməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● VI "Yüksəliş" müsabiqəsi

## Milli intellektual elita formalaşır

**Müasir idarəçilik prinsiplərinə yiyələnmiş, strateji təfəkkürlü və geniş dünyagörüşlü kadr potensialının formalaşdırılması müstəqil Azərbaycanın dövlət siyasətinin ana xəttini təşkil edir. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kadr islahatlarının fəlsəfəsi məhz yüksək intellektə, innovativ idarəetmə bacarıqlarına və milli dəyərlərə malik yeni nəsil rəhbər şəxslərin önə çıxarılmasına əsaslanır.**



Artıq mühüm bir ənənəyə çevrilən və ölkənin ən nüfuzlu intellektual platformalarından biri sayılan "Yüksəliş" müsabiqəsi növbəti dəfə Azərbaycanın parlaq zəkalarını bir araya gətirib. Hər il cəmiyyətdə böyük rezonans doğuran, şəffaflığı və obyektivliyi ilə gənclərin etimadını qazanan bu mötəbər layihə milli idarəçi kadr bankının zənginləşməsində müstəsna rol oynayır. Cari ildə elan olunmuş "Şəhərsalma və Memarlıq İli" konseptinə həsr edilən 6-cı mövsüm isə rəqabətin miqyası və iştirakçıların hazırlıq səviyyəsi ilə xüsusilə diqqət mərkəzindədir. Gərgin, dinamik və yüksək rəqabət mühitində keçən növbəti mərhələnin başa çatması ilə ölkənin gələcək idarəçiləri olmaq istəyən namizədlərin - ən güclülərin adları, nəhayət ki, ictimaiyyətə açıqlanıb.

İyulun 5-də "Bakı-Ekspo" Mərkəzində 3 gün davam edən və böyük gərginliklə müşahidə olunan yarımfinal mərhələsi rəsmən yekunlaşıb. Respublikanın dörd bir yanından seçilərək bu mərhələyə vəsiqə qazanmış 331 intellektual iştirakçı arasından yalnız öz bacarığı, çevikliyi və liderlik keyfiyyətləri ilə fərqlənən 100-dən çox namizəd adını finalçıların siyahısına yazdırmağı bacarıb. Ekspertlər qrupu tərəfindən idarəçi namizədlərin strateji düşüncə, effektiv liderlik, qərarvermə, komanda işi, böhran vəziyyətlərində idarəetmə daxil olmaqla 9 əsas səriştəsi rəqəmsal və analitik alətlərlə ciddi sınaqdan keçirilib.

Müsabiqənin gedişini və yarımfinal mərhələsinin nəticələrini şərh edən Təşkilat Komitəsinin rəsmiləri gənclərin builki hazırlıq səviyyəsini xüsusi vurğulayıblar. Qeyd ediblər ki, hər il "Yüksəliş" yeni bir nəfəs, yeni bir enerji ilə qarşımıza çıxır. Builki yarımfinal sınaqları göstərdi ki, Azərbaycan gəncliyi təkcə nəzəri biliklərlə kifayətlənmir, həm də qlobal çağırışlara çevik reaksiya vermək bacarığına malikdir. "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş keyslər iştirakçılardan həm kreativlik, həm də strateji planlaşdırma tələb edirdi. Finala vəsiqə qazanan 100-dən çox namizəd real idarəetmə böhranlarına hazır olduqlarını sübut etdi. Onlar dövlətin kadr islahatlarının ən real hərəkətverici qüvvəsidir.

Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev yarımfinalçıları təbrik edərək onlara uğurlar arzulayıb. Bildirib ki, yarımfinal mərhələsinə qədər yüksəlmək iştirakçıların bilik, bacarıq və idarəetmə potensialının göstəricisidir: "Bu müsabiqə ölkənin gələcək idarəçilərinin üzə çıxarılması, onların inkişafının dəstəklənməsi və idarəçilik potensialının gücləndirilməsi baxımından əhəmiyyətli layihədir".

"Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsinin nəticələrinə görə, bu mərhələdə iştirak edən 317 namizəddən 116 nəfəri final mərhələsində mübarizə aparacaq. Ümumilikdə Bakı üzrə 80, regionlar üzrə 36 iştirakçı yarımfinal mərhələsinə buraxılıb. Onlardan 99 nəfəri kişi, 17 nəfəri qadındır. Finalçıların 41 faizi birinci "Yüksəliş" müsabiqəsinin iştirakçısı olmuşdur. Finalçılar arasında müxtəlif sahələrdən beynəlxalq, özəl və dövlət qurumlarında, həmçinin QHT-lərdə çalışan namizədlər yer alır.

Qiymətləndirmə ekspertlər tərəfindən həyata keçirilib. Qeyd edək ki, yarımfinal mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük təlim proqramı təşkil olunub. Təlimlərə 100-ə yaxın ekspert cəlb edilib. Ekspertlər real imtahan mühitinə yaxınlaşdırılmış simulyasiya olunmuş situasiyalar üzərindən iştirakçıların bacarıqlarının qiymətləndirilməsi, qiymətləndirmə meyarları, qiymətləndirmə mərkəzlərinin fəaliyyəti və ekspertlərin funksiyaları barədə ətraflı məlumatlandırılıblar.

Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən "Qiymətləndirmə konfransı" - "Assessment Conference" metodu ilə həyata keçirilib. Bu metod hər bir iştirakçının performansına çoxşaxəli yanaşmanı təmin edir və yekun qərarların kollegial əsasda verilməsinə imkan yaradır.

"Yüksəliş" müsabiqəsinin final mərhələsi iyulun 15-17-də "Bakı-Ekspo" Mərkəzində olacaq. İştirakçılar 3 gün ərzində qalibiyyət uğrunda öz bilik və bacarıqlarını nümayiş etdirəcəklər. Onların 8 səriştəsi (strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi) ekspertlər və idarəçi rəhbərlər tərəfindən qiymətləndiriləcək. Qiymətləndirmə təqdim edilən keyslər üzərində aparılacaq. Keyslər müasir dünya təcrübəsi əsasında və qabaqcıl format üzərində hazırlanıb, Azərbaycanın iqtisadiyyatı, sosial, insan resursları və yenidənqurma sahələrini ehtiva edir.

Xatırladaq ki, 6-cı "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən 2025-ci il 10 dekabr tarixində müvafiq sərəncam imzalanıb.

"Yüksəliş", sadəcə, bir yarışma deyil, həm də effektiv sosial lift funksiyasını yerinə yetirir. Keçmiş mövsümlərin qaliblərinin bu gün tutduqları mövqelər bunun bariz sübutudur. I mövsümün qalibi Nazim Novruzov müsabiqədəki qələbəsindən və Oksford Universitetində aldığı strateji idarəetmə təhsilindən sonra rəqəmsal transformasiya və biznes məsləhətçiliyi sahəsində müxtəlif layihələrin rəhbəridir. Samədin Abbasov (I mövsümün qalibi) mentorluq proqramını uğurla başa vuraraq data analitikası və bank menecmenti sahəsində aparıcı mütəxəssis kimi fəaliyyət göstərir və artıq özü yeni nəsil tələbələrin mentorudur. Qoşqar Daşdiyev, Fərid Mustafayev, İrşad Əsgərxanlı, Kamran Sadıxlı, Məmməd Həsənov, Şəhriyar Həsənverdiyev, Orxan Nağıyev və başqaları (V mövsüm qalibləri) müxtəlif şirkətlərdə, o cümlədən BP-də, bank sistemində, "AzerGold" QSC-də, dövlət idarəçiliyində mühüm idarəetmə keyslərinin həllində iştirak edirlər.

İndiyədək keçirilmiş "Yüksəliş" müsabiqələri ictimaiyyət tərəfindən geniş maraqla qarşılanıb və hər mövsüm artan iştirakçı sayı ilə diqqət çəkib. Birinci müsabiqədə 11 min 760 nəfər qeydiyyatdan keçmiş və yekunda 27 qalib müəyyənləşdirilmişdir. İkinci müsabiqədə 12 min 299 nəfər iştirak etmiş, 22 nəfər qalib adını qazanmışdır. Üçüncü mövsümdə 13 min 474 namizəddən 22 nəfər qalib seçilmişdir. Dördüncü "Yüksəliş" müsabiqəsində 15 min 877 nəfər arasından 25 nəfər qalib olmuşdur. Beşinci mövsümdə isə qeydiyyatdan keçmiş 16 min 553 nəfərdən 20 nəfər müsabiqənin qalibi elan edilmişdir.

"Yüksəliş" müsabiqəsi, sadəcə, bir bilik yarışı deyil, Azərbaycanın insan kapitalının inkişafına qoyulan ən böyük strateji investisiyalardan biridir. Bu platforma hər il innovativ düşüncəli idarəçiləri kəşf etməklə ölkəmizin gələcək inkişaf modelinin memarlarını yetişdirir. İyulun 17-də başlayacaq böyük final sınaqları isə təkcə 20 nəfər qalibin adını müəyyənləşdirməyəcək, həm də dövlət idarəçiliyinə gətiriləcək yeni nəfəsin, intellektual dalğanın başlanğıcı olacaq. Finala vəsiqə qazanaraq adını ən güclülərin sırasına yazdıran qalib idarəçilər ölkənin gələcək inkişafında və dövlət idarəçiliyinin təkmilləşdirilməsində mühüm rol oynayacaqlar.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 26 iyul 2019-cu il tarixdə imzaladığı sərəncamla təsis olunub.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan idman nümayəndə heyəti Belarusda olub

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə idmanın inkişafı, idman infrastrukturunun idarə olunması və idman ehtiyatlarının hazırlanması sahələrində təcrübənin öyrənilməsi məqsədilə Azərbaycan idman nümayəndə heyəti Belarus Respublikasında işgüzar səfərdə olub.**



Nümayəndə heyətinin tərkibində nazirliyin əməkdaşları, idman federasiyalarının nümayəndələri, olimpiya idman komplekslərinin rəhbərləri və digər aidiyyəti qurumların təmsilçiləri yer alıblar.

Nümayəndə heyəti Belarusun əsas idman qurğuları və müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olub, Tennis üzrə Respublika Olimpiya Hazırlığı Mərkəzini, "Çijovka-Arena"nı, Dövlət Mədəniyyət və İdman Müəssisəsini, Belarus Dövlət Bədən Tərbiyəsi Universitetini, Respublika Elmi-Praktik İdman Mərkəzini, "Minsk-Arena" Çoxprofilli Mədəniyyət və İdman Kompleksini, Bədii Gimnastika üzrə Respublika Olimpiya Hazırlığı Mərkəzini, "Stayki" Respublika Olimpiya Hazırlığı Mərkəzini, Üzgüçülük Mərkəzini, Atçılıq İdmanı və Atçılıq Təsərrüfatı üzrə Respublika Olimpiya Hazırlığı Mərkəzini, Avarçəkmə İdman Növləri üzrə Respublika Olimpiya Hazırlığı Mərkəzini və Milli Futbol Stadionunu ziyarət ediblər.

Səfər çərçivəsində Belarus Respublikasının idman və turizm nazirinin müavini Aleksandr Baraulya ilə ikitərəfli görüş baş tutub. Görüş zamanı iki ölkə arasında idman sahəsində əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan Respublikasının Belarus Respublikasındakı səfirliyində də nümayəndə heyəti ilə görüş keçirilib.

## Qrızda "Dağçılıq və təbiət turniri - Qrız-2026" keçirilib

**Azərbaycan Alpinizm Federasiyasının təşkilatçılığı ilə iyulun 4-5-də Quba rayonunun Qrız kəndində "Dağçılıq və Təbiət Turniri - Qrız-2026" keçirilib.**



Turnirin ilk günündə təbii qayalar üzərində boulderinq yarışı təşkil olunub. Yarış 10-13 yaş, 13-16 yaş və 16 yaşdan yuxarı olmaqla üç yaş kateqoriyası üzrə baş tutub. Turnirin ikinci günündə iştirakçılar Qrız kəndindən Qur-Qur şəlaləsi istiqamətində dağ yürüşü ediblər. Yürüşdən sonra idman dırmanmasının çətinlik növü üzrə yarış keçirilib. Ümumilikdə turnir çərçivəsində boulderinq üzrə 9, çətinlik növü üzrə isə 5 marşrut üzrə yarışlar təşkil olunub.

Jurnalist araşdırması

# Bakının yeni nəqliyyat şəbəkəsi

## Paytaxtımız rahat və inteqrasiya olunmuş mobilliyə malik şəhərə çevriləcək

Son illər Bakıda mobilliyin inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülür. Bu baxımdan avtobuslar üçün xüsusi zolaqların ayrılması, skuter, velosiped zolaqlarının salınması, avtobus parkının yenilənməsi ictimai nəqliyyatı əlçatan etməklə, şəxsi avtomobillərdən istifadəni azaldır ki, bu da Bakı kimi şəhərlərdə vacib faktorlardan biridir. Bu gün mərkəzi küçələrdə şəxsi avtomobillərdən yerli-yersiz istifadə də xüsusən pik saatlarda nəqliyyat sıxlığına gətirib çıxarır.









Bakı şəhərinin Baş planında paytaxtın ictimai nəqliyyat sisteminin daha təkmil inkişafını və genişləndirilməsini, nəqliyyat yerdəyişmələrinin təmin edilməsində ictimai nəqliyyatın xüsusi payının artırılmasını, şəhərin nəqliyyat planlaşdırma strukturunun tamamlanmasını və əsas nəqliyyat marşrutları arasında fiziki və məntiqi bağlılığın təmin edilməsini təmin etmək məqsədilə metro, dəmir yolu şəbəkəsinin inkişafı, küçə-yol şəbəkəsinin təkmilləşdirilməsi, velosiped yolları, tranzit qovşaqların yaradılması və inkişafı, ictimai nəqliyyat zolaqları şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. 2040-cı ilədək metro stansiyalarının sayının 46-ya çatdırılması planlaşdırılır ki, artıq bu istiqamətdə də işlərə başlanılıb. İlk iş isə qırmızı və yaşıl xəttin bir-birindən ayrılması prosesidir. Layihəyə əsasən 2027-ci ilədək yeni dəstəkləyici infrastrukturun yaradılması başa çatdırılacaq. Həmçinin 10 yeni metro stansiyanın tikilməsi nəzərdə tutulub.

Bundan başqa, yeni və alternativ yolların çəkilməsi müəyyən yollarda hərəkət sıxlığını azaldacaq və nəticədə avtobus intervallarında müşahidə olunan gecikmələr aradan qalxacaq. Ümumilikdə dayanıqlı mobillik sisteminin yaradılması şəhərdə hərəkəti daha əlverişli və rahat edəcək.

Bakının nəqliyyat məsələləri Prezident İlham Əliyevin xüsusi nəzarətindədir. Ötən ilin yanvar ayında bu mövzuya həsr olunmuş müşavirədə çıxış edən dövlət başçısı bildirib ki, nəqliyyat məsələləri həmişə diqqət mərkəzində saxlanılıb və son 15 il ərzində Bakı şəhərində bir çox böyük layihələr icra edilib, yeni metro stansiyaları istifadəyə verilib, yol qovşaqları, tunellər, körpülər inşa edilib, yeni yollar salınıb: "Əgər biz bu işləri görməsəydik, bu gün, ümumiyyətlə, Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi. Amma yenə də görürük ki, növbəti böyük bir proqramın qəbul olunmasında böyük fayda olacaq".

Ölkə rəhbəri həmçinin son 20 ilə nəzər salaraq qeyd edib ki, bu illərdə Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. 335 körpü və yol ötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib.

Bütün görülən işlər, eyni zamanda qəbul edilən dövlət proqramı sayəsində Bakının nəqliyyat şəbəkəsinin genişləndirilməsi müasir standartlara uyğun şəkildə qurulur. Ümumilikdə bu istiqamətdə həyata keçirilən tədbirlər paytaxtımızı piyadayönümlü şəhərə çevirəcək.

### Mikromobillik zolaqlarının uzunluğu 100 kilometrə çatacaq

Bakının nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat almaq üçün suallarımızı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) ünvanladıq.

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, Bakı şəhərində mikromobillik infrastrukturunun inkişaf etdirilməsi istiqamətində işlər mütəmadi olaraq davam etdirilir. Məqsəd şəbəkənin davamlılığına nail olmaq və mikromobillik vasitələrindən istifadə edən hərəkət iştirakçılarının təhlükəsizliyini və rahatlığını təmin etməkdir. Kəsintisiz mikromobillik zolağının təşkili üçün mərhələli qaydada velosiped yolları əlaqələndirilir. "Bakı şəhərində mikromobillik zolaqlarının uzunluğu artıq 66,6 kilometrə çatdırılıb. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na əsasən, 2030-cu ilə kimi bu şəbəkənin uzunluğunun 100 kilometrə çatdırılması planlaşdırılır. Görülən işlər çərçivəsində skuterlər üçün 1000, velosipedlər üçün isə 623 parklanma məntəqəsi təşkil edilib. İcarəyə verilən skuter sayı 4840, velosiped sayı isə 2200-dür. 2026-cı ilin ilk 5 ayı ərzində Bakı şəhəri üzrə mikromobillik vasitələri 1 368 176 dəfə sifariş olunub və 2 954 801 km məsafə qət olunub. Sifariş sayında ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 dəfə artım olub. Bu ilin yanvar-may aylarında alternativ nəqliyyat növü kimi mikromobillik vasitələrindən istifadə edənlərin sayı 684 081 nəfərdir ki, bu da 2025-ci ilin ilk 5 ayının göstəricilərindən 1,2 dəfə çoxdur", - deyə AYNA-nın məlumatında qeyd olunub.

### Yeni alternativ yollar, tramvay xətləri...

Agentlikdən bildirilib ki, dövlət proqramı çərçivəsində paytaxt və Abşeron yarımadasında mövcud nəqliyyat problemlərinin köklü həlli üçün mühüm addımlar atılır. Proqramda nəzərdə tutulan layihələrin əsas hədəflərindən biri yol hərəkəti iştirakçılarının şəhər mərkəzinə və sıxlıq olan yollara daxil olmadan istədikləri istiqamətə rahat və fasiləsiz hərəkətini təmin etməkdir. Məhz bu məqsədlə yeni irimiqyaslı strateji yolların inşası planlaşdırılıb. Birinci vacib layihə Bilgəh-Novxanı-Xırdalan-M4 avtomobil yoludur. Bu nəhəng infrastruktur layihəsi Abşeron yarımadasının şimal-şərqindəki yaşayış məntəqələrini Bakı şəhərinə daxil olmadan birbaşa şimal istiqaməti və Bakı-Şamaxı-Yevlax magistralı ilə birləşdirəcək. İkinci mühüm layihə Sabunçu və Sulutəpə qəsəbələrini birləşdirən dairəvi avtomobil yoludur. Bu yol yarımadanın şərqindəki Sabunçu rayonu ilə qərbdəki Sulutəpə qəsəbəsi arasında birbaşa və sürətli nəqliyyat əlaqəsi yaradacaq. Sabunçu, Zabrat, Kürdəxanı, Sulutəpə və Binəqədi ərazilərində əhalinin sürətlə artdığı bir dövrdə bu yol yeni alternativ marşrut rolunu oynayacaq. Nəticədə nəqliyyat axını mərkəzi yollara daxil olmadan yönləndiriləcək və şəhərdaxili tıxaclar əhəmiyyətli dərəcədə azalacaq. Üçüncü istiqamət Bakı Dairəvi-1 avtomobil yolu ilə Ziya Bünyadov prospektini əlaqələndirən dairəvi avtomobil yoludur. Hazırda Dairəvi-1 avtomobil yolu natamam olduğu üçün M1 yoluna, yeni Bakı-Sumqayıt şosesinə əlavə böyük yük düşür. Bu birbaşa bağlantı sayəsində şəhərin əsas nəqliyyat arteriyalarının inteqrasiyası güclənəcək. Xırdalan və Sumqayıt istiqamətindən gələn nəqliyyat axını "20 Yanvar" dairəsinə daxil olmadan birbaşa metronun "Koroğlu" stansiyası istiqamətinə hərəkət edə biləcək. Bu da həm mərkəzi yolların, həm də Ziya Bünyadov prospekti üzərindəki nəqliyyat yükünü azaltmağa kömək edəcək. Eyni zamanda Abşeronun şimal-qərb hissəsini şəhərin şərq və cənub-şərq istiqamətləri ilə birbaşa birləşdirəcək yeni Mehdiabad-Baksol-Ziya Bünyadov prospekti avtomobil yolunun inşası və Heydər Əliyev prospektinədək əlaqələndirilməsi nəzərdə tutulur. Gələcəkdə isə bu yol 8 Noyabr prospekti ilə birləşəcək. İnşa ediləcək bu yeni irimiqyaslı yol Mehdiabad qəsəbəsi və Binəqədi ərazisindən başlayaraq Binəqədi şosesi ilə əlaqələndiriləcək. Bunun nəticəsində nəqliyyat axını daha balanslı paylanacaq, xüsusilə Binəqədi-"20 Yanvar"-Ziya Bünyadov prospekti xətti üzrə müşahidə olunan gündəlik sıxlıqlar aradan qalxacaq. Bir çox nəqliyyat vasitələri bu sıxlıqlardan kənarda alternativ yollarla hərəkət etmiş olacaq. Hazırda Azadlıq prospekti-Binəqədi şosesi istiqamətindən Binəqədi-Novxanı yoluna birbaşa və fasiləsiz yol bağlantısı mövcud deyil, həmin istiqamətdə hərəkət edən nəqliyyat axını ensiz və dönmə manevrləri çox olan yoldan keçməyə məcbur qalır ki, bu da həm hərəkət vaxtının artmasına, həm də yol şəbəkəsinin əlavə yüklənməsinə səbəb olur. Qeyd edilən bu yolda aparılacaq yenidənqurma işlərindən sonra birbaşa və fasiləsiz çıxış təmin ediləcək, nəticədə nəqliyyatın hərəkəti sadələşdiriləcək, marşrutlar qısaldılacaq və ümumi hərəkət səmərəliliyi artırılacaq. Həmçinin həmin istiqamətdən çəkiləcək yeni tramvay xətti sərnişinlərin rahat, təhlükəsiz hərəkətinə kömək olacaq, alternativ marşrut yaradacaq.

Avtobusla sərnişin daşımaları şəhərdə mobilliyin təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bununla bağlı bildirilib ki, ictimai nəqliyyat hərəkət cədvəlinə uyğun fəaliyyət göstərsə də, onun tıxacda qalması və ləngiməsi bütün xətt boyunca intervalların pozulmasına gətirib çıxarır. Bu baxımdan xüsusi avtobus zolağı daha çox sərnişinin daşınmasına imkan yaradır. Hazırda Bakı şəhərində 40-a yaxın küçə və prospektdə ümumi uzunluğu 115 km-dən çox olan xüsusi hərəkət zolaqları mövcuddur. Yeni zolaqların salınması istiqamətində iş aparılır.

Xatırladılıb ki, Bakı şəhərində mobillik proqramının icrasına başlanıldığı 2022-ci ildə gündəlik xəttə çıxan avtobusların sayı 1720 idisə, hazırda bu say 2350-yə çatıb. Bu il də avtobus parkının genişləndirilməsi nəzərdə tutulur və plan üzrə 2030-cu ilə qədər xəttə çıxan avtobusların sayı 2800-ə çatdırılacaq.

Ötən ildən etibarən ölkəmizdə ilk dəfə olaraq "AYNA MaaS" tətbiqi istifadəyə verilib. Azərbaycan, ingilis və rus dillərində təqdim edilən tətbiq səmərəli səyahəti və istifadəçilərə nəqliyyat növlərindən istifadə ilə bağlı seçim imkanı təmin edir və ictimai nəqliyyat xidmətlərini təkmilləşdirmək üçün nəzərdə tutulub. Bu rəqəmsal nəqliyyat platforması müxtəlif nəqliyyat növlərini vahid tətbiqdə birləşdirir. Agentlikdən sorğuya cavabda o da bildirilib ki, ötən ilin dekabrından etibarən NFC texnologiyasını dəstəkləyən yerli bank kartları, eləcə də "Apple Pay" və "Google Pay" vasitəsilə nağdsız ödəniş mexanizmi Bakı şəhəri üzrə avtobus marşrutlarında aktivləşdirilib. Bunun nəticəsində nağd pul və ya fiziki "BakıKart"ın daşınmasına ehtiyac qalmır - telefon, "ağıllı saat", bank kartı və ya NFC funksiyalı digər cihazlar vasitəsilə saniyələr içində gediş haqqını ödəmək mümkündür.

### Daha səmərəli hərəkət

**Nəqliyyat eksperti Eldəniz CƏFƏR** qəzetimizə açıqlamasında deyib ki, Bakıda mobilliyin artırılması istiqamətində görülən işlərin nəticələri uzunmüddətli dövrü əhatə edəcək.

Onun sözlərinə görə, məqsəd şəxsi avtomobillərdən istifadəni bir qədər azaltmaq, ictimai nəqliyyatın payını artırmaq və şəhərdə hərəkəti daha dinamik təşkil etməkdir: "Şəhər mobilliyi o anlama gəlir ki, hərəkət hamı üçün - sürücü, piyada, əlilliyi olan şəxslər üçün sərbəst olmalıdır. Metro və tramvay yüksək sərnişin daşıma qabiliyyətinə malik olan nəqliyyat növləridir, onların inkişafı tıxacların azalmasına, səfər vaxtının qısalmasına, ictimai nəqliyyatın cəlbediciliyinin artırılmasına səbəb olacaq".

Ekspert qeyd edib ki, hazırda avtobus parkının yenilənməsi, həmçinin köhnələrin ekoloji təmiz avtobuslarla dəyişdirilməsi, avtobus zolaqlarının salınması, marşrut şəbəkəsinin optimallaşdırılması ictimai nəqliyyatın keyfiyyətini əhəmiyyətli dərəcədə artırıb. Bu istiqamətdə islahatlar davam etdirilməlidir.

E.Cəfərin fikrincə, Bakıda mobillik sahəsində əsas problemlərdən biri insanların zərurət olmadan şəxsi avtomobillərindən istifadə etmələridir: "Əslində, həmin insanlar işini həll etmək üçün ictimai nəqliyyatdan istifadə edə, hətta piyada da gedə bilərlər. Şəxsi avtomobillərdən çox istifadə yollarda sıxlıq yaranmasına gətirib çıxarır. Bəzi insanlar isə asudə vaxtını şəhər mərkəzində maşın sürməklə keçirir. Bunlar mobilliyə vurulan ən böyük zərbələrdir. Şəxsi avtomobillərin sayının sürətlə artması, Bakı şəhərinə ətraf şəhər, qəsəbə və kəndlərdən hər gün 300 minə yaxın nəqliyyat vasitəsinin daxil olması pik saatlarda yüksək nəqliyyat sıxlığı, bəzi ərazilərdə isə ictimai nəqliyyatın hərəkətinə böyük maneələr yaradır. Bu problemləri həll etmək üçün mütləq ictimai nəqliyyat gücləndirilməlidir. Belə olan halda insanlar şəhərdə sərbəst hərəkət edə bilərlər".

Ekspert rəqəmsal texnologiyaların şəhər mobilliyinə təsirindən də danışıb. O bildirib ki, rəqəmsal texnologiyalar nəqliyyatın daha effektiv idarə olunmasına imkan verir. Real vaxt məlumatları, elektron ödəniş sistemləri, intellektual idarəetmə həlləri xidmət keyfiyyətini artırır.

E.Cəfər vurğulayıb ki, perspektivdə Bakı metro, tramvay, avtobus, şəhərətrafı dəmir yolunun vahid sistem kimi işlədiyi, rahat və inteqrasiya olunmuş nəqliyyat mobilliyinə malik şəhər olacaq: "Şəhər mühitlərində adətən metroya, tramvaylara üstünlük verilir. Avtobus zolaqlarının, yüksəktutumlu tramvay, metro xətlərinin açılması sıxlığın azaldılması baxımından effektiv həllərdir. Şəhər mühitində piyadaların şəhərdə sərbəst, rahat hərəkəti üçün lazımi şərait yaradılmalıdır".

Bir sözlə, Bakıda nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər bu sahədə tezliklə mobilliyin daha da inkişafına gətirib çıxaracaq. Beləliklə, paytaxt sakinləri mənzil başına vaxt itkisi olmadan daha rahat çatacaqlar.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Yayda orqanizmimizi susuzluqdan necə qoruyaq?



Yay mövsümündə orqanizm normal fəaliyyətini davam etdirmək üçün daha çox enerji sərf edir, bədən temperaturunu tənzimləmək məqsədilə tərləmə artır və bunun nəticəsində su ilə yanaşı, vacib minerallar da itirilir. Əgər itirilən maye vaxtında bərpa olunmazsa, orqanizm susuzlaşır.

Susuzlaşma ilk baxışdan sadə problem kimi görünsə də, əslində, ürək-damar sistemindən böyrəklərə, sinir sistemindən maddələr mübadiləsinə qədər bir çox orqanın fəaliyyətinə mənfi təsir göstərə bilər. Xüsusilə son illər iqlim dəyişikliyi nəticəsində müşahidə olunan uzunmüddətli isti dalğaları bu riskləri daha da artırır.

Susuzlaşmanın əlamətləri hər zaman güclü olmur. İlk mərhələdə insan, sadəcə, susuzluq hiss edə, ağız quruluğundan, halsızlıqdan və baş ağrısından şikayətlənə bilər. Bəzən diqqətin zəifləməsi, yuxululuq, əsəbilik, başgicəllənmə və sidiyə daha az getmək də susuzlaşmanın erkən əlamətləri hesab olunur. Maye itkisi davam etdikdə ürək döyüntülərinin sürətlənməsi, arterial təzyiqin enməsi, əzələ spazmları, huşun bulanması və hətta istilik vurması kimi həyati təhlükəli vəziyyətlər yarana bilər. Bu səbəbdən susuzluq hissini gözləmədən gün ərzində mütəmadi su qəbul etmək vacibdir. Çünki susuzluq hissi yarandıqda orqanizm artıq müəyyən miqdarda maye itirmiş olur.

Hər kəs eyni miqdarda suya ehtiyac duymur. Gündəlik maye tələbatı yaşa, bədən çəkisinə, fiziki aktivliyə, temperatur və rütubətə görə dəyişir. Fiziki işlə məşğul olanlar, idman edənlər, açıq havada çalışanlar və çox tərləyən insanlar daha çox maye qəbul etməlidirlər. Eyni zamanda uşaqlar, yaşlılar, hamilə qadınlar və xroniki xəstəlikləri olan şəxslər susuzlaşmaya daha həssas qrup hesab edilir. Yaşlı insanlarda susuzluq hissi zəiflədiyi üçün onlar su içməyi unuda bilirlər. Uşaqlarda isə bədən çəkisinə nisbətdə maye itkisi daha sürətlə baş verir. Buna görə də valideynlər və yaxınları bu qrupların kifayət qədər maye qəbul etməsinə xüsusi diqqət yetirməlidirlər.

Bir çox insanlar hesab edirlər ki, susuzluğu istənilən maye ilə aradan qaldırmaq mümkündür. Halbuki qazlı, çox şəkərli içkilər, enerji içkiləri və həddindən artıq kofeinli məhsullar orqanizmin su ehtiyacını tam ödəyə bilmir. Bəzi hallarda onlar sidik ifrazını artıraraq əlavə maye itkisinə səbəb ola bilər. Alkoqollu içkilər də eyni təsirə malikdir və isti havalarda onların qəbulu susuzlaşma riskini yüksəldir. Ən sağlam seçim adi sudur. Bununla yanaşı, şəkərsiz ayran, mineral su, şəkərsiz bitki çayları və təbii meyvələrin tərkibində olan maye də gündəlik balansın qorunmasına kömək edir. Suyu müxtəlif meyvə və ya tərəvəzlərlə dadlandıraraq əldə olunan detoks suyu da faydalı olmaqla birlikdə, həm də lazımi həcmdə su istehlakına səbəb olur. Detoks suyu hazırlayarkən suya meyvə və tərəvəzlərlə yanaşı, darçın çubuqları, mixək, qara bibər kimi ədviyyatların əlavə edilməsi də faydalıdır. Suyun 1-12 saat dəmlənməsini, yəni tərəvəz, meyvə və ədviyyatların dadının, vitamin və minerallarının suya keçməsini gözləmək lazımdır. Gözləmə müddətini azaltmaq istədikdə tərəvəz və meyvələr yüngülcə əzilib suya əlavə edilməlidir. Detoks suları bədəndən bütün zərərli maddələri çıxararaq bağırsaqları təmizləməyə kömək edir. Lakin bu sular bağırsaq tənbəlliyinə səbəb ola biləcəyi üçün uzunmüddətli istifadəsi tövsiyə olunmur.

Yay aylarında qidalanma da orqanizmin maye balansına təsir göstərir. Tərkibində su çox olan qidaların gündəlik rasionda üstünlük təşkil etməsi faydalıdır. Xiyar, pomidor, kahı, qarpız, yemiş, çiyələk, şaftalı, portağal kimi meyvə və tərəvəzlər həm su, həm də vitamin və minerallarla zəngindir. Ağır, yağlı və çox duzlu yeməklər isə orqanizmin suya olan ehtiyacını artırır. Duzun həddindən artıq qəbulu susuzluq hissini gücləndirir və bəzi insanlarda ödəm riskini artırır. Buna görə yayda daha yüngül, balanslı və bol tərəvəzli qidalanmaq məqsədəuyğundur.

Fiziki aktivlik sağlam həyatın vacib hissəsi olsa da, yay istisində məşq edərkən ehtiyatlı olmaq lazımdır. Günün ən isti saatlarında, adətən saat 11:00-dan 17:00-dək açıq havada intensiv idman etmək tövsiyə edilmir. Əgər məşq mütləq açıq havada aparılacaqsa, səhər tezdən və ya axşam saatlarını seçmək daha təhlükəsizdir. İdmandan əvvəl məşq zamanı və sonra kifayət qədər su içmək vacibdir.

İsti havalarda geyim seçimi də susuzlaşmanın qarşısının alınmasına kömək edir. Açıq rəngli, nazik və nəfəs alan pambıq və ya kətan parçadan hazırlanmış geyimlər bədənin sərin qalmasına şərait yaradır. Qara və qalın parçalar günəş şüalarını daha çox udduğu üçün bədən temperaturunu artırır. Günəş altında uzun müddət qalarkən enli kənarlı papaq taxmaq, gün eynəyindən istifadə etmək və kölgədə dincəlmək də orqanizmin həddindən artıq qızmasının qarşısını alır.

Yay mövsümündə xüsusi diqqət yetirilməli problemlərdən biri də günvurmasıdır. Bu vəziyyət orqanizmin artıq bədən temperaturunu tənzimləyə bilmədiyi zaman yaranır və təcili tibbi yardım tələb edir. Güclü baş ağrısı, yüksək hərarət, huşun pozulması, ürəkbulanma, qusma, sürətli nəbz və nəfəsalma istilik vurmasının əsas əlamətləridir. Belə hallarda insan dərhal sərin yerə aparılmalı, artıq geyimləri çıxarılmalı, bədən sərin su ilə isladılmalı və təcili tibbi yardım çağırılmalıdır.

Xroniki xəstəlikləri olan insanların yayda daha diqqətli olmaları vacibdir. Ürək çatışmazlığı, böyrək xəstəlikləri, şəkərli diabet və yüksək təzyiqdən əziyyət çəkən şəxslər qəbul etdikləri dərmanlara görə maye balansında dəyişikliklərlə qarşılaşa bilərlər. Xüsusilə sidikqovucu preparatlar qəbul edən şəxslər həkimin tövsiyələrinə uyğun şəkildə su qəbulunu tənzimləməlidirlər. Bu səbəbdən belə xəstələrin özbaşına çox və ya az su içməsi düzgün yanaşma hesab edilmir.

Yay aylarında insanların tez-tez etdiyi səhvlərdən biri də yalnız çimərlikdə və ya idman zamanı su içmələridir. Əslində, ofisdə işləyən, evdə vaxt keçirən və ya avtomobillə hərəkət edən insanlar da kondisionerli mühitdə müəyyən qədər maye itirirlər. Buna görə su içməyi gün ərzində vərdiş halına gətirmək, masada və ya çantada həmişə su saxlamaq faydalı yanaşmadır. Telefon vasitəsilə xatırlatmalar qurmaq və ya hər yeməkdən əvvəl bir stəkan su içmək kimi sadə üsullar da kifayət qədər maye qəbulunu asanlaşdıra bilər.

Yay mövsümünü sağlam və təhlükəsiz keçirmək üçün susuzlaşmanın qarşısının alınması əsas şərtlərdən biridir. Bunun üçün gün ərzində kifayət qədər su içmək, tərkibində su çox olan qidalara üstünlük vermək, günün ən isti saatlarında birbaşa günəş altında qalmamaq, fiziki aktivliyi uyğun saatlara planlaşdırmaq, açıq rəngli və rahat geyimlər seçmək, uşaqlar, yaşlılar və xroniki xəstələr kimi risk qruplarına xüsusi diqqət yetirmək lazımdır. Sadə görünən bu tədbirlər orqanizmin normal fəaliyyətini qorumağa, istiliklə bağlı problemlərin və susuzlaşmanın qarşısını almağa kömək edir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*




# İngiltərə-Norveç oyununun vaxtı dəyişdirilə bilər

1/4 final mərhələsində keçiriləcək İngiltərə-Norveç oyunu təxirə salına bilər. Bu barədə "Mirror" nəşri məlumat yayıb.



Bildirilib ki, iyulun 12-də Mayamidəki "Hard Rock" stadionunda keçirilməsi planlaşdırılan görüşə əlverişsiz hava şəraiti mane ola bilər. Proqnozlara əsasən, həftəsonu şəhərdə havanın temperaturu 34 dərəcəyədək yüksələcək, həmçinin güclü göy gurultusu və yağış gözlənilir. Mənbənin məlumatına görə, yüksək rütubət səbəbindən matçın startı zamanı hiss olunan temperaturun 43 dərəcəyə çatacağı proqnozlaşdırılır. Bu səbəbdən qarşılaşmanın vaxtının dəyişdirilməsi ehtimalı nəzərdən keçirilir.

Qeyd edək ki, Norveç-İngiltərə matçı Bakı vaxtı ilə iyulun 12-də saat 01:00-da başlamalıdır.



## Bu dəfə Mbappeni "yandırdılar"

Paraqvayda keçirilən ənənəvi San-Xuan bayramında Fransa millisinin kapitanı Kilian Mbappenin obrazında hazırlanmış müqəvva yandırılıb.

Xalq ənənəsinə əsasən, hər il "ən bezdirici şəxs" seçilir və onun fiquru yandırılır. Bu il həmin seçim Mbappenin üzərinə düşüb. Mərasim iştirakçıların şüarları ilə müşayiət olunub.

Qeyd edək ki, buna səbəb DÇ-2026-nın 1/8 finalında Fransa-Paraqvay oyunundan sonra yaşanan qalmaqal olub. Mbappe yığmanın qapıçısı Orlando Xil ilə salamlaşmayıb.

# Xorvatiya millisində Slaven Biliç dönəmi başlayır

Xorvatiya millisinin yeni baş məşqçisinin kimliyi bəlli olub. İnsayder Nikola Şiranın yaydığı məlumata görə, yığmanı Slaven Biliç çalışdıracaq. 57 yaşlı mütəxəssislə 2028-ci ilə qədər müqavilə imzalanacaq.



Biliç 2006-2012-ci illərdə də Xorvatiya millisinə rəhbərlik edib. O, daha sonra "Beşiktaş", "Vest Hem", "Əl-İttihad", "Vest Bromviç", "Uotford", "Beytszin Qoan" və "Əl-Fateh" klublarında çalışıb. Biliç "Əl-Fateh"dən 2024-cü ilin yayında ayrılıb.

Xatırladaq ki, Xorvatiya millisi DÇ-2026-nın 1/16 finalında Portuqaliyaya 1:2 hesabı ilə uduzaraq mübarizəni dayandırıb. Bundan sonra Zlatko Daliç istefa verib və federasiya onun istefasını qəbul edib.

## FIFA-dan Fransa Futbol Federasiyasına rədd cavabı



FIFA Fransa Futbol Federasiyasının Maykl Olisenin Paraqvayla oyunda aldığı sarı vərəqənin ləğvi ilə bağlı apellyasiya şikayətini rədd edib.

"L'equipe" nəşrinin məlumatına görə, bunu Fransa millisinin baş məşqçisi Didye Deşam da təsdiqləyib: "Bu gün səhər FIFA-dan qərarı aldıq. Sarı vərəqə qüvvədə qalır".

Bununla da Olise iyulun 10-da Mərakeşlə keçiriləcək 1/4 final matçında da sarı vərəqə alacağı halda Fransa millisinin mümkün yarımfinal oyununu buraxacaq.



## İsveçrəli qapıçı hamını üstələdi

İsveçrə millisinin qapıçısı Qreqor Kobel DÇ-2026-da rəqiblərini üstələyib. Bu barədə "Opta" məlumat yayıb.

Bildirilir ki, o, xilas etdiyi zərbələrin çətinlik dərəcəsinə görə komandasını real qolla nəticələnə biləcək təxminən 2,6 epizoddan xilas edərək turnirdəki digər bütün qapıçıları geridə qoyub.

Qeyd edək ki, İsveçrə millisi 1/8 finalda Kolumbiyanı penaltilər seriyasında 4:3 hesabı ilə məğlub edərək 1/4 finala yüksəlib. Komanda növbəti mərhələdə Argentina ilə qarşılaşacaq.

# Murat Yakın iddialıdır



İsveçrə millisinin baş məşqçisi Murat Yakın 1/4 finalda Argentina ilə oynayacaqları matç barədə danışıb. Mütəxəssis rəqibə hörmət etdiklərini, amma Argentinanın məğlubedilməz olmadığını bildirib.

"Dünya çempionuna qarşı oynayacağıq. Argentinaya hörmətimiz var, amma son iki matçda onların zəif tərəflərini gördük. Onlara meydan oxuya biləcək gücə sahibik", - deyə Yakın bildirib. Yakın həmçinin İsveçrənin Cənubi Amerika komandalarına qarşı oynamağı yaxşı bildiyini vurğulayıb: "Argentina məğlubedilməz deyil. Ancaq meydana qələbə üçün çıxacağıq. Cənubi Amerika komandalarını yaxşı tanıyıram".

# Messi Klozeyə vəd verdi

Almaniya millisinin sabiq hücumçusu Miroslav Kloze Lionel Messi ilə telefonla danışdığını deyib.

Klozenin sözlərini Bundesliqanın rəsmi saytı belə çatdırıb: "Argentina millisinin baş məşqçisi Lionel Skaloni "Latsio"da komanda yoldaşım olub. İndiyədək müntəzəm əlaqə saxlayırıq. Messi qol sayında mənə çatandan sonra Skaloninin vasitəçiliyi ilə danışdıq. Bu, çox duyğusal idi. Messi ilə meydanlarda bir neçə dəfə üz-üzə gəlsək də, ilk dəfə meydandan kənarda danışırdıq. O, mənə imzalı formasını göndərəcəyini vəd etdi".

Xatırladaq ki, Messi Əlcəzair yığması ilə qrupda keçirdikləri matçda (3:0) 3 dəfə fərqlənərək həmin vaxta qədər 16 qolla mundiallar tarixinin ən yaxşı bombardiri olan Klozenin nəticəsini təkrarlamışdı. Hazırda isə hesabında 21 qol olan Leo DÇ-lərin ən sərrast oyuçusudur.



## Yamal ulduz futbolçudan danışdı

İspaniya millisinin futbolçusu Lamin Yamal Argentinanın ulduzu Lionel Messi barədə danışıb.



Gənc futbolçu Messinin yüksək səviyyədə oynamasına sevindiyini bildirib. "Təbii ki, hər kəs Messinin kim olduğunu bilir. Amma heç kim onun bu qədər yüksək səviyyədə oynayacağını gözləmirdi. Onun adına çox xoşbəxtəm. Artıq turnirdə olmayan Neymar və Kriştianu Ronaldo adına da sevinirəm. Hazırda futbol oynayan hər kəsin uşaqlığına damğa vurublar. Onların başına gələn hər gözəl şey məni də xoşbəxt edir. Amma finala çıxsaq, həmin finalı qazanmaq istəyərəm", - deyə Yamal bildirib.

*Hazırladı:*
***Dönməz ABBASOV***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Azərbaycan ilə İordaniya arasında əlaqələr dostluq və qardaşlıq prinsiplərinə əsaslanır
Qüdrətli dövlət, etibarlı tərəfdaş
Hər ikisinin yaradıcısı cənab İlham Əliyevdir
Azərbaycanın müasir inkişaf modeli
Etimad və etibarın qiyməti
Rəqəmsal təhlükəsizlik naminə
Xocavənd və Şuşaya yeni köç

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# *Mark RUTTE:* "Ankarada çox uğurlu bir sammiti başa vurduq"

NATO-nun baş katibi Mark Rutte Ankarada keçirilmiş Alyans ölkələri dövlət və hökumət başçılarının 36-cı Zirvə görüşünün "son dərəcə uğurlu" olduğunu və bir il əvvəl Haaqadakı sammitdə qəbul edilmiş qərarların icra olunmağa başladığını bildirib.

Zirvə görüşünün ardından keçirilən mətbuat konfransında Rutte görüşün əsas nəticəsinin NATO-nun qəbul edilmiş qərarları həyata keçirmək qabiliyyətinin təsdiqlənməsi olduğunu qeyd edib. "Ankarada çox uğurlu bir sammiti başa vurduq. Bu Zirvə görüşünün mesajı sadədir: NATO nəticəyə nail olur. Prezident Rəcəb Tayyib Ərdoğanın əla qonaqpərvərlik göstərdiyi Ankarada bir il əvvəl Haaqa görüşündə qəbul olunmuş öhdəliklər artıq həyata keçirilir", - deyə o bildirib. Baş katibin sözlərinə görə, Alyans ölkələri müdafiə investisiyalarını artırmağa, yeni hərbi imkanlar inkişaf etdirməyə və müdafiə sənayesi məhsullarının istehsalını artırmağa davam edir. Rutte vurğulayıb ki, Avropa müttəfiqləri və Kanada kollektiv təhlükəsizliyin təmin edilməsi üçün əhəmiyyətli məsuliyyət daşıyırlar. O, həmçinin NATO-ya üzv dövlətlərin 2035-ci ilə qədər müdafiə xərclərini ÜDM-in 5 faizinə çatdırmaq məqsədilə əhəmiyyətli irəliləyişlər əldə etdiklərini, həm əsas hərbi xərcləri, həm də təhlükəsizliyin gücləndirilməsinə qoyulan investisiyaları artırmağa davam etdiklərini bildirib. Eyni zamanda Rutte qeyd edib ki, söhbət təkcə xərclərin artırılmasından deyil, həm də silahlı qüvvələrin getdikcə təhlükəli beynəlxalq mühitdə lazımi imkanlara malik olmasının təmin edilməsindən gedir. Onun sözlərinə görə, əsas prioritetlər müdafiə istehsalını sürətləndirmək, müdafiə sənayesindəki maneələri aradan qaldırmaq, dayanıqlılığı artırmaq və innovasiyanı təşviq etmək olaraq qalır.



Baş katib bildirib ki, sammit zamanı keçirilən NATO Müdafiə Sənayesi Forumunda cəmi bir gündə 50 milyard dollardan çox dəyərində yeni satınalma müqavilələri imzalanıb. Bundan əlavə, müttəfiqlər növbəti 5 il ərzində pilotsuz sistemlərin inkişafına 40 milyard dollarlıq investisiya nəzərdə tutan NATO Dron Edge təşəbbüsünü irəli sürüblər. Rutte həmçinin NATO-nun Alyansın yanacaq logistika infrastrukturunun inkişafı üçün 27 milyard avro ayıracağını açıqlayıb. Əlavə edib ki, müttəfiqlər süni intellekt və hərbi ehtiyaclar üçün qarşılıqlı fəaliyyət göstərən transatlantik bulud infrastrukturunun yaradılması sahələrində yeni addımlar atırlar.

Rutte vurğulayıb ki, NATO-nun Ukraynaya dəstəyi sarsılmaz qalacaq. Onun dediyinə görə, müttəfiqlər bu il və gələn il Kiyevə ən azı 70 milyard avroluq hərbi texnika, yardım və təlim verməyi öhdələrinə götürüblər.

Baş katib həmçinin NATO ölkələrinin kollektiv müdafiə prinsipinə sadiqliklərini bir daha təsdiqlədiklərini açıqlayıb. "Ankarada müttəfiqlər kollektiv müdafiəyə və Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsinə sarsılmaz sadiqliklərini bir daha təsdiqlədilər", - deyə o bildirib.

Rutte qeyd edib ki, ittifaq liderləri həmçinin NATO-nun daha da modernləşdirilməsi və təşkilatın gələcək çağırışlara hazırlanması barədə razılığa gəliblər. Onun sözlərinə görə, Avropa müttəfiqləri və Kanada ABŞ ilə birlikdə Alyansın müdafiəsi üçün daha böyük məsuliyyət daşıyacaqlar. "Bu, bir milyard insanın təhlükəsizliyini təmin etməyə və uyğunlaşmağa davam edən NATO 3.0-ın mahiyyətidir", - deyə baş katib yekunlaşdırıb.

Ruttenin sözlərinə görə, liderlər arasında gedən qızğın müzakirələr Alyansı daha güclü edən açıq fikir mübadiləsi olub. Alyans rəhbəri həmçinin ABŞ Prezidenti Donald Trampın NATO-ya sadiqliyinə həmişə əmin olduğunu vurğulayıb. O, Vaşinqtonun çağırışlarının Avropa müttəfiqlərinin müdafiə xərclərinin artmasına səbəb olduğunu qeyd edib.

Baş katib NATO-nun İrana qarşı sarsılmaz mövqeyini bir daha təsdiqləyib. O, Alyansın Tehranın nüvə silahına sahib olmasını qəbuledilməz hesab etdiyini bildirib və qeyd edib ki, İran blokun məsuliyyət zonasından kənarda olsa da, NATO lazım olduqda töhfə verməyə hazırdır.

Arktikadan danışan Rutte Trampın Rusiya və Çinin regionda artan fəallığına işarə edən açıqlamalarının doğruluğunu etiraf edib. O, NATO-nun artıq Arktika təhlükəsizliyini gücləndirmək üçün addımlar atdığını bildirib. Qrenlandiya ətrafındakı vəziyyətə münasibət bildirən Rutte qeyd edib ki, ABŞ, Qrenlandiya və Danimarka üçtərəfli məsləhətləşmələr aparır. Baş katib hazırda "Arctic Sentry" təşəbbüsünün həyata keçirilməsinə diqqət yetirdiyini bildirib.

Türkiyədə Rusiyanın S-400 zenit-raket sistemlərinin mövcudluğu ilə bağlı Rutte bildirib ki, bu, ilk növbədə Ankara ilə Vaşinqton arasında həll edilməli olan ikitərəfli məsələdir.

Müttəfiqlər arasındakı fikir ayrılıqlarını şərh edən baş katib qeyd edib ki, bu cür müzakirələr 32 üzvdən ibarət Alyans üçün təbiidir və onun əsas vəzifəsi NATO birliyini təşviq etmək və zərurət yarandıqda qapalı qapılar arxasında dialoqu asanlaşdırmaqdır. Mark Rutte həmçinin növbəti NATO sammitinin Albaniyada keçiriləcəyini açıqlayıb. Dəqiq tarix hələ müəyyən edilməyib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# İtaliya casusluq iddiası ilə iki Rusiya diplomatını ölkədən çıxarıb

İtaliya casusluq fəaliyyəti iddiası ilə bağlı Rusiya səfirliyinin iki əməkdaşının ölkədən çıxarılması barədə bəyanat verib. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bu barədə İtaliyanın xarici işlər naziri Antonio Tajani cümə axşamı bildirib.



"İtaliya hökuməti istintaq tərəfindən aşkar edilən casusluq fəaliyyətlərinə görə məsuliyyət daşıyan Rusiya Federasiyasının İtaliyadakı səfirliyində xidmət edən iki hərbi attaşeni ölkədən çıxarmaq qərarına gəlib", -deyə nazir "X" platformasındakı paylaşımında bildirib.

Tajani qeyd edib ki, Xarici İşlər Nazirliyi qərarı birbaşa Rusiyanın Romadakı səfirinə çatdırıb və iki məmura ölkəni tərk etmək üçün üç gün vaxt verib.

Bu addım Roma Dövlət Prokurorluğu tərəfindən 2025-ci ilin may ayında başlanan əks-kəşfiyyat istintaqından sonra atılıb. İtaliyanın iki sabiq kəşfiyyat məmuru əvvəllər pul müqabilində Rusiya zabitlərinə gizli və həssas məlumatları ötürməkdə şübhəli bilinərək həbs olunub.

İtaliyanın "La Stampa" qəzeti xəbər verib ki, şübhəlilərin İtaliya, Avropa İttifaqı və NATO-da yenidən silahlanma planları, dron istehsalı müəssisələrinin yerləri və Ukraynaya hərbi yardım barədə məlumat verdiyi güman edilir.

Rusiya Xarici İşlər Nazirliyi isə TASS agentliyinə bildirib ki, Moskva bu qərara "adekvat cavab verəcək".


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Nigar Arpadaraiyə əzizi

**ƏJDƏR MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3145
Sifariş 865

Qiyməti 60 qəpik